www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 dekabr 2014-cü il Cümə axşamı № 314 (6013) Qiyməti 40 qəpik

**Xəbər**

## Lerikdə dəhşət; kişi arvadını, qayınanasını və özünü öldürdü

yazısı səh.14-də

# İqtidar "açılıma"mı qərar verdi?

# HAKİMİYYƏT REFERENDUMA HAZIRLAŞIR - SENSASİYA

Məlumata görə, böyük ehtimalla fevral-mart aylarında proporsional seçki sisteminin bərpası ilə bağlı ümumxalq səsverməsi keçiriləcək; iqtidarın əvvəlki seçki sisteminə qayıtmasını şərtləndirən səbəblər var; gözlənilir ki, referendumda Konstitusiya çox mühüm əlavə və dəyişikliklər də səsverməyə çıxarılsın

yazısı səh.5-də



## 14 saylı "zon"u üsyana qaldıran ölü məhkumun dəhşətli sirri - fotolar

Elşad Babayevin bacısı prezidentdən kömək istəyir; cəzaçəkmə müəssisəsində məhbusu karserdə işgəncələrlə öldürüblər

yazısı səh.15-də

**Gündəm**

### Abbas Abbasovun "AzerRos"dakı adamı ətrafında həlqə daralır



Qurum prezidenti Asif Məhərrəmova qarşı ittihamlar pik həddə çatıb; "Milyarderlər İttifaqı"nın odioz fiqurları isə növbədənkənar qurultayı boykot yolu seçiblər, ancaq...

yazısı səh.10-da

### ABŞ səfirliyinin mətbuat katibi "Yeni Müsavat"ı ziyarət etdi

yazısı səh.2-də

### "Azərbaycan"ın baş redaktoru ittihamlara cavab verdi

yazısı səh.3-də

### Prezident fərmanı bankların kredit faizlərini azaldacaqmı?

yazısı səh.4-də

### Tanınmış namizədlər bələdiyyə seçkilərindəki nəticələrdən narazıdır

yazısı səh.3-də

### 11 müxalifət partiyasının seçki bloku yarana bilər

yazısı səh.6-da

### Müsavat başqanı Rəsul Quliyevə cavab verdi

yazısı səh.7-də

### Müsavatdan və AMİP-dən AXCP-yə sərt reaksiya

yazısı səh.6-da

*Yanukoviç üzə çıxdı:*

### "Məni öldürməyə qərar vermişdilər"

yazısı səh.12-də

### Müsavat bələdiyyə seçkilərinə dair hesabat yaydı

yazısı səh.8-də

### Rusiya kimin üstünə yıxılacaq?

yazısı səh.9-da

### Gəncədə 7 nəfər dəm qazından zəhərləndi

yazısı səh.14-də



*Əli Həsənov:*

### "Heç kim deyə bilməz ki..."

yazısı səh.4-də



*Vidadi İsgəndərli:*

### "Göyçayda korrupsiyaya qurşananlar Ziya Məmmədova bağlı adamlardır"

yazısı səh.7-də



*Vəfa Quluzadə:*

### "Biz ABŞ-a təzyiq göstərmək istədik, ancaq sonra baxdıq ki..."

yazısı səh.9-da

**25 dekabr 2014**



## İlham Əliyevin 53 yaşı tamam oldu

**Dekabrın 24-də Prezident İlham Əliyevin 53 yaşı tamam olub. Doğum günü münasibəti ilə ölkə başçısına Rusiya prezidenti Vladimir Putin, Türkiyənin sabiq prezidenti Abdulla Gül məktub göndəriblər. Həmçinin Türkiyənin prezidenti R.T.Ərdoğan İ.Əliyevə telefon açaraq, onu təbrik edib.**

Bundan başqa, Gürcüstan prezidenti Giorgi Marqvelaşvili prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik edib.

Həmçinin, ölkə başçısını Belarus, Qazaxıstan, Qırğızıstan və digər ölkələrin rəhbərləri təbrik ediblər.

"Qarabağ qaziləri" və "Vətən Müharibəsi Əlilləri" birlikləri Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyevi doğum günü münasibəti ilə təbrik edib. Bu barədə hər iki təşkilatın mətbuatı xidməti birgə məlumat yayıb. Məlumatda deyilir: Hörmətli prezident, cənab Ali Baş Komandan!

Bu gün Sizin ad gününüzdür! Bu xoş gündə Qarabağ qaziləri olaraq Sizi səmimi qəlbdən təbrik edirik. Sizə uzun ömür, cansağlığı, dövlətimizin, millətimizin rifahı naminə başladığınız işlərdə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq! Arzu edirik Sizin komandanlığınız altında işğal altındakı torpaqlarımızı mənfur düşmən tapdağından azad edək! Öpüb gözünüz üstünə basdığınız üç rəngli bayrağımız Şuşada dalğalansın! Bu işdə biz də sizin yanınızdayıq! Bu işdə Allah köməyiniz olsun!"

İlham Əliyev doğum günündə Bakıda görülən tikinti-quruculuq işləri ilə tanış olub. O və xanımı Mehriban Əliyeva dekabrın 24-də Binəqədi rayonunun ərazisində inşa edilən «Heydər» məscidində aparılan son tamamlama işlərinin gedişi ilə tanış olublar.

## Nazir gediş haqqının artırılmasını istəyir

### Tarif Şurası isə "ictimai nəqliyyatda gediş haqqının artırılması məsələsinə baxılmır" deyir

**Tarif Şurasında ictimai nəqliyyatda gediş haqqının artırılması məsələsinə baxılmır. Bunu İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev "APA-Economics"in sorğusuna cavab olaraq deyib.**

A.Əliyev bildirib ki, Nəqliyyat Nazirliyi tərəfindən ictimai nəqliyyatda gediş haqqının artırılması ilə bağlı Tarif Şurasına müraciət daxil olmayıb.

Xatırladaq ki, Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyat İdarəsinin Bakı Regional Şöbəsinin rəis müavini Əmrah Cəfərov Bakıda sərnişindaşıma ilə məşğul olacaq nəqliyyat vasitələrində gediş haqqının qaldırılması ilə bağlı Tarif Şurasına müraciət olunacağını deyib.

**Ə. Cəfərov deyib ki, bu gün artıq Bakıda yeni və müasir tələblərə cavab verən avtobuslar istismara verilib:** "Bu maşınların hər biri böyük vəsait hesabına alınan nəqliyyat vasitələridir. Yəqin ki, 20 qəpik gediş haqqı bu gün özünü doğrultmayacaq".

Qeyd edək ki, bu gün gələn il Bakıda keçiriləcək I Avropa Oyunları ilə əlaqədar Bakıya gətirilən yeni avtobuslar sərnişinlərin xidmətinə verilib.

Artıq 25 ədəd Türkiyə istehsalı olan "İsuzu" markalı avtobuslar 65 saylı xətt marşrutu üzrə (9-cu mikrorayondan "Azneft" meydanı istiqamətində) hərəkət edirlər.

Digər 25 ədəd avtobus isə yaxın günlərdə 61 saylı marşrut üzrə xəttə buraxılacaq.

Qeyd edək ki, müasir standartlara cavab verən nəqliyyat vasitələri 5 il müddətinə lizinqlə alınıb. Bir avtobusun dəyəri 150 min avro təşkil edir.

Avtobusları Azərbaycana gətirən özəl şirkət ümumilikdə 200 avtobusun gətirilməsini nəzərdə tutur.

## "Beynəlxalq Sığorta" vətəndaşın təzminatını ödəmir

**"Ötən il 90 SC 629 dövlət nömrə nişanlı "Lada Grand" markalı avtomobil almışam. Bu ilin sentyabrında Sabirabaddan Şirvana qayıdarkən maşının sağ tərəfində olan çarx sıradan çıxdı, avtomobil aşaraq yararsız hala düşdü. Mənim də "Beynəlxalq Sığorta" şirkətində "kasko" sığortam var. Ancaq bu günə kimi şirkət mənə dəyən zərəri ödəməkdən boyun qaçırır".**

Bu sözləri Şirvan sakini Natiq Kişiyev "Yeni Müsavat"a yazdığı şikayət məktubunda qeyd edib. Onun sözlərinə görə, maşını Beynəlxalq Bankda kreditdədir, hər ay kredit ödənişi edir və əlində qəbzləri var, üstəlik, şirkətdə maşını sığorta olunub, müqavilə bağlanıb, amma sürücünün adı müqavilədə göstərilməyib:

"Mənim adımın müqavilədə yazılmadığını bəhanə edirlər. Onda şirkətin fikrincə maşını idarə etmək üçün hər kimə etibarnamə verilibsə, adları sığorta müqaviləsində göstərilməlidir. Şikayət məktublarımı Maliyyə Nazirliyinin Sığortalara Nəzarət İdarəsinə də göndərdim. İdarədən də bildirildi ki, sığorta müqaviləsində adım yoxdur, pul ödənilməyəcək".

İdarədən vətəndaşa deyilib ki, məhkəməyə müraciət etsin: "Maşın "Beynəlxalq bank"da kreditdə olduğuna görə ora da müraciət etdim. Bankdan mənə deyildi ki, bank səhlənkarlıq edib, sığorta şirkətinə və sizə vaxtında məlumat verməyib ki, adınız qeyd edilməyib. İndi mən çarəsiz vəziyyətdə qalmışam və "kasko" sığorta olduğu halda təzminat ödənilmir. Çox xahiş edirəm ki, qəzet vasitəsilə bu şikayətimi aidiyyəti yerlərə çatdırsınlar".

❑ **EMİL**

## ABŞ səfirliyinin mətbuat katibi "Yeni Müsavat"ı ziyarət etdi





**Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin mətbuat katibi Nikolas Barnet bu gün "Yeni Müsavat" qəzetini ziyarət edib. Qəzetin baş redaktoru Rauf Arifoğlu ilə görüşüb söhbət edən N.Barnet daha sonra redaksiyanın iş şəraiti ilə əməkdaşlarla görüşüb, qəzetin və musavat.com saytının iş rejimi ilə maraqlanıb. Qonağa müfəssəl məlumat verilib.**

Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusların nümayəndələri ölkədə fəaliyyət göstərən nüfuzlu qəzetlərlə əməkdaşlıqda maraqlı olduqlarını bildirir və vaxtaşırı qəzet redaksiyalarında qonaq olurlar.

❑ **Musavat.com**

MÜSAVAT

## Müsavat Məclisinə namizədlərin qeydiyyat prosesi davam edir

**Dekabrın 27-də Müsavat Məclisinin növbəti iclası keçiriləcək. Həmin gün Məclisin sədr və katibliyinə, eləcə də partiyanın MNTK, Divan və sərbəst Məclis üzvlüyünə boş qalmış yerlərə seçkilərin keçirilməsi nəzərdə tutulur. Artıq namizədlərin qeydiyyat prosesi başa çatmaq üzrədir. Dekabrın 26-sı sonuncu gündür.**

İndiyə qədər Məclis katibliyindən başqa, digər seçkili orqanların hər birinə iddiasını irəli sürən şəxslər var.

**Bu barədə musavat.com-a Müsavat Divanın üzvü Razim Əmiraslanlı məlumat verib:** "Artıq 25-ə yaxın şəxs sərbəst Məclis üzvlüyünə namizədliyini irəli sürüb. Eyni zamanda 4 nəfər MNTK-ya iddialıdır. Hələ ki sədrliklə bağlı bir dəyişiklik yoxdur. Nüşabə Sadıxlı və Sabir Məmmədli namizəddir. Divana isə indiyə qədər yalnız Səxavət Soltanlının namizədliyi qeydə alınıb. Siyahının artacağı istisna deyil. Qeydiyyat müddətinin başa çatmasına iki gün qalır".

Qeyd edək ki, hazırda Müsavat Məclisinə 32 , MNTK-ya 3, Divana isə 4 yer boşdur. Məclis sədri avtomatik Divan üzvü sayılacaq. İndiyə qədər keçirilən 3 seçki nəticəsində Məclisi tam formalaşdırmaq mümkün olmayıb.

❑ **CAVANŞİR**

## Arif Hacılı özünə yeni 6 müşavir təyin etdi



**Müsavat Partiyasının başqanı Arif Hacılı Müsavat başqanının müşavirlərinin təyin olunması barədə sərəncamlar imzalayıb. Həmin sərəncamlara əsasən Müsavat Partiyası Cəlilabad rayon təşkilatının üzvü Hidayət Xudaverdi oğlu İsmayılov, Müsavat Partiyası Şəmkir rayon təşkilatının üzvü Fariz Mustafa oğlu Cəfərov, Müsavat Partiyası Oğuz rayon təşkilatının üzvü Vaqif Qədir oğlu Davudov, Müsavat Partiyası Xaçmaz rayon təşkilatının üzvü Ramazan Hacıza oğlu Əliyev, Müsavat Partiyası Kürdəmir rayon təşkilatının üzvü Baha Qasım oğlu Mikayılov və Müsavat Partiyası Siyəzən rayon təşkilatının üzvü Mərdan Mehdi oğlu Mehdiyev Müsavat Partiyası başqanının müşaviri təyin ediliblər.**

## Pərviz Həşimlinin apelyasiya şikayəti təmin edilmədi

**Dekabrın 24-də Bakı Apelyasiya Məhkəməsində hakim Vaqif Mursaqulovun sədrliyi ilə jurnalist və hüquq müdafiəçisi Pərviz Həşimlinin barəsində verilmiş hökmdən apelyasiya şikayətinə baxılıb. Proses saat 15.00-a təyin edilsə də, saat 17.30-da başlayıb. Hakim Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünü qüvvədə saxlayıb.**

Pərviz Həşimli Təvəkkül Qurbanov adlı şəxslə 2013-cü il sentyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyatla saxlanılıb. Onlara qarşı odlu silahın və döyüş sursatının qaçaqmalçılığı və odlu silah saxlama maddələri ilə ittiham irəli sürülüb. Pərviz Həşimli ittihamları qəbul etmir, T.Qurbanovun MTN-in adamı olduğunu deyərək, onun vasitəsilə şərləndiyini və siyasi sifarişlə, saxta ittihamla həbs edildiyini bəyan edib. Lakin Bakı Ağır Cinayətlər Məhkəməsinin 15 may 2014-cü il tarixli hökmü ilə Pərviz Həşimli 8 il, Təvəkkül Qurbanov isə 8 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

Pərviz Həşimli ittihamları qəbul etmir, jurnalist fəaliyyətinə görə həbs edildiyini bəyan edir. «Amnesty İnternational təşkilatı Pərviz Həşimlinin "vicdan məhbusu" kimi tanıyıb.

❑ **SEVİNC**

## Müstəntiq Xədicə İsmayıla "açıqca və məktub" sualları verir

**«Müstəntiq Xədicə İsmayılla görüşüb. Amma maraqlısı odur ki, Xədicəyə təqsirləndirildiyi cinayət işi üzrə deyil, evindən tapılan açıqcalar və məktublarla bağlı suallar verib. Həmin açıqcalar Leyla Yunusa göndərilib, məktublarsa Tofiq Yaqubluya aid olub. Xədicə İsmayıl təqsirləndirilən şəxs qismində ifadə verməkdən imtina edib».**

Bunu AzadlıqRadiosuna vəkil Yalçın İmanov deyib. Vəkil Xədicə İsmayılla dekabrın 24-də görüşüb: «Xədicə İsmayıl özünü çox yaxşı hiss edir. Gümrahdır, hər kəsə salamları var. Onun mediada dərc olunan yazılarından sonra yazışmalarına xüsusi nəzarət edilir, yazıları yoxlanılır. Vəkillərlə görüşü nəzarət altında keçirilir».

Əldə etdiyimiz məlumata görə, hakimiyyət X.İsmayılı Tural Mustafayevin intihar iddiasına görə cəzalandırmaq fikrindən daşınıb. Hazırda onun ətrafında hələlik tam detalları bilinməyən, amma hazırlığı gedən bir ssenari qurulur. Son zamanlar T.Mustafayevin susqunluğu, sözügedən mövzuda hər hansı açıqlama verməməsi də məhz bu səbəbdəndir. Ona "sus" əmri verilib. T.Mustafayevin ilk günlərdə sosial şəbəkədəki hesabında bəzi mesajlar verməsi, öz adından açıqlamalar yayması da dayanıb. Eks-jurnalist hazırda ancaq sentimental mahnılar və ayrılıq şeirləri paylaşmaqla məşğuldur.

X.İsmayıl dekabrın 5-də həbs olunub. O, Tural Mustafayev adlı şəxsi özünüöldürmə həddinə çatdırmaqda ittiham olunur.

❑ **Yeni Müsavat**



## "Yeni Müsavat" rəhbərliyi Tofiq Yaqublu üçün prezidentə müraciət etdi

### Rauf Arifoğlu: "Ümid edirəm ki, sözümüz yerə düşməyəcək"

**31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı əfv sərəncamının veriləcəyi barədə yayılan xəbərlər ciddi xarakter almağa başlayıb. İndiyədək hər il bu bayram əfvə olan ümidləri artırır.**

Siyasi məhbus ailələri də Yeni ilə böyük ümidlərlə baxırlar. Xüsusilə İnsan Haqları üzrə Birgə İşçi Qrupunun fəaliyyətinin bərpa edilməsi bu inamı artırır. Artıq İşçi Qrupu siyasi məhbusların azadlığa çıxması istiqamətində işə başlayıb.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu daha öncə "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, hazırda İşçi Qrupu məhbusların sənədlərini toplayır:** "Xəstə məhbusların siyahısı hazırlanır. Hələ ki məhbusların çoxu bizə müraciət etməyib. Bazar ertəsi İşçi Qrupunun növbəti toplantısı olacaq. Önəmli məsələlərin müzakirəsi gözlənilir. Dekabrda əfvə olacaq ümidlərimiz çoxdur. İşçi Qrupu məhz bundan ötrü yaranıb. Hər əfvdə 4-5 nəfər buraxılır. Hesab edirəm ki, bu dəfə daha geniş əfv olacaq. Sadəcə, buna ümidliyik..."

Siyasi məhbus Tofiq Yaqublu üçün də "Yeni Müsavat" rəhbərliyi müraciət edib. Adətən son vaxtlar ancaq məhbusların özləri müraciət edəndə nəzərə alınır. Bu məqam T.Yaqubluya da aiddir. "Yeni Müsavat" rəhbərliyi isə T.Yaqublunun əfv ərizəsi yazmayacağını bildiyi üçün belə bir müraciət hazırlayıb. Bu məlumatı qəzetin baş redaktoru Rauf Arifoğlu təsdiqlədi. Dedi ki, Azərbaycan prezidentinə T.Yaqublunun və digər jurnalistlərin azadlığa buraxılması ilə bağlı müraciət edib: "Və o müraciəti Əfv Komissiyasına təqdim etmişik. Ümid edirəm ki, sözümüz yerə düşməyəcək".

❑ **Sevinc TELMANQIZI**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 314 (6023) 25 dekabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması və hər iki bayramla bağlı mərasim keçirildi. "Altun Saray"da keçirilən mərasimdə fondun icraçı direktoru Vüqar Səfərli qalibləri təbrik etdi. Vüqar Səfərli 2014-cü il ərzində fondun fəaliyyəti, keçirdiyi müsabiqələr, tədbirlər, görüşlər barədə hesabat xarakterli məlumat verdi.**



# Bir qrup jurnalistə mükafat verildi

## KİV-ə Dövlət Dəstəyi Fondu böyük mərasim keçirdi






V.Səfərli fondun yarandığı gündən mətbuatın maddi-texniki problemlərinin həlli, ölkə jurnalistlərinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi layihələr barədə danışdı. Bütün bu işlərin prezident İlham Əliyevin mediaya verdiyi dəstək sayəsində həyata keçirilməsini vurğuladı.

Fondun 2014-cü ildə müxtəlif mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birgə 10-dək fərdi jurnalist yazıları müsabiqələri təşkil etdiyini bildirən V.Səfərli həmin müsabiqələrdən ümumilikdə 336 nəfər jurnalistin bəhrələndiyini diqqətə çatdırdı.

V.Səfərli qaliblərinin təqdimatı həyata keçirilən müsabiqəyə 58 kütləvi informasiya vasitəsindən 154 yazının təqdim edildiyini, yazıların 13 ekspert tərəfindən qiymətləndirildiyini, Müşahidə Şurasının qərarı ilə 57 redaksiyanı təmsil edən 114 nəfər jurnalistin qalib elan edildiyini bildirdi. Fondun icraçı direktoru müsabiqədə hər istiqamət üzrə I yer üçün 500 manat olmaqla 1, II yer üçün 300 manat olmaqla 2, III yer üçün 200 manat olmaqla 3 mükafatın nəzərdə tutulduğunu xatırlatdı.

**Prezident Administrasiyası İctimai siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov** da çıxışında media işçilərini təbrik etdi. Əli Həsənov dövlətin, şəxsən prezident İlham Əliyevin medianın inkişafına dəstək verdiyindən geniş danışdı. O qeyd etdi ki, Heydər Əliyevin prezidentliyi dönəmindən mediaya göstərilən dövlət dəstəyi hazırda prezident İlham Əliyev tərəfindən həyata keçirilməkdədir. Azərbaycanda mediaya dəstək dövlətin siyasətinin tərkib hissəsidir. Hakimiyyət təmsilçisi KİV-ə Dövlət Dəstəyi Fondunun yaradılmasının və fəaliyyətinin Azərbaycanda mediaya, jurnalistlərə dəstəyin nümunəsi olduğundan da danışdı.

Əli Həsənov növbəti illərdə də jurnalistlərə dəstəyin davam edəcəyini, dövlətimiz inkişaf etdikcə medianın da paralel olaraq inkişaf edəcəyini söylədi.

Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxışında jurnalistləri təbrik etdi. Eyni zamanda Azərbaycanda sabitliyin olmasında, jurnalistlərin dəstəklənməsində ölkə başçısı İlham Əliyevin şəxsən rolunun olduğunu bildirdi. İlham Əliyevin məhz buna görə jurnalistlərin dostu olduğunu dedi.

Çıxış edənlərin hər biri prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik etdilər.

Sonra müsabiqədə birinci yeri tutan qaliblər mükafatlandırıldı. Qeyd edək ki, birinci yerin qalibləri sırasında "Yeni Müsavat"ın müxbiri Etibar Seyidağa da yer alır.

**Mərasimin bədii hissəsi sənətçilərin ifası ilə davam etdirildi.**

❑ E.AĞAYEV

# "Azərbaycan"ın baş redaktoru ittihamlara cavab verdi

## Bəxtiyar Sadıqov: "İşimizi açıq-aşkarlıq şəraitində görürük"



Bəxtiyar Sadıqov

**Xəbər verdiyimiz kimi, bir neçə gün öncə rəsmi "Azərbaycan" qəzetində "ABŞ-Azərbaycan münasibətlərinə kiçik ekskurs və gələcək haqqında düşüncələr" adlı məqalə dərc olunub. Həmin yazıda ABŞ-a qarşı sərt ittihamlar yer alır, eyni zamanda Amerikanın 2005-ci ildə eks-spiker Rəsul Quliyev və sabiq nazir Fərhad Əliyev vasitəsilə dövlət çevrilişi etmək istədiyi iddia olunur. "Azərbaycan" qəzetində dərc olunan məqaləni, yəni illər öncənin olaylarının yenidən dövriyyəyə buraxılmasını son vaxtlar ABŞ-da Azərbaycan hökumətinə yönəlik tənqidlərə cavab reaksiyası da saymaq olar.**

Amerika mətbuatı son vaxtlar ardıcıl şəkildə Azərbaycan iqtidarını vətəndaş cəmiyyəti və mətbuata təzyiqlərə, həyata keçirilən həbslərə görə ittiham edib. Vaşinqtonda Amerika Azərbaycanlıları Demokratiya Uğrunda (AZAD) təşkilatının forumunda "ABŞ-ın sanksiyaları Azərbaycan dissidentlərinə kömək edə bilərmi?" adlı forum da keçirilmişdi. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kazlariç, "Freedom House" təşkilatının keçmiş rəhbəri, hazırda Makkeyn İnstitutunda insan hüquqları və demokratiya üzrə baş direktor vəzifəsini tutan David Kramer Bakıya təzyiqləri artırmağa çağırmışdılar.

**Sitat:** "...Radikal müxalifət başçılarının, konkret cinayət əməllərinə görə Azərbaycanda məsuliyyətə cəlb olunmuş və beynəlxalq axtarışa verilmiş, uzun illərdir ABŞ-da yaşayan Rəsul Quliyevin və "hakimiyyətdaxili müxalifət" olan keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevin hakimiyyətə gətirilməsi planı da məhz ABŞ-a məxsus idi. Yalnız Azərbaycan dövlətinin qətiyyətli mövqeyi nəticəsində bu məkrli çevriliş ssenarisinin qarşısı alındı. Azərbaycan qazanan, ABŞ və onun ölkəni tələm-tələsik tərk edən səfiri Rino Harniş isə məğlub tərəf oldu".

**Bu ittihamla bağlı hazırda ABŞ-da yaşayan Rəsul Quliyev "Yeni Müsavat"a açıqlamasında bildirib ki, son vaxtlar hökumət mətbuatında ABŞ və Qərbin əleyhinə gedən yazılar isterikdir və bu siyasət ölkəmizi uçuruma aparır, bunu anlamamaq bizə çox baha başa gələcək:** "Bu yazılar kimlərin qulaqları üçün nəzərdə tutulub bilmirəm. Ancaq onu deyə bilərəm ki, bu yazıların effekti normal düşüncəli adamlar üçün ancaq neqativ ola bilər. Hətta Azərbaycandan qat-qat güclü olan Qazaxıstan və Özbəkistan heç vaxt belə isterik yazılara yol vermədi. Çünki ağzını geniş açmış qonşusunun - "ac timsah"ın qarnına getməməyin yeganə yolu Qərblə dil tapmaqdadır, onlar da bunu çox gözəl anlayırlar".

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov isə bu yazılarla bağlı bildirib ki, qəzetdə bir analitik qrup öz təhlilini ictimaiyyətə təqdim edib:** "Amma dövlətin hər hansı nümayəndəsi, tutaq ki, Xarici İşlər Nazirliyi, MTN, digər rəsmi qurumun nümayəndələri belə bir bəyanatla çıxış etməyib. Təbii ki, "Azərbaycan" dövlət qəzetidir, parlamentin orqanıdır. Amma bununla yanaşı, orda müxtəlif yazılar çap olunur, müsahibələr gedir, hər kəs fikir və rəylərini ifadə edir. Bu yazı da hansısa bir qrupun fikir və rəyidir. Müxtəlif qəzetlərdə olduğu kimi, "Azərbaycan" qəzetində də müxtəlif səpkili yazılar gedir. Redaksiya bu yazılara görə cavabdehlik daşımır".

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov isə "Yeni Müsavat"a açıqlamasında bu iddiaları cavablandırmaq istəmədiyini bildirdi. Onun sözlərinə görə, "Azərbaycan" qəzeti nə yazırsa, bunu adi oxucudan tutmuş, politoloqa, siyasətçiyə qədər hər kəs anlayır:** "Kim isə harada açıqlama verirsə, bu, onun şəxsi mövqeyidir. İşimizi açıq-aşklarlıq şəraitində görürük, bütün mövqelərə hörmətimiz var".

❑ Sevinc TELMANQIZI

# Tanınmış namizədlər seçkilərdəki nəticələrdən narazıdır

**Bələdiyyə seçkiləri geridə qalsa da, seçki prosesi ətrafında müzakirələr davam edir. Bəs görəsən, hakimiyyətin şəffaf və ədalətli, müxalifətinsə saxta və ədalətsiz adlandırdığı seçkilərdə iştirak edən tanınmışlar hansı nəticə qazanıblar?**

**Ümid Partiyasından bələdiyyə seçkilərində namizəd Tamilla Qulami** də seçilmək şansının yüksək olduğunu söylədi: "Binəqədi rayonundan namizədliyimi vermişdim. Dünən (srağagün-red.) 12 saylı məntəqədə baş verənlərin şahidi olduq. Seçkilərdə biz həm də səlahiyyətli nümayəndə idik. Bir neçə rayon məntəqələrində müşahidədə olduq. Hələ saat 12 deyildi, amma çox məntəqələrdə qutular artıq dolu idi. Çox problemlər yaşadıq. Bütün bunlar bir dəfəyə aradan qaldırılmır, bu problemlər illərlə davam edir, ancaq məntəqələrdə yetərincə müşahidəçi, jurnalist, vəkil olmadığından hər zaman yaşanılası hallardır. Ona görə iddialı olan şəxslər, sadəcə, namizədliyini irəli sürüb məsuliyyətinin bununla bitməsini gözləməməlidir. "Karusel"lər də oldu, topa-topa bülletenlər də atıldı qutulara, çəkildi və qarşısı da alındı. Biz təbliğat-təşviqat kampaniyasına start verəndən öz üzərimizdə, seçicilərlə çox işlədik. İmkan dərəcəsində seçicilərlə görüşdüm. Əhali çox inamsız idi. Hətta mənə dedilər ki, inanmırıq nəticələr istədiyimiz kimi olacaq, ona görə dəyməz səs verməyə. Mən isə başa salmağa çalışırdım ki, bu lap pisdir, çünki getməyəcəksiz, boş bülletenlərə səslər yazılacaq. İlkin nəticələrə görə mən seçilmişəm və inanıram ki, bacardığım qədər insanlarda inam yaratmışam. Ancaq ümumilikdə təəssüflər olsun ki, seçkinin gedişatı bizi heç qane etmədi".



**Tamilla Qulami:** "İlkin nəticələrə görə mən seçilmişəm və çox həyəcanlıyam"



**Günel İbadova:** "Əməyimiz nəticəsini verdi..."

**Partiyadan digər bir namizəd Günel İbadova bildirdi ki, ilkin nəticələrə görə o qalib gəlib:** "Nizami rayonu, 24 saylı dairədən namizədliyimi irəli sürmüşdüm. Keşlə qəsəbəsində anadan olmuşam, məktəbi də orda bitirmişəm. Hər tininə, dalanına bələdəm. Seçki kampaniyası başlayandan bütün qonşular, sinif yoldaşlarım, müəllimlərim, dost, tanışlar kampaniyama qoşuldular. Bu çox böyük dəstək idi. Əməyimiz nəticəsini verdi, ilkin nəticələrə görə mən artıq seçilmişəm. Həyəcanım həm sevinclidir, həm də məsuliyyət hissi var. Seçicilərimin gözləntiləri var. Onları doğrultmağa çalışacağam. Seçicilərimə, partiyama minnətdaram".

**Günel İbadova qeyd edib ki, həm də MSK-nın səlahiyyətli nümayəndəsi olduğundan Binəqədi, Xırdalan, Nəsimi rayonlarında müşahidə aparıb:** "Bəzi məntəqələrdə vətəndaşlarımız səsvermədə aktiv iştirak edirdilər, bəzilərində isə heç adam yox idi. KİV-də işıqlanan qanun pozuntularını izləmək çox üzücü idi. Elm və təhsil ocağı nümayəndələrinin jurnalistlə qeyri-etik davranışı biabırçılıq idi. Hesab edirəm ki, seçki nəticələrini yalnız demokratiya faktoruna yükləmək o qədər doğru deyil. Burda cəmiyyətin, doğru təlimatlanmış müşahidəçilərin məsuliyyətli fəaliyyəti və aktiv seçicilərin də rolu əsasdır".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 314 (6023) 25 dekabr 2014



# "Heç kim deyə bilməz ki..."

## Əli Həsənov: "Azərbaycanda kütləvi informasiya vasitələrinə dövlət dəstəyi bəhrəsini verib"

**"Azərbaycanın müstəqil mediası 2014-cü ildə inkişaf edib və Azərbaycanda kütləvi informasiya vasitələrinə dövlət dəstəyi bəhrəsini verib". Virtualaz.org-un məlumatına görə, bunu Prezident Administrasiyasının (PA) İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimindəki çıxışında deyib.**

Ə. Həsənov qeyd edib ki, heç kim Azərbaycanda söz və məlumat azadlığı, KİV-in müstəqilliyi sahəsindəki mövcud vəziyyətin dünyanın hansısa ölkəsindəki vəziyyətdən pis olduğunu deyə bilməz: "Heç kim deyə bilməz ki, bu sahədə fəaliyyət göstərən hər hansı jurnalist indiyə qədər dövlət tərəfindən və yaxud, dövlətin ayrı-ayrı strukturları tərəfindən təzyiqlərə məruz qalıb. Lakin təəssüflər olsun ki, bu gün dünyada Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş azad media mühitini qaralamağa çalışan müxtəlif qeyri-hökumət təşkilatları və ayrı-ayrı beynəlxalq dairələr mövcuddur. Bilirsiniz ki, Azərbaycanda azad milli medianın təməli hələ 1875-ci ildə böyük mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən qoyulub. Ondan sonra ayrı-ayrı dövrlərdə Azərbaycan mediası müxtəlif inkişaf mərhələləri keçərək bugünkü inkişaf səviyyəsinə çatıb. Bu mərhələdə ümummilli lider Heydər Əliyevin xidmətləri danılmazdır. Məhz Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan mediası nəinki ölkənin aparıcı institutlarından birinə çevrildi, eyni zamanda regionun və dünyanın qabaqcıl nümunələri sırasına daxil oldu. Ümummilli liderin 1998-ci il avqustun 6-da imzaladığı fərman Azərbaycanda azad, kənar təsir olmadan özünü tənzimləyən medianın təməlini qoydu. 2008-ci ildə Azərbaycan prezidenti İlham Əliyev ümummilli liderin yolunu davam etdirərək "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nı təsdiq etdi və medianın inkişafına dəstəyi dövlət siyasəti səviyyəsinə qaldırdı. 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu bu günə qədər azad medianın inkişafına öz önəmli töhfələrini verir".

**Ə. Həsənov bu gün Azərbaycanın üzərinə gələn bəzi beynəlxalq dairələrin məqsədyönlü şəkildə söz və məlumat azadlığından sui-istifadə etdiyini və jurnalistlərin konkret istiqamətə yönəltdiyini diqqətə çatdırıb:** "Bu gün böyük dövlətlərdə baş verən hadisələr həmin ölkələrin bəlli dairələrinin senzurasından keçirilərək onlara məxsus transmilli media vasitəsilə dünyaya təqdim olunur. Üstəlik, həmin transmilli media ayrı-ayrı müstəqil ölkələrdə, məsələn, müsəlman dövlətlərində baş verən hadisələri də həmin dairələrin maraqları prizmasından dünyaya çatdırmaq istəyir. Məgər dünyada siyasi plüralizm, media plüralizmi təkcə bir neçə transmilli media orqanına aid olan dəyərdirmi? Məgər dünyada baş verən hadisələri işıqlandırmaq baxımından Azərbaycandakı jurnalistlərlə həmin o böyük dövlətlərdə yaşayan jurnalistlərin hüquqları eyni deyilmi?"

**Ə. Həsənov təəssüflə vurğulayıb ki, bu gün bəzi beynəlxalq və xarici jurnalist qurumları ayrı-ayrı ölkələrdə media azadlığının vəziyyətini qərəzli şəkildə təhlil edir, ortaya heç bir reallığa uyğun gəlməyən siyahılar qoyurlar:** "Müxtəlif kiçik dövlətlərin siyasətinə təsir göstərmək məqsədilə bu və ya digər təzyiq mexanizmləri işə salınır. Ancaq bu gün biz qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda azad media formalaşıb, inkişaf edir və bundan sonra da inkişaf edəcək. Azərbaycan dövləti özünün daxili həyatını azad mediasız təsəvvür etmir və cənab İlham Əliyev Azərbaycanda siyasi hakimiyyətdə olduqca, belə də davam edəcək. Azərbaycan cəmiyyəti azad medianın nə olduğunu çoxdan bilir. Bu dəyər Avropa və dünya ölkələrinin bir çoxundan əvvəl Azərbaycan mediasının və jurnalistlərimizin qəlbinə hakim kəsilib". **Ə. Həsənovun sözlərinə görə, Azərbaycan dünyada yeganə ölkədir ki, jurnalistlər dövlət hesabına mənzillə təmin olunur:** "Bildiyiniz kimi, dövlətimizin başçısının müvafiq sərəncamına əsasən 156 mənzilli bina inşa edilərək jurnalistlərə paylanılıb. İndi isə jurnalistlər üçün 250 mənzildən ibarət yeni binanın tikintisi davam etdirilir".

**Ə. Həsənov 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bütün mətbuat nümayəndələrini təbrik edib və onlara növbəti ildə uğurlar arzulayıb.**

**PA-nın şöbə müdiri həmçinin 24 dekabrda prezidenti İlham Əliyevin doğum günü olduğunu xatırladaraq ölkə başçısına xoş arzularını çatdırıb.**

# Prezident fərmanı bankların kredit faizlərini azaldacaqmı?

## Vüqar Bayramov: "Mərkəzi Bankın faizlərlə bağlı rəsmi rəqəmləri inandırıcı və reallığa uyğun deyil, bu sahədə vəziyyət kritikdir..."

**Növbəti ildə kommersiya banklarının kredit faizləri azaldılacaq. Bu barədə prezident İlham Əliyevin "Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında" Qanunun tətbiqi barədə fərmanının 11-ci maddəsində qeyd edilib. Mərkəzi Bank kredit faizlərinin aşağı salınması ilə bağlı tədbirləri həyata keçirməli və hər 6 aydan bir prezidentə hesabat verməlidir.**

Bəs görəsən, ölkə başçısının bank sektorundakı vəziyyətə müdaxilə etməsi hansı zərurətdən doğub? Bank sektorunun inzibati yolla tənzimlənməsi müsbət nəticə verəcəkmi? **İqtisadçı ekspert Vüqar Bayramov** bildirdi ki, bank kreditlərinin faiz dərəcələri ilə bağlı, eyni zamanda bankların real sektoru maliyyələşdirməməsi ilə bağlı dəfələrlə ölkə başçısı səviyyəsində tapşırıqlar verilib: "Bu ilin fevral ayında keçirilən müşavirədə də prezident Mərkəzi Bank qarşısında bankların real sektoru daha çox maliyyələşdirməsi, eyni zamanda faiz dərəcələrinin aşağı salınması ilə bağlı tapşırıq vermişdi. Biz də dəfələrlə bildirmişdik ki, Mərkəzi Bankın uçot dərəcələri ilə bankların faiz dərəcələri arasında kəskin fərq var. Belə bir fərqin olmasının iqtisadi baxımdan izahı yoxdur. Mərkəzi Bankın kreditlərin faiz dərəcələrinin yüksək olması ilə bağlı arqumenti ondan ibarətdir ki, əmanətlər üzrə də faiz dərəcəsi yüksəkdir, bankların sərf etdiyi maliyyə bahalıdır, eyni zamanda iqtisadiyyatın mənfəət norması yüksəkdir. Hətta Mərkəzi Bank xəbərdarlıq edir ki, faiz dərəcələrinin inzibati yolla tənzimlənməsi qara bazarın yaranmasına gətirib çıxara bilər. Ancaq bu arqumentlərlə razılaşmaq mümkün deyil. Əvvəla, biz Mərkəzi Bankın kredit portfelinə baxsaq, bu, 17,8 milyard manat təşkil edir. Mərkəzi Bankın rəsmi məlumatına görə, orta faiz dərəcəsi 14,2% -dir. Təbii ki, Azərbaycanda orta faiz olaraq 14,2%-lə



kreditlərin verildiyini iddia etmək inandırıcı deyil. Hətta Mərkəzi Bankın statistikasına əsasən Bakı şəhərində kredit faizi orta hesabla 12,9%-dir. Nəzərə alsaq ki, bu gün vətəndaşlar 25%-lə kredit almaq üçün bir neçə yerdən xahiş etməli olurlar, bu baxımdan Mərkəzi Bankın göstəriciləri reallığı əks etdirmir".

**Ekspertin sözlərinə görə, Avropa ölkələrinin bazarın tənzimlədiyi kredit faizləri 3-5 faiz arasında dəyişirsə, Azərbaycanda bu sahənin bazar vasitəsilə tənzimləndiyini iddia etmək düzgün olmaz:** "Mərkəzi Bank bildirir ki, bütövlükdə istehlak kreditləri üzrə orta faiz 18%, ümumi kredit portfeli üzrə 25% təşkil edir. Təbii ki, mübahisəli rəqəmlərdir. Digər tərəfdən, istehlak kreditlərinin kredit portfelinin dörddə birini təşkil etməsi də inandırıcı deyil. Mərkəzi Bankdan deyirlər ki, kredit faizlərini Mərkəzi Bank yox, bazar tənzimləməlidir. Bu, təbii ki, sual yaradır. Bu gün kredit faizləri Azərbaycanla müqayisədə dəfələrlə ucuz olan, 3-5 faiz intervalında dəyişən ABŞ və Avropa ölkələrində faizləri bazar tənzimləmirmi? Kredit faizləri ilə bağlı tapşırığın büdcə qanununa daxil edilməsi ondan xəbər verir ki, bank sektorundan faiz dərəcələri ilə bağlı vəziyyət kritikdir".

**V. Bayramovun fikrincə, kredit faizlərinin yüksək olmasının səbəbi odur ki, Mərkəzi Bankın bazarı tənzimləmə metodları zəifdir:** "Digər səbəb odur ki, bank sektoru leqallaşmayıb, bazarda rəqabət zəifdir. Həmçinin heç də bütün bankların Mərkəzi Bankın kredit resurslarından yararlanmaq imkanı yoxdur. Mərkəzi Bankın yanında Əmanətlərin Sığortalanması Fondu sığortalanan əmanətlər üzrə faiz dərəcələrini aşağı endirir. Son bir ildə əmanətlərin faiz dərəcələri 12 faizdən 9 faizə qədər azaldılıb, ancaq bu kreditlərin faizlərinin azalmasına gətirib çıxartmayıb. Belə çıxır ki, kommersiya bankları vətəndaşdan ucuz qiymətə, yəni 9 faizlə əmanəti alır, həmin əmanəti 25-35 faizlə digər vətəndaşa təqdim edir. Deməli, əmanətlərin faizlərinin azaldılması kreditlərin faizlərinin azaldılmasına xidmət etmir".

**Ekspert vəziyyətdən çıxış yolu kimi, Mərkəzi Bankın baş bank rolunu oynamasını və bütün banklara nəzarət etməsini, eyni zamanda onların fəaliyyətində maraqlı olmasını məqsədəuyğun hesab edir:** "Bank sektorunun leqallaşmasına və rəqabətin artırılmasına, komisyon haqları ilə bağlı xidmətlərin ucuzlaşmasına ehtiyac var. Kommersiya banklarının mərkəzləşmiş resurslara çıxış imkanları genişləndirilməli, şəffaflıq artırılmalıdır. Bu baxımdan yalnız inzibati deyil, bank sektorunda mövcud alətlərdən istifadə etməklə kredit faizlərinin aşağı salınmasına, real addımların atılmasına ehtiyac var. Ölkə prezidenti tərəfindən bunun büdcə qanunvericiliyinə daxil edilməsi də ondan xəbər verir ki, vəziyyət heç də ürəkaçan deyil".

❑ Nərgiz LİFTİYEVA

# Məhbusların Yeni il gözləntiləri...

## Vicdan məhbuslarının ailəsi əfvə ümid edir; Leyla Yunus İsa Qəmbərə təşəkkür edib; həbsdəki müsavatçı qardaşlar eyni kameraya salınıb







**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilə sayılı günlər qalıb. Bu bayramda əfv sərəncamının veriləcəyi ilə bağlı xəbərlər var. Siyasi məhbuslar və onların ailələrinin Yeni ildən gözləntiləri çoxdur.**

Doğrudur, bəzi tanınmış məhbusların əfvə düşmək şansları yoxdur. Çünki onlar ya məhkəmə, ya da istintaq dövrünü yaşayırlar. Müsavat başqanının müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimli, hüquq müdafiəçiləri Leyla Yunus, İntiqam Əliyev və Rəsul Cəfərov, jurnalistlər Xədicə İsmayıl, Rauf Mirqədirov və Seymur Həzi hələlik istintaq altındadırlar.

**Fərəc və Sirac Kərimli qardaşlarının atası Raqif Kərimli dekabrın 29-da övladları ilə görüşəcəyini bildirdi:** "Görüş günü bazar ertəsi olur. Başqa vaxt icazə verilmir. Bu həftə Siracın yoldaşı və övladları, anası təcridxanaya getmişdilər. Fərəc və Siracla görüşüblər. Hazırda bir kameraya salıblar. Bu müsbət haldır. Çünki Siracın təzyiqi tez-tez qalxır. Axırıncı dəfə təzyiq 165-105-ə olub. Fərəcin ağrıları olsa da, demir. Sirac deyib ki, tez-tez bərk üşüyür. Övladlarıma əfv yazmaları üçün müraciətlər olur. Mənimlə də əlaqə saxlamağa çalışıblar. Demişəm ki, övladlarım günahsız tutulub. Təcridxananın rəisi deyib ki, bağışlanmağınızı yazmayın. Yazın ki, işimizə qanuni baxılsın. Bizim də tələbimiz budur".

Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusa sovqat aparmaq səlahiyyətində olan psixoloq Azad İsazadə hər həftə hüquq müdafiəçisinə dərman və lazımi ləvazimatları apardığını qeyd etdi: "Artıq bilirəm ki, Leyla xanıma nələr lazımdır. Vəkili ilə də özü xəbər göndərir. Həftədə bir dəfə gedirəm. Elə bir problem yaşanmır. O, tibbi müayinədən imtina edib. Orada özünü yaxşı hiss etmək mümkün deyil. Şikayətləri çoxdur. İnsan Haqları üzrə İşçi Qrupunun fəaliyyəti nəticəsində Tibbi Komissiya yaradılmışdı. Lakin Leyla Yunus bundan imtina etdi".

**L.Yunusun vəkili Elçin Qəmbərov onun səhhətində müsbətə doğru heç bir irəliləyişin olmadığını bildirdi:** "Elə bir ciddi yenilik yoxdur. Ad günü münasibətilə onu təbrik edənlərə minnətdarlığını bildirdi. İsa Qəmbərin facebookda yazdığı təbriki Leyla xanıma çatdırdım. İs bəyə çox böyük minnətdarlığını bildirdi. Ümumilikdə Müsavat Partiyasına təşəkkür etdi".

**REAL hərəkatının sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova bayrama çox ümid etdiklərini söylədi:** "Yeni il qabağı sonuncu dəfə ayın 27-də görüşəcəm. Vəziyyəti yaxşıdır. Arada zəng vurur. Avropa Şurası Nazirlər Komitəsinin məlum qərarından sonra onun da, bizim də ümidlərimiz çoxalıb. Ümid edirik ki, bu bayramda sevinərik. Deyirlər ki, bir həftəyə kimi əfv olacaq. Böyük həyəcanla gözləyirik".

**"Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun vəkili Elmar Süleymanov Apelyasiya Məhkəməsinin qərarını gözlədiklərini bildirdi:** "Heç bir yenilik yoxdur. Məhkəmə qərarını gözləyirik. Axırıncı dəfə məhkəmədə görmüşəm".

❑ Cavanşir ABBASLI

# İqtidar “açılıma”mı qərar verdi?

**“Hakimiyyət böyük ehtimalla fevral ayının sonu, martın əvvəllərində ölkədə referendum keçirəcək”. Bu sensasion xəbəri “Yeni Müsavat”a iqtidar daxilindəki bilgili mənbə verib. Mənbə bildirib ki, iqtidarda referendumla bağlı müəyyən hazırlıqlara artıq başlayıb. “Referendumda proporsional seçki sisteminin bərpası ümumxalq səsverməsinə çıxarılacaq. Gözlənilir ki, referendumda konstitusiyaya bəzi çox mühüm əlavə və dəyişikliklər də səsverməyə çıxarılsın”.**



## Hakimiyyət referenduma hazırlaşır - sensasiya

Məlumata görə, böyük ehtimalla fevral-mart aylarında proporsional seçki sisteminin bərpası ilə bağlı ümumxalq səsverməsi keçiriləcək; iqtidarın əvvəlki seçki sisteminə qayıtmasını şərtləndirən səbəblər var; gözlənilir ki, referendumda konstitusiyaya çox mühüm əlavə və dəyişikliklər də səsverməyə çıxarılsın

Bu xəbəri son bələdiyyə seçkilərində komissiya üzvü olan bir mənbəmiz də qismən təsdiqləyib. O deyib ki, 23 dekabr səsverməsi bitdikdən sonra məntəqə sədri “hazırlaşın, 2 ay, 2 ay yarım sonra da deputatlıqla bağlı referendum olacaq” deyə, xəbərdarlıq edib. Amma referendumun konkret müddəası ilə bağlı hər hansı dəqiqləşmə etməyib. Cəmi bir neçə saat fərqi ilə iki mənbənin referendum olacağı ilə bağlı dedikləri bu xəbəri ciddiyə almaq və ictimailəşdirmək üçün əsas verir. Xatırladaq ki, 2002-ci ilədək Azərbaycanda parlament seçkiləri qarışıq sistem üzrə-majoritar və proporsional olmaqla keçirilirdi. 2002-ci ildə konstitusiya islahatları ilə bağlı keçirilən referendumla proporsional seçki sistemi ləğv olunub və bütövlükdə majoritar sistemə keçirilib.

***

Gələn il Azərbaycanda keçiriləcək parlament seçkilərinə böyük önəm verən beynəlxalq aləmin, əsasən də ABŞ-ın timsalında Qərbin bu seçkilərdən bir çox gözləntiləri və hakimiyyətdən konkret tələbləri olması barədə ötən saylarımızda məlumat vermişdik. Bir daha qeyd edək ki, Qərb Azərbaycan parlamentində müxalifətin təmsil olunmamasından və ölkənin ali qanunvericilik orqanında hakim partiyanın monopoliyasından narahatdır. Bu istiqamətdə isə ilk addımlardan biri 2002-ci il referendumunda ləğv edilən proporsional seçki sisteminin bərpası olmalıdır. Çünki bütün dünyada siyasi partiyaların inkişafına stimul verən amillərdən biri də proporsional seçki sistemidir. Proporsional seçki sisteminin siyasi partiyalara münasibətin kökündən dəyişilməsində, eyni zamanda siyasi institutların formalaşdırılmasında və inkişaf etdirilməsində çox böyük önəmi var.

Müxalifət də neçə illərdir ki, proporsional seçki sisteminin bərpasını tələb edir. Maraqlıdır ki, hətta hakimiyyətyönlü partiyalarda da proporsional sisteminin bərpasını istəyənlər mövcuddur. Onlar indiyə qədər dəfələrlə bu istiqamətdə mövqelərini ortaya qoyublar. Məsələn, YAP Siyasi Şurasının üzvləri, keçmiş deputat Əli Əlirzayev, deputat Eldar İbrahimov, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı ötən illər ərzində həm müsahibələrində, həm də parlamentdə bu mövzu ilə bağlı fikirlərini səsləndiriblər. YAP rəsmiləri də proporsional seçki sisteminin gələcəkdə bərpasının mümkünlüyünü bildiriblər.

Aydındır ki, proporsional sistemin bərpası məmur-oliqarxların maraqlarına uyğun deyil və illərdir ki, iqtidara daxildən də bu məsələdə müqavimət var. Məmur-oliqarxlar öz maraqlarını müdafiə etmək, daha güclü görünmək üçün parlamentə özlərinə yaxın adamları, qohum-qardaşlarını yerləşdirirlər. İndiki parlamentin tərkibi də bu faktı təsdiqləyir. Amma hakimiyyətə indi daha ciddi təzyiqlər Qərbdəndir və bunları önləmək üçün barəsində çoxdan danışılan “açılımın” zamanıdır. Beynəlxalq şərtlər də indilikdə hakimiyyətin lehinə deyil. Neftin qiymətinin düşməsi, qonşu Rusiyada iqtisadi tənəzzülün başlaması, Azərbaycan hakimiyyətinin Qərb təsisatları, eləcə də Avropa Birliyi, Avropa Şurası və ABŞ-la münasibətlərinin gərginləşməsi iqtidarı 2015-ci ildə daha korrekt davranmağa vadar edir.

Dekabrın 13-də Prezident Administrasiyası rəsmisinin müxalifətin iki əsas partiyasının iştirakı olmasa da, siyasi partiyalarla təmas qurması və hətta bu görüş barədə prezidentə məruzə ediləcəyi barədə söylədikləri iqtidarın yaxın vaxtlarda daxili münasibətlərdəki gərginliyi azaltmaq üçün pozitiv addımlara gedəcəyinin anonsudur. Yeri gəlmişkən, ölkənin ən bilgili ekspertlərindən olan “Turan” İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev bir müddət əvvəl “Yeni Müsavat”a hakimiyyətin bəzi ciddi dəyişikliklərə qərar verdiyi barədə danışmışdı. M. Əliyevin dediklərini xatırladaq: **“Azərbaycan fərqli bir mərhələyə qədəm qoymaqdadır. Bu mərhələnin adına ”idarə olunan demokratiya" demək olar. Hakimiyyət ASAN xidmət kimi, daha bir neçə bu cür layihə tətbiq edə bilər... Məsələn, gələn ilə Elektron Məhkəmələr layihəsinin tətbiqinə başlanacaq. Azərbaycan məhkəmə sistemindəki durumu nəzərə alsaq, bu, inqilabi qərar olacaq. Bu gün Azərbaycan məhkəmələrində çəkiliş aparmaq mümkün deyil. Ancaq məhkəmə proseslərinin tam şəkildə lentə alınması, internetdə yayılması, məhkəmənin şəffaflığının bu şəkildə təmin olunması Elektron Məhkəmənin tələbidir. Dövlət başçısı İlham Əliyev buna artıq imza atıb, hökumətə layihənin icrası üçün gərəkli tədbirlərin görülməsi haqqında tapşırıq verib. Bir vaxtlar məhkəmələri onlarla QHT monitorinq eləyirdi, indi bu prosesi hakimiyyət özü həyata keçirəcək. Birdən-birə mənzərə tamamilə yeni xarakter alır. Bu cür layihələr Azərbaycanda gündəmi tamamilə dəyişə bilər. Hakimiyyət buna gedir və getməyə məcburdur. Hakimiyyət dərk edir ki, bu addımları atmaq qaçılmazdır. Ancaq istəmir ki, bu, basqı altında olsun. Prezident İlham Əliyev hakimiyyətdə və tarixdə böyük reformator kimi qalmaq istəyir. O, praqmatikdir və situasiya ilə hesablaşır".**

***

Seçki günü ilə bağlı son qərar verilməsə də, səsvermə gününün məhz noyabrın 1-də olması Azərbaycan Konstitusiyasının tələbidir. Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə görə, Milli Məclisə seçkilər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir. 2015-ci ildə noyabr ayının ilk bazar günü isə noyabrın 1-nə təsadüf edir. Xatırladaq ki, bu, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə keçiriləcək beşinci parlament seçkisi olacaq.

Dünən bu mövzuda nə Prezident Administrasiyasından, nə də MSK-dan şərh almaq mümkün olmadı. Mövzuya qayıdacağıq.

❑ Xəbər xidməti

# Lənətlənmiş və seçilmişlər



Azər RƏŞİDOĞLU

**Azərbaycan hakimiyyətinin İsrailə də meydan oxuması diplomatiyamızın kəskin dönüşlərinin xəbərçisi hesab edilə bilər. Rəsmi Bakı son illər ərzində İsrail ilə ifrat dərəcədə yaxınlaşmışdı. Azərbaycanda son illər keçirilən demək olar ki, bütün seçkilər zamanı İsrail texnoloqları rəsmi Bakının yanında olublar. İsrail kəşfiyyatı daima xarici və yerli təhdidlər barədə Bakıya məxfi məlumatlar ötürüb. Azərbaycan Bakı-Tiflis-Ceyhan vasitəsilə İsrailin neftə olan tələbatının 40 faizini ödəyir.**

Bakı bu ölkədən silah və hərbi sursat alır. Yəhudi lobbisi beynəlxalq tribunalarda Azərbaycanın maraqlarını müdafiə edib. Yəhudilər “erməni soyqırımı”nın 100 illiyi ilə bağlı bütün təzyiqlərə baxmayaraq, onu tanımaqdan imtina ediblər.

Əslində, dünyada yəhudi və erməni lobbilərinin qarşıdurması müşahidə edilməkdədir. Təl-Əviv Ankara ilə münasibətlərindəki gərginliyin Bakı ilə münasibətlərə transfer etməsini arzulamır, bu baxımdan, hakimiyyətin İsrailə meydan oxuması maraq doğurur.

Ümumiyyətlə, indiki mərhələdə İsraillə qarşıdurma Azərbaycana sərf etmir. Yəhudilər bir çox sahələr üzrə dünyada aparıcı mövqelərə malikdirlər. Bütün dünyada antisemitizm tendensiyalarının artmasına baxmayaraq, yəhudilər bəşəriyyətə böyük dühalar bəxş ediblər.

Yalnız 20-ci əsrdə nisbilik nəzəriyyəsinin müəllifi Albert Eynşteyn, psixoanalizin banisi Ziqmund Freyd, sosialist düşüncənin əsas siması olan Karl Marks, iflic əleyhinə peyvəndinin yaradıcıları Conas Solk və Albert Sab, ilk atom bombasının yaradıcıları Feliks Blox, Nils Bor, Otto Friş, Robert Oppenheymer, Leo Szilard və Edvard Teller kimi şəxsiyyətlər yəhudi mənşəlidirlər.

Dünya əhalisinin çox az hissəsini təşkil edən yəhudilər 20-ci əsrin ikinci yarısında ədəbiyyat, tibb, fizika və kimya sahəsində əldə olunan Nobel mükafatının 29 faizini qazanıblar. Bu əsrdə həmin nisbət 32 faizə çatıb.

Ədəbiyyat, musiqi, incəsənət, biologiya, kimya, riyaziyyat və fəlsəfə sahələrində yəhudilərin liderliyi qəbul edilir.

Yəhudilərin tibb, hüquq, maliyyə, ədəbiyyat, elm, kreativ incəsənət və mediada üstünlük təşkil etmələri onlar barədə miflərin yaranmasına səbəb olub.

Yəhudilər 2000 il öz torpaqlarından didərgin düşməyə məhkum ediliblər. 2000 il sonra - 1948-ci ildə İsrail və Fələstinin dövlət qurması üçün BMT qətnamə qəbul edib. Lakin İsrail fələstinlilərin bu arzusuna qarşı çıxıb və Qəzadakı son olaylar ilə İslam dünyasında yəhudilərə qarşı nifrəti daha da artırıb. Düzdür, bu məsələdə ərəblərin yəhudilərə öz mülklərini kütləvi şəkildə satması da mühüm rol oynayıb.

Ruslar, türklər, ərəblər yəhudiləri sevmirlər. Lakin yəhudi gücü ilə hər kəs hesablaşır. Yəhudilər bu gün dünya maliyyə sisteminə nəzarət edirlər. Bunun da tarixi kökləri var. Yəhudilər bütün tarixləri boyu sələmçiliklə, habelə qızıl, daş-qaş ticarəti ilə məşğul olublar. Dinlərin qadağan etdiyi sələmçilik yəhudilərə güc qazandırıb. Hazırda dünya qızıl və maliyyə ehtiyatlarının üçdə ikisi məhz yəhudilərin təmsilçilərinin əlində səmləşib. Qədim insanların ovçu və yığıcılıq genlərində məhz bunlar durur və yəhudilər qədim insan məsləkinə sadiq qalıblar.

Yəhudilər üçün kapitalizm də ideal cəmiyyətdir. Kapitalizmdə əsas element ilk növbədə əmtəə-pul münasibətləridir. Pul gücünə istənilən zirvəni fəth etmək mümkündür. Maliyyə dövriyyəsinə nəzarət olduqca qəlizdir. Bir milyarder sabah müflis ola bilər. “Kiminlə dost olmalı və maliyyəyə necə nəzarət etməli” sualına cavab axtaran yəhudilər mason lojası yaratdılar və maliyyəyə nəzarəti tam ələ keçirdə bildilər.

Elmdə, siyasətdə, biznesdə yəhudilər qapalı çevrə yaratmağa nail ola biliblər. Qeyri-yəhudilər o qədər təzyiqlərlə üzləşib ki, elmdə, biznesdə, siyasətdə yəhudilərə uduzdurulublar.

Lakin burada bir məsələyə diqqət yetirmək lazım gəlir. Yəhudilərin dünyaya ağalığı barədə deyilənlər həddən ziyadə şişirdilib. Dünyanı idarə edən etnos ingilislərdir. Yəhudilər sadəcə olaraq, ingilislərin nökərçiliyini canla-başla həyata keçirirlər. Lakin yəhudi millətçiləri özlərindən başqa hər kəsə nifrət edir, onları donuz adlandırırlar. Seçilmiş və eyni zamanda lənətlənmiş xalq olmağa duruş gətirmək elə də asan deyil...



# Niyə heç kim "nə etməli?" sualına cavab axtarmır?

Hüseynbala SƏLİMOV

**Əvvəllər elə vaxtlar idi ki, hər bir yeni institutun yaranması bizi böyük ümidlərə kökləyirdi. Hamımız plan qururduq. Düşünürdük ki, necə edək ki, bu institutlarda yetərincə təmsil olunaq?**

Amma 1993-dən sonra bilmək lazım idi ki, bunlar hamısı puç xəyallardır. Amma biz hələ də inanmaqda davam edirdik. Bəlkə də bu da bir sadəlövhlük idi.

Çoxumuz bu avtoritar hakimiyyətin ömrünün 2003-cü ilə qədər davam edəcəyini zənn edirdik. Hərçənd, ilk dəfə 2000-ci illərin əvvəlində hiss etməyə başladıq ki, bu sistem tək bir nəfərin xarizması üzərində bərqərar olmayıb, mövcud siyasi sistem müəyyən mənada institusional məzmun alıb...

Amma əksəriyyət hələ də eyforiyada idi. Buna 2000-ci ilin parlament seçkisində əldə olunmuş qələbə də təhrik edirdi. Hərçənd ki, o qələbəni heç də reallaşdırmaq mümkün olmadı, o, mənəvi qələbə olaraq qaldı...

Nə isə. Düz 21 il belə keçdi. Bu illər ərzində nə biz bu hakimiyyəti dəyişə bildik, nə də ki, hakimiyyət bizi... Düzdür, sıralarımız seyrəldi, bezənlər və bizdən aralananlar oldu, hətta qarşı siyasi cəbhəyə transfer edənlər də tapıldı. Biz heç kimi qınamırıq.

Birincisi, ona görə ki, hamı öz taleyinin sahibidir, hamı öz yolunu müəyyən etməkdə azaddır.

İkincisi, proses çox uzandı. Hakimiyyət siyasəti elə bir səviyyəyə, elə bir duruma gətirib çıxardı ki, heç bir perspektiv və siyasətlə məşğul olmaq üçün stimul qalmadı. O səbəbdən də heç kimi qınamırıq. Axı həyat əbədi deyil...

Budur, ölkə növbəti bələdiyyə seçkisini keçirdi. Onun özü elə bizim dediklərimizə sübut deyilmi?

Məsələ də bundadır ki, sübutdur. Partiyalar seçkiyə o qədər də maraq göstərmədi. Düz də etdilər. Amma bir də görəcəksən ki, bir il sovuşacaq və partiyalar bunu unudaraq daha böyük yalana - bu dəfə parlament seçkisinə baş vuracaq...

Doğrusu, parlament seçkisində bizim üçün maraqlı olan namizədlərə verilən efir saatıdır. Amma efir verəcəklərmi? İnsanları heç danışmağa qoyacaqlarmı? Məsələ də bundadır...

Beləcə, ölkənin yeknəsəq durumu, yeknəsəq mahiyyəti hər şeyə sirayət edir - yazılanlara da, deyilənlərə də və hətta ümidlərə də...

Nə etmək olar? Bu, məsələnin ən qəliz tərəfidir. Bu illər ərzində biz partiya strukturlarındakı vəzifələrə can atan onlarla insan gördük. Amma heç kim bu sualı gündəmə gətirmədi...

Səbəb? Olduqca sadə, çox sadədir. Partiyalardakı rəhbər strukturlara can atanlar "Nə etməli?" sualına cavab vermək üçün deyil, əksinə, "Nə edirlər?" və "Nə etmək istəyirlər?" suallarının cavabını bilmək üçün ora can atırdılar.

Ona görə ki, "Nə edirlər?" və "Nə etmək istəyirlər?" suallarının cavabı bir müddət siyasi əmtəə idi və hakimiyyət strukturlarında bu sualların cavabını bilmək istəyənlər vardı. Elə o səbəbdən də partiya seçkilərində həmişə böyük qələbəlik yaşanırdı...

Müxalifət partiyasında yer tutmaq müəyyən mənada siyasi biznes idi. Elələri oldu ki, bu biznesə qoşulmadan həyatlarını qura bildilər. Digərləri isə öz siyasi kapitallarını siyasi biznesə çevirdilər...

Bu proses hələ də davam edir. İntellektual acizlər, diletantlar hələ də müxalifətdə yer tutmaq uğrunda çarpışırlar. İlk baxışda belə təəssürat yarana bilər ki, bunlar axıra qədər qalanlar, ən əqidəlilərdir...

Amma belədirmi? Əfsus. O insanlar ki, nəticəsizliyin, çıxılmazlığın əzabını yaşayırdı, onlar partiyalardan bir addım, hakimiyyətdən isə on addım kənarda dayanıblar.

Onlar özlərini və partiyadaşlarını aldatmaq istəməyənlərdir. Bu adamlar hakimiyyətə transfer etməyənlərdir. O kəslər ki, hakimiyyətə transfer etdilər, onlarla da işimiz yox - mədə və qarın da heç də az faktor deyil. Etiraf etmək lazımdır ki, bu adamların bəzisi yaşamaq, ayaq üstə qalmaq problemi ilə üz-üzə qalmışdı. Təbii ki, onlar da digər dostları, silahdaşları kimi özlərinə əziyyət verib, tamahlarını cilovlayıb vəkillik və ya müəllimlik edə bilərdilər...

Amma onlar siyasətdən dolanmağa öyrəşmişdilər. Vəkillik və müəllimlik müəyyən qədər əziyyət tələb edir. Bu adamlar isə əziyyətə alışmamışdılar...

Nə isə. İnsanlar müxtəlif olduğu kimi motivlər də müxtəlif oldu. İdealistlər bu tezisi qəbul etmir. Amma yaşa dolduqca adam reallığa daha çox yaxınlaşır... O səbəbdən ki, yaşlıların sərəncamında o qədər də böyük zaman olmur. Onlar ən azı zamanın məntiqi ilə hesablaşmağa məcburdurlar...

# Müsavatdan və AMİP-dən AXCP-yə sərt cavab

**AXCP sədrinin müavini Fuad Qəhrəmanlı müxalifətin seçki ilində birliyinin yaranmasından və Müsavatla birlikdən danışarkən deyib ki, ölkədə real müxalifət AXCP və Milli Şuradır. Qalan heç bir qüvvə real müxalifət deyil. Kim müxalifətin birliyində olmaq istəyirsə, Milli Şuraya gəlsin, başqa birliyə ehtiyac yoxdur.**

AXCP yetkilisinin özlərindən başqa heç kimi müxalifət hesab etməməsinə Müsavat Partiyasından etiraz edilib. **Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlı** bildirdi ki, Fuad Qəhrəmanlının nə deməsindən asılı olmayaraq Müsavat Partiyası hər zaman olduğu kimi, bu gün də həqiqi demokratik qüvvələrin ön sırasındadır. Müsavat Partiyası demokratik prosesin lokomotividir: "Son günlər AXCP yetkililərinin-özü də hər dəfə eyni adamların "real müxalifət ancaq AXCP-dir" kimi fikirləri tez-tez səsləndirməsi həmin şəxslərin özləri haqqında ciddi şübhələrə yol açır. Ola bilsin həmin şəxslər kimlərinsə qarşısında öhdəlik götürüblər ki, "Müsavatla birgə mübarizə aparmayacağıq, arxayın olun". Ola bilsin Müsavata qarşı gözdənsalma kampaniyasının önündə olacaqları barədə öhdəçilik götürüblər. İllərdir hakimiyyət öz maddi və mətbuat resursları ilə Müsavatı gözdən sala bilməyib. İndi müxalif düşərgədə "təmsil" olunan ayrı-ayrı şəxsləri də bu prosesə qoşublar. Müsavat Partiyasına illərdir olan hücumlar demək olar ki, son zamanlar daha da kəskinləşib. AXCP-nin rəhbərliyinə daxil olan bir neçə şəxs artıq xeyli vaxtdır hakimiyyətdən çox Müsavat Partiyasını tənqid etmək, Müsavata müxalifətçilik etməklə məşğuldurlar. Görünən odur ki, hafiz hacıyevlərlə, etibar hüseynovlarla buna nail olmayan hakimiyyət demokratik düşərgədə təmsil olunan uzantılarını bu işə qoşub".



**Səxavət Soltanlı:** "Hakimiyyət demokratik düşərgədə təmsil olunan uzantılarını Müsavata qarşı təbliğat işinə qoşub"



**Elşən Mustafayev:** "Nə vaxta qədər ki, siyasi birliklərin yaradılmasına cəhdlər öncədən belə şərtlərin qoyulması, digərlərinin aşağılanması ilə qarşılanacaq, hər hansı ciddi birlik yaranmayacaq"

**S.Soltanlı qeyd etdi ki, Müsavat Partiyası hakimiyyətin və onun əlaltılarının antitəbliğatından narahat deyil:** "Biz o kəslərin bizə qarşı antitəbliğatından narahat olarıq ki, onların cəmiyyətdə reputasiyası müsbət olsun. Müsavat qarşı cəmiyyətdə haqqında müsbət rəy olmayanların antitəbliğatından narahat deyil. Biz illərdir belə əks-təbliğatın qarşısında duruş gətirmişik, çünki doğru yoldayıq. Biz Azərbaycanda demokratik dəyişikliyi səmimi şəkildə istəyənləri, sivil mübarizə aparmaqla demokratik dəyişiklik istəyən hər kəslə, hər bir təşkilatla əməkdaşlığı normal sayırıq, o cümlədən AXCP ilə. Mümkündür ki, kimlərsə hansısa formada buna etiraz etsinlər, buna qarşı olsunlar. Axı mümkün deyil ki, AXCP kimi bir partiyaya hakimiyyət öz adam(lar)ını yerləşdirməsin. Onlar təbii ki, bu prosesə qarşı olacaqlar. Müsavat istənilən halda demokratik mübarizəsini sona qədər davam etdirəcək, qarşıdan gələn ildə də əsas hədəfimiz parlament seçkilərində ən çox yer qazanan partiya olmaqdır. Hökumətin formalaşdırılmasında əsas siyasi təşkilata çevrilməkdir. Biz arzu edirik ki, xeyli sayda saf və səmimi demokratiya uğrunda mübarizə aparan sıravi üzvləri olan AXCP də bu prosesdə yanımızda olsun.

AXCP üzvü olan dostlarımıza və rəhbərlikdə təmsil olunan dostlara səslənirəm, şübhəli açıqlama verən partiyadaşlarına qarşı təzyiqləri artırsınlar. Həmin şəxslər bu şübhəli açıqlamaları ilə yalnız Müsavata deyil, həm də AXCP-yə zərər vururlar, bütövlükdə isə demokratik prosesi gözdən salırlar".

**AMİP katibi Elşən Mustafayev də F.Qəhrəmanlının AXCP-dən başqa heç kimi real müxalifət saymaması və birlik əleyhinə açıqlamasına etiraz etdi:** "Nə vaxta qədər ki, siyasi birliklərin yaradılmasına cəhdlər öncədən belə şərtlərin qoyulması, digərlərinin aşağılanması ilə qarşılanacaq, o zaman hər hansı ciddi birliyin yaradılmasından söhbət gedə bilməz. Sözsüz ki, yaradılan birliklərdə olacaq partiyaların nüfuzu, cəmiyyətdə ona olan münasibət və ən əsası siyasi proseslərə baxışlarının üst-üstə düşməsi mühüm rol oynayır. Ancaq bu cür məsələlərdə heç kim özünü bu birliyin aparıcısı, əsas söz sahibi kimi göstərməməlidir. 2015-ci il parlament seçkiləri öncəsi dediyim keyfiyyətləri və kriteriyaları özündə birləşdirən siyasi partiyalar güclərini birləşdirməyə daha ciddi mübarizə aparmağa məcburdurlar".

❑ Etibar SEYİDAĞA

# 11 müxalifət partiyasının seçki bloku yarana bilər

## Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin seçki blokuna çevrilməsi mümkündür

**Azərbaycanın bir sıra müxalifət partiyaları 2015-ci il parlament seçkilərində bir araya gəlmək üçün birlik formatı axtarışındadır. Bunu son günlər düşərgə təmsilçilərinin açıqlamalarından görmək mümkündür. Məsələn, AXP sədri Pənah Hüseyn müxalifətin yenidən birləşə biləcəyinin anonsunu verib. AXP lideri hesab edir ki, hər bir müxalifət təşkilatı doğru hesab elədiyi addımları atmalıdır və bir qədər cəsarətli olmaq lazımdır. 2015-ci ilin parlament seçkiləri ilə əlaqədar müxalifətin konsolidasiyasının getməsi ehtimalı böyükdür. Artıq bu istiqamətdə müəyyən işlər və axtarışlar da getməkdədir.**

Qeyd edək ki, hazırda müxalifət düşərgəsində ən çox partiyaların təmsil olunduğu qurum Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzidir. Burada Müsavat Partiyası, KXCP, ADP, Ümid Partiyası, AXP, Azadlıq Partiyası, ALDP, Vətəndaş və İnkişaf Partiyası, Böyük Azərbaycan Partiyası, Azad Demokratlar Partiyası təmsil olunur. Mərkəz ölkədə siyasi məhbuslar problemi ilə bağlı yaradılıb və seçki bloku deyil.



Sülhəddin Əkbər

Bəs 11 partiyanın funksional əməkdaşlıq münasibətlərində olduğu Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin bazasında parlament seçkilərinə hədəflənən blok yaratmaq mümkündürmü?

**Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində təmsil olunan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bildirdi ki, qurumdakı partiyaların arasında müəyyən əməkdaşlıq qurum yarandıqdan başlayıb. Amma hələlik parlament seçkiləri ilə bağlı hansısa blok yaratmaq, mərkəzin seçki blokuna çevrilməsi kimi məsələlər müzakirə olunmayıb:** "Bu da görünür, siyasi qüvvələrin hələ müxtəlif axtarışları ilə bağlıdır. Vəziyyəti analiz edib gələn illə bağlı proqnoz vermə prosesinin başa çatmaması ilə bağlıdır. Düşünürəm ki, yeni ilin ilk günlərindən bu istiqamətdə məsləhətləşmələr başlayacaq. Böyük ehtimalla bu baş verəcək".

❑ E.SEYİDAĞA

**Amerikada mühacir həyatı yaşayan eks-spiker Rəsul Quliyev ötən həftə rəsmi "Azərbaycan" qəzetində dərc olunan anti-Amerika məqaləsini şərh edərkən bir çoxlarını təəccübləndirən fikirlər söyləyib. Qeyd edək ki, sözügedən yazıda ABŞ-a qarşı sərt ittihamlar yer alır, eyni zamanda Amerikanın 2005-ci ildə eks-spiker Rəsul Quliyev və sabiq nazir Fərhad Əliyev vasitəsilə dövlət çevrilişi etmək istədiyi iddia olunurdu.**

# Müsavat başqanı Rəsul Quliyevə cavab verdi

## Arif Hacılı: "Yalnız Amerika yox, bütövlükdə demokratik dünya həmin dövrdə qanuni hakimiyyəti dəstəklədiyini açıq şəkildə bəyan edirdi"

Hökumət mətbuatında ABŞ və Qərbin əleyhinə isterik yazıların getdiyini, bu siyasətin ölkəmizi uçuruma apardığını, bunu anlamamağın bizə çox baha başa gələcəyini deyən R.Quliyev daha sonra 90-cı illərin əvvəllərində baş verən hakimiyyət dəyişikliklərindən bəhs edib. O, ABŞ-ın Azərbaycanda hakimiyyəti devirmək niyyətində olması ilə bağlı iddialara cavabında vurğulayıb ki, heç 1993-cü ilin hakimiyyət dəyişikliyi də dövlət çevrilişi kimi qiymətləndirilməyib. Qeyd edək ki, Azərbaycan müxalifəti həmin hadisələri qiyam və dövlət çevrilişi kimi qəbul edir.

Ehtimallara görə, R.Quliyev 1993-cü il hadisələrində iştirak etdiyi üçün məsuliyyətdən yaxa qurtarmaq istəyib və ona görə də belə arqumentlə çıxış edir. Yeri gəlmişkən, eks-prezident Əbülfəz Elçibəy hakimiyyət çevrilişində R.Quliyevin iştirakını açıq şəkildə bəyan etmişdi. R.Quliyev isə deyib: "Əgər ölkənin konstitusiyasında hakimiyyət orqanlarının seçki yolu ilə formalaşdırılması təsbit olunubsa, hər iki variantda hakimiyyətin dəyişilməsi dövlət çevrilişi hesab edilir. Məsələn, bir çoxlarının yadında qalan 1992-ci ildə Gürcüstanda Şevardnadzenin hakimiyyətə gəlməsi dövlət çevrilişi kimi qəbul edilib. Çünki hakimiyyət silahlı üsyanla devrilib. Və ya 1993-cü ildə Rusiyada prezident Yeltsinin RF-nin parlamentini dağıtması dövlət çevrilişi adlandırılır. Ancaq 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyət dəyişilməsi dövlət çevrilişi hesab edilmir".

**Məsələ ilə bağlı sabiq baş nazir Pənah Hüseynin fikirlərini öyrənmək istədik, lakin bu barədə danışmaq istəmədi. Elçibəy komandasının üzvü olmuş Müsavat başqanı Arif Hacılı isə bəzi suallarımızı cavablandırdı. Ancaq bir qeydini xüsusi vurğulamaq şərtilə. Sitat:** "Mən bu məsələləri "Yeni Müsavat" qəzetinə və qəzetin oxucularına olan sayğıma görə şərh edirəm. Uzun illərdir ki, mən Rəsul Quliyevin açıqlamalarını şərh etmirəm".

**"Rəsul Quliyev 1993-cü ildə baş verənləri şərh edərkən düzmü deyir? Həqiqətənmi o zamankı hadisələr çevriliş kimi qəbul edilmədi" sualına onun cavabı belə oldu:** "Gürcüstan və Azərbaycanda baş verən hər iki hadisə eynidir, yəni hər ikisi dövlət çevrilişidir. Müəyyən fərqlər ondan ibarətdir ki, Zviad Qamsaxurdiya dövlət çevrilişinə qarşı müqavimət göstərdi və bu, Gürcüstanda vətəndaş müharibəsinin baş verməsinə səbəb oldu. Əbülfəz Elçibəy isə müqavimət göstərmədən, qan tökülməsinə yol vermədən hakimiyyətdən çəkildi. Bunun nəticəsində ölkədə



vətəndaş müharibəsi, qardaş qırğını olmadı".

***- Rusiyada baş verənlər haqqında da eyni sözləri demək olar?***

- Postsovet məkanında hadisələr bir-birinə bənzəyir. Xatırlayıram ki, Şevardnadze hakimiyyətə gəldikdən sonra Müttəlibovun hakimiyyəti dövründə mən parlamentdə çıxış edərək Azərbaycanda da belə təhlükələrin olması ehtimallarından danışmışdım. Azərbaycanın da Moskvada oturan Şevardnadzesinin olduğunu, Azərbaycanda da həmin dövrdə Gürcüstanda çevriliş etmiş Kitevani kimi adamların hərbi birləşmələrə rəhbərlik etdiyini demişdim. Orada hər hansı bir ad çəkməsəm də həmin dövrdə Heydər Əliyevin tərəfdarı olan qüvvələr - Arif Rəhimzadə başda olmaqla - mənə qarşı çox böyük bir təbliğat kampaniyası quraraq bu bənzətmələrin düzgün olmadığını bildirmişdilər. Ancaq tarix mənim haqlı olduğumu göstərdi. Doğrudan da Azərbaycanda Gürcüstanda olduğu kimi hərbi birləşmələrin rəhbərləri tərəfindən baş verən qiyam ölkədə bu cür ciddi qarşıdurmalar və xalq tərəfindən seçilmiş prezidentin hərbi qiyam vasitəsilə devrilməsi ilə nəticələndi. Rusiyada baş verən hadisələr də oxşar hadisələr idi.

***- O zaman ABŞ qiyamçı polkovnik Surət Hüseynovla bağlı hansı mövqedən çıxış etmişdi?***

- Yalnız Amerika yox, bütövlükdə demokratik dünya həmin dövrdə qanuni hakimiyyəti, xalq tərəfindən, xalqın iradəsi ilə seçilmiş prezident Elçibəyi dəstəklədiyini açıq şəkildə bəyan edirdi. 4 iyun hadisələrindən dərhal sonra ABŞ Dövlət Departamenti bəyanat verərək Gəncədə baş verən hadisələrin qiyam olduğunu, ölkədə xalqın iradəsi ilə seçilmiş hakimiyyətin təhlükəyə düşdüyündən narahatlıq keçirdiyini açıq şəkildə ifadə etmişdi.

***- Amma bildiyimizə görə, Heydər Əliyevin Bakıya dəvət olunmasından sonra ABŞ tərəfindən hər hansı sərt reaksiya olmadı...***

- Mən bu müsahibədə bir çox məsələlərin detallarına getmək istəmirəm. Sadəcə olaraq onu demək istəyirəm ki, həmin dövrdə Heydər Əliyev Bakıya hakimiyyətdə təmsil olunmaq üçün yox, Gəncədə baş verən hadisələrə qiymət vermək üçün və bu hadisələr fonunda hərbi qiyamçılarla yox, siyasi hakimiyyətlə birgə olmaq təklifi ilə Bakıya dəvət olunmuşdu.

**❑ E.PAŞASOY**

# "Göyçayda korrupsiyaya qurşananlar Ziya Məmmədovla bağlı vəzifəli şəxslərdir"

## Hüquq müdafiəçisi Vidadi İsgəndərli nəqliyyat nazirinə və onun klanına növbəti ağır ittihamlar səsləndirib



**"Ziya Məmmədov Göyçayın Qaraməryəm kəndindəki çınqıl dağından İpək Yolunun tikintisində istifadə edir. Dağı qazıb aparıb yola tökürlər. Amma rəsmi olaraq yazırlar ki, guya çınqılı xaricdən gətirilir"**

**"Demokratiyanın Müdafiəsinə Kömək" İctimai Birliyinin sədri, hüquq müdafiəçisi Vidadi İsgəndərli Göyçayda olan rüşvət və korrupsiya faktları ilə bağlı topladığı sənədləri Baş Prokurorluğa təqdim edib.**

"Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mansur Məmmədovun, onun pul yığanı kimi tanınan Ruslan Əlizadənin korrupsiya və rüşvət faktları ilə əlaqədar hüquq müdafiəçisi kimi Baş Prokurorluğa, MTN-ə, DİN-ə məlumat vermişəm. Təqdim etdiyim sənədlər arasında mənə müraciət edən Ağalar Səlimovun adlarını çəkdiyim məmurlarla bağlı, həmçinin yaxını olan sahibkar, "Modern Servis" prezidenti Çingiz Səlimovun rüşvət, korrupsiya və dələduzluq əməlləri ilə bağlı videomüraciət və başqa sənədlər də vardı" - deyə hüquq müdafiəçisi bildirib. Deyib ki, A.Səlimovla birgə Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində də olublar: "Orada da ərizəmizi qəbul edib qeydiyyata götürdülər. Vergilər Nazirliyinə, Ədliyyə Nazirliyinə, MTN-ə, DİN-ə gedib şikayət ərizəsini təqdim edəcəyəm"- deyə, o bildirib.

**Hüquq müdafiəçisi maraqlı bir faktı da açıqlayıb:** "Bəzən insanlar korrupsiya sözünün mənasını düzgün başa düşmürlər. Korrupsiya ilə rüşvəti qarışdırırlar. Korrupsiya daha böyük anlayışdır. Əgər fikir versəniz görəcəksiniz ki, Göyçayda korrupsiyaya qurşananlar bilavasitə nəqliyyat naziri Ziya Məmmədovla bağlı vəzifəli şəxslərdir. Qeyd etmək istəyirəm ki, baş prokurorun baş köməkçisi də Ziya Məmmədovun qardaşı oğludur. Korrupsiya vəzifəli şəxslərin bir-biri ilə cinayət əlaqəsinə girərək vəzifələrindən sui-istifadə etməklə xalqın və dövlətin əmlakını mənimsəməsidir. Dəfələrlə mətbuatda bildirmişəm ki, Ziya Məmmədov Göyçayın Qaraməryəm kəndindəki çınqıl dağından İpək Yolunun tikintisində istifadə edir. Dağı qazıyıb aparıb tökürlər. Amma rəsmi olaraq yazırlar ki, guya çınqılı xaricdən gətirilir. Göyçayın icra başçısı Mansur Məmmədov onun xalası oğlu, qardaşı deputat Elton Məmmədov isə deputatdır. Dağın dağıdılmasına göz yumulması da bu adamların bir-biri ilə yaxın qohumluq əlaqələrində olmalarıdır. Bunun bir adı var - korrupsiya".

**V.İsgəndərli deyib ki, nəqliyyat nazirinin qardaşı Ucarda böyük bir yaşıllığı məhv edib:** "Bu adamlar Ucarda böyük bir yaşıllıq sahəsini məhv ediblər. Ziya Məmmədovun qardaşı oğlu həmin yerdə böyük ticarət mərkəzi tikib. Bunu Ucarda "görən" məmur tapılmayıb. Çünki oradakı məmurlar da Məmmədovların qohum-qar-



Vidadi İsgəndərli

daşları, tanışlarıdır".

**Hüquq müdafiəçisi daha bir məlumatın araşdırılmamış qaldığını bildirib:** "Göyçayda bir çox insanlar Mansur Məmmədovun qanunsuzluqları haqda rəsmi olaraq hüquq-mühafizə orqanlarına müraciət etməyə qorxurlar. Səbəb də budur ki, müraciətlərə baxılmır, əksinə, şikayət yazanların özləri təqib olunurlar. Bu yaxınlarda Göyçaya xaricdə yaşayan, əslən Göyçaydan olan iş adamı gələrək böyük bir ticarət mərkəzi tikmək istəyib. O, Göyçayın "Qırmızı körpü" adlanan ərazisində zibillikdə abadlıq işi apararaq böyük ticarət mərkəzi açmaq istəyib. Mənə verilən məlumata görə, həmin iş adamını get-gələ salıblar. Sonda o bezib və Mansur Məmmədova tikintiyə sərəncam verməsi üçün 150 min manat ödəməyə razı olub. Lakin ondan 250 min manat istəyiblər. Həmin şəxs Rusiyaya qayıdıb. Adamlar prezidentin regionların sosial iqtisadi inkişafı qərarına əsasən ölkəyə gəlib sərmayə yatırmaq istəyirlər, lakin Mansur Məmmədov kimi məmurlar onlara şərait yaratmırlar. Üstəlik, əngəllər yaradırlar".

V.İsgəndərli bildirib ki, hüquq-mühafizə orqanlarına təqdim etdiyi cinayət faktlarının ört-basdır olunmasına imkan verməyəcək.

**Yazıda adları çəkilən şəxsləri dinləməyə, onların mövqeyini qəzetdə dərc etməyə hazırıq.**

**❑ E.MƏMMƏDƏLİYEV**



# Bəs tort hanı?

Zamin HACI
zaminhaci@gmail.com

**Dövlət başçısının doğum günü münasibətilə idi, ya başqa səbəbdən, dünən yapistlər, türkün sözü, özlərini aşmışdılar. Təriflər küləkli Bakı səmasında uçuşurdu və heç bir ondazə qalmamışdı. Xaraba günə qoyduqları Azərbaycanı elə bəzəyib-düzəyib tərifləyirdilər ki, camaat çaşıb qalmışdı, bir-birindən soruşurdular bu Azərbaycan deyilən yer haradır, biz də orda yaşamaq istəyirik.**

YAP icraçı katibi, Artur müəllimin müavini *(təsəvvür edin, elə bil vakuumun içində şar üfürən işləyirsən)* Əli Əhmədov deyirdi: "21-ci əsrin möcüzəsi Azərbaycandır, çünki biz son 10 ildə 3 dəfə inkişaf eləmişik".

O yanda estafeti Prezident Administrasiyandan Əli müəllim alırdı, deyirdi ki, Azərbaycanda media azadlığını dadmayan jurnalist qalmayıbdır. Bütün dünyada ən çox söz azadlığı bizdə imiş.

Görəsən, hardadır o azadlıq? Bəlkə də Kürdəxanı zindanında. Misal üçün, karserə salınan blogger İlkin Rüstəmzadənin tam azadlığı var ki, başını kameranın divarlarına döyüb "El bilir ki, sən mənimsən, Azərbaycan, Azərbaycan" oxusun.

Yoldaş Əhmədovun dediyi iqtisadi möcüzə isə Koroğlu körpüsündə intihar növbəsinə düzülənlər arasında populyardır. O qara insanlar hər gün bu möcüzələrdən danışırlar, hansı icra hakiminin bahalı maşın sürməsini, hansı prokurorun hansı manısı villasında saxlamasını müzakirə edirlər. Yaxın gələcəkdə bu cür işlərin "Ağ şəhəri" də olacaqdır ki, dünən bununla da bağlı nəsə tədbir var idi. İndinin özündə də içi boş, adam yaşamayan çoxlu belə binalar vardır. O binalar gələcək yarışlar üçün tikilir. Misal üçün, "Koroğlu" metrosunun yanında uzun illər boş qalan binalar tikmişdilər, indi deyirlər orda 2015 oyunları üçün gələn idmançılar qalacaq. Əgər sən də orda qalmaq istəyirsənsə birtəhər respublikadan qaç, hansısa xarici ölkədə idmanla məşğul ol, sonra oranın bayrağı altında gəlib Azərbaycandakı o tipli binalarda yaşa. Ayrı cür imkan yoxdur. Sağ qulağını sol əli ilə də yox, dabanı ilə qaşıyanların rejimində yaşayırıq.

İdman demişkən, idman müəllimi Əfruz xalanın bələdiyyə seçkisindəki performansı artıq sosial şəbəkələrdə fenomenə çevrilib. Həmin gün Məzahir müəllim MSK üzvlərini zirzəmidəki blindaja yığıb deyirdi: "Uşaqlar, bu yaramaz azərbaycanlılar Əfruz xalanı vurdular, o, qəhrəmancasına həlak olmuşdur, ancaq seçki məntəqəsinin ələ keçirilməsinə imkan verməyibdir. Sinəsini videokameraya sipər edib! Onun səngər yoldaşı, Yasamaldakı Malbazarı orta məktəbinin direktoru Tomris xala isə bülletenləri qutuya 50-50 dolduraraq şəhid olmuşdur. Gəlin onların xatirəsini yad edək, qadın batalyonlarımız şərəfinə matəm rəqsi oynayaq!"

Əfruz xalanın tərcümeyi-halı, 3-4 il qabaq cənab prezident tərəfindən "Şöhrət" ordeni alması da göstərir ki, bizdə əməyə, idmana qayğı öz bəhrəsini verir. Dünya arenaları Əfruz xalanın yetişdirdiyi idmançılar, gimnastlar, hokkeyçilər, vaterpolçular, ştanqistlər, karateçilərlə dolub-daşır. Onun xatirəsi hər zaman qəlbimizdə yaşayacaqdır! Tezliklə "İrəli" Yapist Gənclər Təşkilatına Əfruz Hacıyevanın adı veriləcəkdir!

"İrəli" demişkən, dünən bu qurum illik hesabatını yayıb, orda il ərzində neçə stul sındırdıqları *(bir yerləri ağrıdır, məlum məsələdir)*, neçə vedrə kofe içdikləri, nə qədər gəyirdikləri və sairə göstərilib. Çox yaxşı hesabatdır, ancaq qüsurlar da var. Misal üçün, "İrəli" il ərzində neçə qəlib sabun istifadə edib, neçə kilo vazelin xərcləmib - bunlar da göstərilməlidir.

Sonda bir iradımı da Sumqayıtın icra başçısı Eldar Əzizova çatdırıram. Tort hanı, ay adam!? İl başa çatır, prezidentin ad günü də keçdi, dünyanın ən uzun tortu isə yoxdur. Sumqayıtlılar nə elədilər ki, daha torta layiq olmadılar?

# Müsavat Partiyası bələdiyyə seçkilərinə dair hesabat yaydı

## Partiya seçkilərə mənfi rəy verdi və seçkinin nəticələrinin ləğvini tələb etdi

**Dekabrın 24-də Müsavat Partiyası bələdiyyə seçkilərinin nəticələrinə dair mətbuat konfransı keçirib. Partiyanın mərkəzi qərargahında keçirilən tədbirdə partiya sədrinin müavinləri iştirak ediblər.**

**Müsavat başqanının müavini Gülağa Aslanlı çıxış edərək bildirib ki, bələdiyyə seçkilərinin hakimiyyətin müdaxiləsi ilə və saxtakarlığa keçiriləcəyi əvvəlcədən bəlli idi:** "Bu səbəbdən Müsavat Partiyası seçkilərə partiya olaraq qatılmadı, üzvlərinə isə bu məsələdə müstəqillik verdi. Biz seçkidə müşahidə işini təşkil etməyi öz üzərimizə götürmüşdük. Müşahidələr və namizədlərin verdiyi məlumatlar bizim əvvəlcədən planlaşdırdığımız halın baş verdiyini təsdiqlədi. Ölkədə seçki adına şou baş verdi. Ancaq heç tamaşa göstərmək üçün seçici yox idi. Şəxsən özüm müşahidə etdiyim üç məntəqədə bir seçici də yox idi. Müsavat Partiyası müşahidəçilərdən və namizədlərdən olan məlumatı toplayaraq özünün yekun rəyini hazırlayıb. Seçki qərargahı pozuntular haqda məlumatı respublika üzrə 340 seçki məntəqəsindən müşahidəçi və namizədlərdən alıb".

**G.Aslanlı bildirib ki, ümumilikdə ölkə üzrə seçki aktivliyi 10 faizdən aşağı olub. Heç bir məntəqədə karbonladırılmış protokol yazılmayıb və imzalanaraq dairə seçki komissiyalarına göndərilməyib. Müsavat Partiyasının üzvü olan namizədlər Sərvər Bağırov və Şamil Beydulla da seçki zamanı üzləşdiyi qanunsuzluqlardan danışıblar.** "Binəqədi 9 saylı 2-ci Seçki Dairəsindən namizədliyimi vermişdim. Çoxsaylı qanunsuzluqlarla, saxtakarlıqla rastlaşdım. 13 saylı məntəqədə gözümün qarşısında topa bülleten atırdılar, etiraz etdim və məntəqə sədri polis çağıraraq məni məntəqədən çıxarmağa cəhd etdi, mən dairəyə iradımı bildirdim. 14 saylı məntəqədə müşahidəçilər üçün ayrılan stullar seçki kabinələrini və seçki qutusunu görməyə imkan vermirdi. Doqquz saylı məntəqədə bir kabinədə iki nəfərin səs verdiyinin şahidi oldum, şəkillərini çəkdik, bu zaman "Yeni Müsavat" qəzetinin əməkdaşını məntəqədən bayıra çıxardılar və dedilər ki, məntəqə jurnalistlər üçün qapalıdır. Məktəb direktoru bizi hədələdi. Səkkiz saylı məntəqədə müşahidə etdik ki, 9 saylı məntəqədə gördüyümüz seçicilər burada da səs verirlər. Bu cür qanunsuzluqlar hər məntəqədə baş verdi. İndiyə kimi cəmi bir məntəqədən protokol əldə etmişik. Heç bir məntəqədə səslərin sayılması prosesi olmayıb"",- deyə Ş.Beydulla bildirib.

**Partiyanın Mərkəzi Seçki Komissiyasındakı səlahiyyətli nümayəndəsi Elman Fəttah isə bildirib ki, Müsavat Partiyası seçkilərin saxtakarlıqla keçirildiyini bildirir:** "Müsavat Partiyasının Seçki Qərargahı hesab edir ki, 23 dekabr 2014-cü il tarixində keçirilən bələdiyyə seçkiləri bir siyasi qüvvənin hegemonluğu altında, qeyri-demokratik şəraitdə keçirilib, azad və ədalətli seçkilərin keçirilməsi üçün demokratik qanunvericilik bazası olmayıb, bərabərhüquqlu təbliğat imkanları təmin edilməyib, seçki kampaniyası dövründə və seçki günü saysız-hesabsız saxtakarlıqlara və çox saylı qanun pozuntularına yol verilib. Ölkə üzrə bütün şəhər və kənd bələdiyyələrinə seçkilər, namizədlərin qeydə alınması, təbliğat-təşviqat dövrü və seçki günü səsvermə prosesi icra strukturlarının total nəzarəti altında keçirilib. Seçkilərin nəticələri yerli sakinlərin azad iradəsini ifadə etməyib".





Müsavatın rəyində bildirilir ki, seçkilərin azad və ədalətli keçirilməsinə nail olmaq məqsədilə ATƏT, Avropa Birliyi, Avropa Şurası, AŞ PA-nın Venesiya Komissiyasının və digər nüfuzlu beynəlxalq qurumların Azərbaycan hökumətinə dəfələrlə etdiyi tövsiyələr də nəzərə alınmayıb. Həmçinin ölkədə fəaliyyət göstərən ictimai və siyasi təşkilatların, bütövlükdə Azərbaycan cəmiyyətinin, eyni zamanda beynəlxalq qurumların ölkəmizdə demokratik hüquq və azadlıqların təmin edilməsi, azad və ədalətli seçkilərin keçirilməsi, o cümlədən yerli özünü idarəetmə qurumlarının - bələdiyyələrin səlahiyyətlərinin artırılması üçün siyasi islahatların həyata keçirilməsi istiqamətindəki bütün səylərinə baxmayaraq, heç bir müsbət addım atılmayıb, demokratik seçkilərin keçirilməsi və ölkədə demokratik islahatlara başlanması yönündə verilən bütün təkliflər Azərbaycan hökuməti tərəfindən rədd edilib.

Seçki Məcəlləsinə son illərdə edilən əlavə və dəyişikliklər ölkənin aparıcı siyasi qüvvələri və bir sıra beynəlxalq təşkilatlar tərəfindən neqativ dəyişikliklər kimi dəyərləndirilib. Dəfələrlə saxtalaşdırılaraq keçirilən seçkilərin və bələdiyyələrin səlahiyyətlərinin heçə endirilməsinin nəticəsi kimi yerli sakinlər arasında bələdiyyə seçkilərinə etimad yox həddindədir: "Bunun nəticəsidir ki, real müxalifət partiyaları, o cümlədən Müsavat Partiyası Bələdiyyə seçkilərində partiya şəklində iştirak etməyib.

Azərbaycan hakimiyyəti ölkədə təkpartiyalı siyasi sistem yaratmaq istiqamətində fəaliyyətini son bələdiyyə seçkilərində də israrla davam etdirib. Ölkə üzrə bütün bələdiyyələrə qeydə alınan namizədlərin partiya mənsubiyyəti həlledici faizlə YAP-dır. Həmçinin seçici siyahıları da ciddi qüsurlarla tərtib edilib".

**Hesabatda vurğulanır ki, namizədlərin qeydə alınması dövrü kobud qanun pozuntuları və icra hakimiyyətlərinin qeydiyyat prosesinə qəti müdaxiləsi altında keçirilib:** "İcra hakimiyyətlərinin göstərişi əsasında DSK-lar yerli icra strukturlarının "xeyir-duasını" almayan sakinlərin namizədliyinin qeydə alınmasının qarşısını almaq üçün namizədliyini irəli sürmüş şəxsin xeyrinə imza vermiş sakinləri DSK-ya çağıraraq təzyiq yolu ilə öz imzasından imtina ərizələri yazmağa məcbur edib və namizədliyini irəli sürmüş şəxsin seçici imzalarının əksəriyyətini "etibarsız" elan edərək, onların qeydə alınmadığı haqda əsassız və qanunsuz qərar qəbul ediblər. Bu qanun pozuntusu bütün ölkə üzrə total xarakter daşıyıb. Yerli hakimiyyət strukturlarının "xeyir-dua"sını alan namizədlər, ümumiyyətlə, heç bir təbligat işi aparmır, bu xeyir-duadan kənar qalan bitərəflərə və müxalif namizədlərə isə sakinlərlə görüş üçün imkan verilmir, əksinə, təşviqat işi üçün manelər yaradılır.

Bütün ölkə boyu əhali arasında yayılmış xəbər isə daha dəhşətlidir. İddia olunur ki, şəhər bələdiyyə sədrliyinə 30-50 min, üzvlüyünə 5-10 min manat arası, kənd bələdiyyə sədrliyinə 5-10 min, üzvlüyünə 500-1000 manat arası rüşvət toplanıb".

**Hesabatda seçki günü ilə bağlı bildirilir ki, səsvermənin ilk saatlarından müşahidəçilərə qarşı təzyiqlər edilib:** "Seçki bülletenlərinin sayılmasında, onların saxlanılmasında, seçicilərə verilməsində qanunun tələbləri bir qayda olaraq yerinə yetirilməyib. Əksər seçki məntəqələrində seçki bülletenlərinin sayılmasında müşahidəçilərin iştirakı təmin edilməyib.

Seçki günü inzibati resurslardan kütləvi sui-istifadə hallarına yol verilib, dövlət idarələri öz işçilərinin səsverməyə gətirilməsini və onların yerli icra hakimiyyətlərinin müəyyən etdiyi siyahıda adı olan şəxslərə səs vermələrini təmin etməklə məşğul olublar. Bütün seçki dairələrində "karusel" üsulundan istifadə edilməsi, yəni ayrı-ayrı qrupların eyni və müxtəlif seçki məntəqələrində təkrar-təkrar səsverməsi halları qeydə alınıb. Bir çox seçki məntəqələrində səslər ümumiyyətlə sayılmayıb və sair".





**Hesabatda nəticə olaraq vurğulanır ki, seçkilər azad və ədalətli olmayıb və nəticələri də yerli seçicilərin azad iradəsini ifadə etməyib:** "Müsavat Partiyası 23 dekabr seçkilərinin nəticələrinin ləğv edilməsini, demokratik seçkilərin keçirilməsi üçün zəruri olan seçkiqabağı siyasi mühitin, belə seçkiləri təmin edəcək qanunvericilik bazasının yaradılmasını, beynəlxalq standartlara cavab verən Böyük Şəhər bələdiyyələrinin yaradılmasını, bələdiyyələrin statuslarını yerli özünü idarəetmənin Avropa Xartiyasının prinsiplərinə uyğunlaşdırmaq məqsədilə təxirə salmadan mütərəqqi islahatlar aparılmasını tələb edir".

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 314 (6023) 25 dekabr 2014

# Prezident niyə antiamerikan çıxışlara qoşulmur?

**"Azərbaycanın başqa yolu yoxdur. Biz anti-Amerika kursunu dəyişib amerikayönlü kurs götürməliyik. Əgər salamat qalmaq istəyiriksə. Yaxud əgər tək qalmaq istəmiriksə. Bu, tamamilə açıq və aydındır . Mən tamamilə əminəm ki, bu, mütləq baş verəcək. Rusiya alternativ deyil, Moskva öz siyasəti ilə bunu sübut edib".**

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə** bu sözləri Azərbaycan və ABŞ arasında yaşanan problemləri şərh edərkən bildirdi. Maraqlı bir məqam ondan ibarətdir ki, Azərbaycanın dövlət siyasətindəki anti-Amerika çıxışları ayrı-ayrı rəsmi şəxslər tərəfindən, yaxud rəsmi qəzetlər səviyyəsində səslənsə də, dövlət başçısı tərəfindən Vaşinqtona ünvanlı hər hansı sərt fikir eşidilməyib. Bu mənada bəzi ekspertlər güman edir ki, ölkə prezidenti situasiyanı daha düzgün qiymətləndirərək dünyanın superdövləti ilə münasibətlərin qorunmasının vacibliyini qəbul edir və məsələ ilə bağlı təmkinli davranır. Paralel şəkildə belə bir ehtimal da səslənir ki, Bakının Qərbə qarşı sərt çıxışları həm də razılaşdırılmış bir addımdır və bu, Rusiya təhlükəsini önləmək xarakteri daşıyır.

**V.Quluzadə isə bu ehtimalı o qədər də real hesab etmir:** "Birinci Pyotrdan bəri Rusiyanın bizə qarşı mövqeyi dəyişməyib. Bizim ümidimiz yalnız ona ola bilər ki, bəlkə bizə düşmən olan imperiya çöksün və canımız bu təzyiqdən qurtarsın. Bu gün Rusiyanın müttəfiqləri Lukaşenko və Nazarbayev də ona dirsək göstərir. Həqiqət bundan ibarətdir: biz Amerikaya təzyiq göstərmək istədik, ancaq sonra baxdıq ki, Azərbaycan kimi balaca bir dövlətin Amerikaya təzyiq etməsi mümkün deyil. Çünki Rusiya kimi nüvə dövlətinin də təzyiqi Amerikaya heç nə etmədi".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bunları bildirdi:** "İlham Əliyev prezident olduğu müddətdə hansısa konkret dövləti hədəf götürən açıqlama verməyib. Müəyyən eyhamları, işarəli olub, ancaq siyasətindən narazı qaldığı dövlətin adını konkret çəkmir. Hətta 2008-ci ildə İsveçrədə Ermənistanla imzalanan protokola görə strateji müttəfiqimiz Türkiyə ilə münasibətlərdə ciddi suallar yarandıqda da Əliyev ad çəkmədi. Hazırda Bakı-Vaşinqton münasibətlərində gərginlik göz qabağındadır. Bunun birinci səbəbi odur ki, rəsmi Bakı Vaşinqtonun "rəngli inqilab" seriyasını Azərbaycanda davam etməsindən şübhəlidir. İkinci səbəb isə odur ki, rəsmi Bakının xoşuna gəlmir ki, Vaşinqton Azərbaycan insan haqları və demokratiya məsələlərinə sərt reaksiya verir. Nəticədə Azərbaycan məmurlarının anti-Amerika ritorikası artıb. Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin son 50 səhifəlik məqaləsinin tamamı Amerika və onun siyasəti əleyhinə idi. Aydındır ki, Ramiz Mehdiyev və digər məmurlar prezidentdən icazə almadan Amerikanı hədəf götürə bilməzlər".



**Vəfa Quluzadə: "Biz ABŞ-a təzyiq göstərmək istədik, ancaq sonra baxdıq ki..."**




**Elxan Şahinoğlu: "Ölkə başçısı Vaşinqtonla bütün körpüləri yandırmaq istəmir"**

**Ancaq E.Şahinoğlu əlavə etdi ki, buna baxmayaraq, dövlət başçısı bu tənqidlərdən məsafə saxlayır, amerikalı diplomatları və konqresmenləri Bakıda qəbul edir, onlarla geniş fikir mübadiləsi aparır:** "Başqa sözlə, prezident Vaşinqtonla bütün körpüləri yandırmaq istəmir. Çünki prezident bilir ki, təhlükəsizlik və enerji məsələlərində Vaşinqton bütün hallarda Azərbaycana dəstək verir, bu isə bizim milli maraqlarımıza uyğundur. Digər tərəfdən, Barak Obamanın prezidentlik müddətinin bitməsinə 2 il qalıb. İlham Əliyevlə Barak Obama arasında dialoq alınmadı. Bir-iki dəfə beynəlxalq tədbirlərdə ayaqüstü söhbətləri olub, vəssəlam. Bir dəfə də Barak Obama İlham Əliyevi İstanbula dəvət edib ki, orada görüşsünlər. İlham Əliyev bu dəvəti qəbul etməyib, məncə də bu düz qərar idi. Çünki Barak Obama İstanbulda heç də Dağlıq Qarabağ münaqişəsinin həlli yollarını yox, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması və sərhədin açılmasına Bakının mane olmamasını xahiş edəcəkdi. İlham Əliyev İstanbula getməməklə bir növ deyilən mövzuları Barak Obama ilə müzakirə etmək istəmədiyinə işarə etdi". **Politoloq hesab edir ki, prezident İlham Əliyev Barak Obamadan sonrakı dövrə ümidlidir:** "Bakı ABŞ-ın respublikaçı prezidentləri ilə yaxşı dil tapa bilir, elə respublikaçılar da Azərbaycanla münasibətlərdə geosiyasi mövzuları ön planda tutublar. Bu baxımdan məmurlarımız anti-Amerika ritorikasının dozasını artırarkən, yaxşı olar ki, sabahı da düşünsünlər. Rusiya iqtisadiyyatı çökür, bu isə Moskvanın siyasi iştahasının azalmasına səbəb olacaq. ABŞ və Avropa Birliyi Rusiyanın Cənubi Qafqaza hakim olmasına imkan verməyəcəklər. Bunu bizim anti-amerikan məmurlar anlamalıdırlar. Ona görə də Amerikanı yıxıb-sürüyən məmurlarınız məqalələrində və açıqlamalarında bircə dəfə də "Rusiyanın Ermənistandakı hərbi bazaları kimə qarşıdır və Kreml bu bazaları niyə modernləşdirir" sualını da gündəmə gətirsəydilər, bu, bizim balanslaşdırılmış xarici siyasətə də uyğun olardı. İlham Əliyev qonşu dövlətlərlə normal münasibətlərin tərəfdarıdır, ancaq Amerika və Avropa Birliyi ilə də münasibətlərin korlanmasını istəmir".

❑ **Cavid TURAN**

# Rusiya kimin üstünə yıxılacaq?



## Bu, asılı olacaq həmin an kimin ona ən yaxın "məsafə"də durmasından; bataqlığa gedəni yalnız daha güclü qüvvə qurtara bilər, yerdə qalanlar, o cümlədən Ermənistan isə onunla birgə gedəcək...

**Rusiyanın, daha doğrusu, Putinin durumu ruscadır. Və belə görünür, bu durum Kreml başçısının vəd elədiyi kimi, heç yaxın iki ildə də düzəlməyəcək. Hər halda, Rusiya ətrafında cərəyan edən proseslər və Putinin son mətbuat konfransında söylədiyi hədə xarakterli mesajlar belə qənaət formalaşdırır.**

Bir şey dəqiqdir ki, Qərb, özəlliklə ABŞ Kremldən minimum istədiyinə almayınca, rusların vəziyyəti pisləşməkdə davam edəcək. Minimum tələb isə Moskvanı beynəlxalq hüquqa saygılı olmağa vadar eləmək, 2008-ci ildə Gürcüstanın, 2014-cü ildə isə Ukraynanın başına açdığı oyunlara görə üzr istədib, geri addıma sövq etdirmək, kəsəsi, Putinə qulaqburması verməkdir.

Rusiyanın bəxti isə bir şeydə də gətirməyib. O da onun Azərbaycan kimi qeyri-neft sektoru inkişaf etməyən, inkişaf etdirilməyən ölkə olmasıdır. Belə xammal ölkələri isə dünya xammal bazarlarından xeyli dərəcədə asılı olur. Çünki büdcəsi əsasən onun hesabına formalaşır. O üzdən neftin qiyməti düşən kimi (təbii ki, Amerikanın taktikası nəticəsində) rubl da kəllə-mayallaq oldu, Rusiyanın iqtisadi-bank sistemi də.

Amma cəmi bir neçə ay öncə Putinin ayağı yer tutmurdu. Kreml rəhbərinin hazırkı ümidsiz durumunu isə ABŞ prezidenti Barak Obama bir neçə gün öncə çox gözəl xarakterizə edib. Sitat: "Deyirdilər, guya Putin hamımıza kələk gəlib, Qərbi aldadıb və qalib gəlib. Hanı bəs? Pitin indi çökməkdə olan rublla, iqtisadi böhranla üzbəüzdür. O, əsla qalibə oxşamır".

Bu, doğrudan da belədir. Putinin üzündəki "çekist" təbəssümü, davranışındakı qalib ədası artıq yox olub gedib. Bununla belə, Rusiya prezidenti yola gələnə də oxşamır. Odur ki, indi analitikləri ən çox bir sual ciddi şəkildə düşündürür. Bu da ondan ibarətdir ki, görəsən, çökməkdə olan Şər imperiyası son anda kimin üstünə "yıxılacaq" - Ukraynanın, Çinin, yoxsa Güney Qafqazın *(Azərbaycanla Gürcüstanın)* üzərinə?

Məntiqlə bu, asılı olacaq həmin an kimin ona ən yaxın "məsafə"də durmasından. Deməli, indilikdə və yaxın illərdə bu və ya başqa taktiki maraqlar naminə Rusiyanın yanında, yaxınında dayanmaq, bundan da betəri - onun dərdlərini və problemlərini bölüşüb Rusiyaya görə sinəni qabağa vermək çox təhlükəli olacaq.

Əlbəttə ki, Rusiya düşdüyü bataqlıqdan çıxmağa sonadək can atacaq. Lakin ən kritik məqamda o, ona kömək əli uzatmaq istəyən ölkələri də istəməsə belə, özü ilə dartıb bataqlığa çəkə bilər. Rusiyanın xilası isə ilk növbədə öz əlindədir. Yolu bəlli: Putin "soyuq müharibə"dən sonra formalaşmış dünya düzəninə qarşı tutduğu yanlış, beynəlxalq hüquqa meydan oxuyan mövqedən çəkilməlidir. Başqa yol yoxdur.

Başqa yol Rusiyadan daha güclü qüvvənin *(misal üçün, ABŞ, Avropa timsalında)* əl uzadıb onu böhrandan çəkib çıxarmasıdır. Bu rola isə heç Türkiyə də uyğun gəlmir, o ki ola - Azərbaycan. Deməli, yerdə qalanlar Rusiya ilə birgə bataqlığın dibinə gedəcək. Bu xüsusda ən əvvəl Rusiya ilə həmsərhəd postsovet dövlətləri diqqətli olmalıdır. Bilə-bilə özünü fəlakətə atmağın anlamı nə? "Cəhənnəmə hazırlaşan"a Ermənistan kimi yol yoldaşı olmağa dəyərmi?

Yeri gəlmişkən, Rusiyanın düşdüyü vəziyyətin ən güclü küləyi onunla "çaşka-lojka" olan işğalçı ölkəyə dəyəcək. Ayrı cür mümkün deyil. İrəvan bilməli idi ki, Qarabağın işğalına Rusiyanın dəstəyi əsla təmənnasız deyil və zaman gələcək rusun maşası olmağa görə cavab verməli olacaq. Artıq "səfaya görə cəfa çəkmək" zamanı yetişir.

O ki qaldı Rusiyanın konkret kimin üstünə yıxılacağına, bircə imperiya şərini bizdən rədd eləsin, yetər. Ancaq bundan ötrü rəsmi Bakının diqqətli olması da lazım. Onsuz da Rusiyanın lap yaxınlığında olsaq da, olmasaq da, həmsərhəd ölkə kimi çöküşün tozanağı Azərbaycanın da üstünə qonacaq. Ancaq tozanaqdan çıxmaq mümkündürsə, imperiya dağıntıları altından qurtulmaq mümkün olmaya bilər.

Onu da gərək unutmayaq ki, bizim Dağlıq Qarabağ problemimiz var. Elə olmasın ki, çökən imperiyaya görə Qərblə əməli-başlı düşmən olaq və bununla həm Ermənistanı xarabalıqlar altından xilas edək, həm də üstəlik, onun çörəyinin üzərinə "yağ" sürtək.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 314 (6023) 25 dekabr 2014

# Abbas Abbasovun "AzerRos"dakı adamı ətrafında həlqə daralır

## Qurum prezidenti Asif Məhərrəmova qarşı ittihamlar pik həddə çatıb; "Milyarderlər İttifaqı"nın odioz fiqurları isə növbədənkənar qurultayı boykot yolu seçiblər, ancaq...


Abbas Abbasov

**Rusiya prezidenti yanında Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyətinin ("AzerRos") rəhbərliyində parçalanma haqda xəbər vermişdik. Qeyd etmişdik ki, son vaxtlar dərinləşən ziddiyyətlər qurumun hazırkı prezidenti Asif Məhərrəmova qarşı etimadsızlığın irəli sürülməsi ilə nəticələnib.**

Belə ki, noyabrın 14-də "AzerRos"un Federasiya Şurasının 7-ci iclası keçirilib və toplantıda Asif Məhərrəmovun, eləcə də İcra Aparatının 2013-cü ilin yanvarından 2014-cü ilin noyabrınadək olan dövrdə fəaliyyəti müzakirə olunub. Çıxışlarda Məhərrəmova qarşı konkret iradlar əksini tapıb, bildirilib ki, "Asif Məhərrəmov qurumu polis izolyatoruna çevirib". Bu və başqa iradlar əsas gətirilərək hələn il yanvarın 17-də "AzerRos"un növbədənkənar qurultayını çağırmaq qərara alınıb və T.Hacıyevin başçılığı ilə 7 nəfərdən ibarət Təşkilat Komitəsi yaradılıb.



Xatırladaq ki, Asif Məhərrəmov Azərbaycanın baş nazirinin sabiq 1-ci müavini, "Milyarderlər İttifaqı"nın (RATİ) odioz üzvü və "AzerRos" Ağsaqqallar Şurasının sədri Abbas Abbasovun adamı sayılır və bilavasitə onun təkidi ilə təşkilata prezident seçilib. Asif Məhərrəmovun özü də RATİ üzvüdür.

***

Qurumdaxili ziddiyyətlərin kəskin olmasını təsdiqləyən daha iki sənəd redaksiyamıza təqdim edilib. Onlardan biri T.Hacıyev və qurultaya hazırlıq üzrə təşkilat komitəsinin digər üzvləri tərəfindən "AzerRos" Federasiya Şurasının (FŞ) sədri Mehriban Sadıqovaya və hazırkı prezident Asif Məhərrəmova ünvanlanan bəyanatdır.


Председателю Федерального совета
ФНКА АзерРос
Садыговой М.Э.
Копия: Президенту ФНКА АзерРос
Магеррамову А.Р.

От Председателя организационного комитета
По подготовке внеочередного съезда
ФНКА АзерРос Гаджиева Т.

ЬРАЩЕНИЕ

Bəyanatda FŞ-nin dekabrın 25-nə tələm-tələsik iclas təyin etməsinə və ən əsası, iclasın gündəliyinə etiraz edilir. İclas barədə qurum üzvlərinin cəmi iki gün qalmış xəbərdarlıq edilməsinə də sərt formada etiraz bildirilir. Ən önəmlisi, bəyanatda 25 dekabr iclasının gündəliyinə Asif Məhərrəmovun prezident postunda fəaliyyətinin legitim sayılması, müvafiq surətdə Şuranın 14 noyabr iclasının isə qeyri-legitim hesab edilməsi *(artıq qeyd edildiyi kimi, həmin iclasda Məhərrəmova etimadsızlıq göstərilib və növbədənkənar qurultay qərarı çıxarılıb)* pislənilir.

Bəyanat müəllifləri eyni zamanda qurultaya hazırlıq işlərinin başa çatmaqda olduğuna diqqət çəkir və ali tədbiri sabotaj cəhdlərinə görə Sadıqova və Məhərrəmovu ittiham edirlər. Sənəddə həmçinin, 14 noyabr toplantısının nəticələrini şübhəyə məruz qoymaq üçün "Məhərrəmovun nə hüquqi, nə də mənəvi haqqının olmadığı" xüsusi vurğulanır.

**İkinci sənəd konkret olaraq T.Hacıyev tərəfindən eyni şəxslərə ünvanlanan müraciətdir. Müraciətdə bir daha Məhərrəmova etimadsızlıq göstərilməsinin səbəb və motivləri ətraflı şəkildə xatırlanır. Sitat:** "Siz əla bilirsiniz ki, ötən qurultayda Məhərrəmova necə səs veriblər. Yada salın, nə qədər neqativ sözlər deyildi o zaman onun haqqında, milis işlədiyi vaxtlarda malik olduğu qüsurları və bəd əməlləri haqda... Onun haqda hansı müsbət rəy yarana bilər ki, işçilərinin yanında azərbaycanlıların üzərindən tankla keçəcəyini dəfələrlə bildirib??? İnsanlar Azərbaycan icmasına rəhbərlik edən, azərbaycanlılar barəsində isə "bu millət deyil, ....-dir (ədəbsiz ifadə) və ya Elçibəy ...-dir (ədəbsiz ifadə)" sözlərini işlədən şəxs haqda nə düşünə bilər? Belə ahıl yaşda öz millətinin ünvanlına kobud və əxlaqsız sözlər söyləyən adam haqda hansı fikir formalaşar? O, hansı millətdəndir?.. Axı sən kimsən, yoldaş Məhərrəmov?.. Onunla necə dialoq aparmaq olar ki, hamını özünün dostları - DİN və FSB-dəki (FTX-red.) generalları vasitəsilə haqq-hesab çürütməklə hədələyir?..."

***

Beləliklə, "AzerRos"a rəhbərlik uğrunda mübarizənin daha da şiddətləndiyi ortadadır. Yəqin ki, 25 dekabr toplantısı bu yöndə ehtirasları daha qızışdıracaq. Bəzi ehtimallara görə, qurumda son yaşananlar, 2013-cü ildə yaradılan RATİ-ni zəiflətmək planının tərkib hissəsi də ola bilər. Bir daha diqqətə çatdıraq ki, son prezident seçkiləri zamanı RATİ, o sırada onun fəal üzvləri olan Abbas Abbasov və Söyün Sadıqov Azərbaycan iqtidarına kifayət qədər başağrısı yaradıblar. İstisna deyil ki, "AzerRos" rəhbərliyində gedən proseslər həm də gələnilki parlament seçkilərinədək "Milyarderlər ittifaqı"nı zəiflədib təsirsiz hala gətirmək planının tərkib hissəsidir. Deyəsən, düyməyə artıq basılıb.

❑ Siyasət şöbəsi

# İŞİD özü-özünü içəridən dağıdır

**Son zamanlar İŞİD daxilində edamlarla bağlı xəbərlərin sayı artıb. Yayılan xəbərlərdə qruplaşma daxilində fərarilik hallarının artdığı, qaçmağa cəhd edənlərin isə həbs olunaraq edam edildiyi bildirilir. Qərb mediası İŞİD-in artıq "hərbi polis" dəstələri yaratdığı və bu dəstələrin qaçmağa çalışan, eləcə də döyüş meydanında geri çəkilən yaraqlıları ələ keçirərək cəzalandırdığı qeyd olunur.**

Bir neçə gün əvvəl isə Suriyanın Rəqqa şəhərində həbs olunan və azərbaycanlı olduqları güman edilən 4 nəfərin silahlı üsyana cəhd etmək, qaçmaq, təşkilat üzvlərini qətlə yetirmək, hətta quldurbaşı lider Əbu Bəkr əl-Bağdadiyə itaətsizlikdə təqsirləndirilərək edam edildikləri xəbəri yayılıb.

Müşahidəçilərə görə, İŞİD liderləri bununla da qruplaşmanı tərk etmək istəyənləri qorxutmağı, eyni zamanda döyüş meydanından qaçanları çəkindirməyi hədəfə alırlar.

Ancaq qruplaşma içərisində 4 azərbaycanlının məhz İŞİD liderinin fəaliyyətindən narazı olması, onu təkfir etməsi müəyyən mənada yeni hadisədir. Məlum olur ki, bu günə qədər monolit və möhkəm hesab olunan İŞİD-in içərisində ciddi fikri ayrılıqları və "müxalifət" mövcuddur. Bu isə qruplaşma daxilində parçalanma olacağı və ya bir sıra üzvlərin qrupdan ayrılacağı ehtimallarını gündəmə gətirir. Qeyd edək ki, İŞİD daxilində Azərbaycandan bir neçə yüz döyüşçünün olduğu güman edilir.

**Sabiq təhlükəsizlik zabiti, ekspert Arzu Nağıyev** deyir ki, artıq bu mövzu Yaxın Şərqin sərhədlərindən çoxdan kənara çıxıb və bütövlükdə dünyanı narahat edir. İŞİD daxilində postsovet respublikalarından da xeyli sayda insanların olduğunu xatırladan ekspertin fikrincə, artıq Azərbaycan da daxil olmaqla, keçmiş sovet respublikaları bu mövzuda narahatlıqlarını gizlətmir: "İŞİD daxilində keçmiş sovetlər birliyi, əsasən də Rusiya və Orta Asiyadan,



### Arzu Nağıyev: "Artıq daxildə inamsızlıq toxumu səpilib və bu proses onların içəridən dağılmasına təkan verə bilər"



### Ərəstun Oruclu: "İŞİD-in yalnız bombalamaqla məğlub edəcəyini düşünmək sadəlövhlük olardı"

Azərbaycandan və başqa dövlətlərdən də çoxsaylı terrorçular var. Bunların arasında aparıcı rolu əlbəttə ki, Rusiyadan, daha doğrusu, Şimali Qafqazdan olanlar oynayırlar. Məlumdur ki, onların öz ölkələrinə qayıdışı aldıqları "dərs"lərin həyata keçirilməsi ilə də nəticələnə bilər. Əlbəttə ki, bu, tək silahlı iğtişaşlardan deyil, müxtəlif vətəndaşlara qarşı yönələn terror aktı, mağaza və obyektlərin partladılması və s. ola bilər. Buna hazır olmaq lazımdır və düşünürəm ki, hüquq -mühafizə orqanları bu istiqamətdə müvafiq tədbirlər həyata keçirir".

**Arzu Nağıyevin fikrincə, artıq qruplaşmanın daxilində müəyyən çatlar yaranır:** "Düşünürəm ki, terrorla, o cümlədən İŞİD-lə mübarizə üçün əsas olaraq hər cürə əməliyyat-axtarış və digər fəaliyyətlərdən istifadə etmək lazımdır. İslam xilafəti ideyasının daşıyıcılarını kökündən ləğv etmək üçün onların arasında əlbəttə ki, müvafiq iş aparmaq lazımdır. Belə bir sferada əməliyyat fəaliyyətinin həyata keçirilməsi həddən artıq riskli və qorxuludur. Güman etmək olar ki, onların öz əks -kəşfiyyat fəaliyyəti ilə məşğul olan qurumları mövcuddur. Məhz buna görə də İŞİD-in ruslardan ibarət öz döyüşçülərini agent adı ilə qətlə yetirdiklərinin şahidi oluruq. Yəni artıq daxildə inamsızlıq toxumu səpilib və bu proses onların içəridən dağılmasına təkan verə bilər. Düşünmürəm ki, bu hər hansı dövlətin apardığı məxfi fəaliyyət ola bilər, ancaq hər halda, bu proses gedir".

**Politoloq Ərəstun Oruclunun fikrincə, dalbadal məğlubiyyətlər və uğursuzluq sindromu İŞİD-dən qopmaları sürətləndirir:** "Şübhəsiz ki, İŞİD içində xarici kəşfiyyatların rolu var. İŞİD-in yalnız bombalamaqla məğlub edəcəyini düşünmək sadəlövhlük olardı. İŞİD-lə mübarizə aparan ölkələrin də əlində yetərincə müxtəlif resurslar var ki, onların hamısından, o cümlədən kəşfiyyat orqanlarından istifadə edirlər. Digər tərəfdən isə burda bir məğlubiyyət sindromu da var. Dünənə qədər hamı bunların qarşısından qaçırdı, qalib simasında idilər və hamı təbii olaraq qalibə can atırdı. Amma məsələ burasındadır ki, insan psixologiyası belədir, heç kim məğlubun yanında olmaq istəmir. Bu mənada son zamanlar dalbadal aldığı zərbələr və məğlubiyyətin də buna təsiri var. Bundan başqa, amansız döyüşlər, edamlar, əsir götürülən İŞİD döyüşçülərinin qəddar işgəncələrə məruz qalmaları da burda rol oynadı. Belə desək, İŞİD-ə qarşı öz metodunu tətbiq elədilər. Məlum oldu ki, bu metodlar da İŞİD-çilərə effektiv təsir göstərir. Ona görə də yaxın zamanlarda İŞİD-in parçalandığı, orda qruplaşmalar yarandığı və bir-birilərini öldürməyə başladıqlarını eşitsək, buna təəccüblənmək lazım deyil. Belə desək, bu, məntiqi inkişafdır. İstənilən zorakı terrorçu qrupun bir məntiqi yekunudur. Hakimiyyətlər də belədir. Zorakı hakimiyyətlər də zəifləyən kimi dünənə qədər ümumi düşmənlərə tətbiq etdikləri üsulları bir-birilərinə tətbiq etməyə başlayırlar".

**Yaxın Şərqdə savaşlarda iştirak edənlərin geri qayıtması ehtimalına gəlincə, Ə.Oruclu deyir ki, bu ehtimal xeyli dərəcədə real olsa da, hazırda Azərbaycanın buna qarşı hazır olması hiss olunmur:** "Məncə, hazır deyil. Ona görə ki, buna heç bir ciddi hazırlıq görülmür. Burda məni qınayıb demək olar ki, xüsusi xidmət orqanlarının fəaliyyətində nə görünür ki..?"

❑ KƏNAN

# Yanukoviç üzə çıxdı

## "Məni öldürməyə qərar vermişdilər"

**"Ukraynada dövlət çevrilişi planı quran qüvvələr istefaya getmədiyim halda məni öldürməyə qərar vermişdi". APA-nın məlumatına görə, bunu "Arqumentı i faktı" qəzetinə müsahibəsində Ukraynanın sabiq prezidenti Viktor Yanukoviç deyib. V. Yanukoviç bu ilin fevralında baş verən Avromaydan hadisələri barədə danışarkən nümayişçilərə atəş açmaq əmri vermədiyini deyib:**

"Meydanda Ukrayna üçün Avropa seçiminin uğurlu olacağına sidq-ürəkdən inanan vətənpərvərlər çox idi. Lakin gəlin baxaq, meydan hadisələri kimə sərf edirdi? Meydanda duran on minlərlə insan heç nə əldə etmədi. Bütün mənfəət məsuliyyətsiz siyasətçilərə və onların sponsorlarına çatdı. Onlar saxta vədlərlə insanları inandırdılar ki, hər şeyə nail olmaq asandır və "parlaq gələcəyə" doğru yolda yeganə maneə Yanukoviçdir. Amma bu ssenarinin rejissorlarına Yanukoviç yox, Ukrayna lazım idi".

**Sabiq prezident 100-dən çox insanın öldüyü 18-21 fevral hadisələri barədə suala belə cavab verib:** "Fevralın 18-də müxalifət insanları Ali Radaya apardı. Onların hədəfi vardı - parlament və Prezident Administrasiyasını tutmaq. Həmin vaxt DİN əməkdaşlarının əlində odlu silah yox idi, ona görə də odlu silah tətbiqi barədə əmr ola bilməzdi. Artıq fevralın 18-də gündüz çağı etirazçılar İnstitutskaya küçəsində ticarət mərkəzləri və yaşayış binalarını talan etməyə başladılar, Regionlar Partiyasının ofisinə hücum edərək, iki ofis əməkdaşını öldürdülər. Bundan sonra hadisələr inanılmaz sürətlə inkişaf etməyə başladı. Müxalifət tamamilə qanunun sərhədlərini keçməyə və açıq-aşkar silahlanmağa başladı. Tək bir gün içində - 18 fevralda odlu silahdan açılan atəş nəticəsində 10-dan çox milis əməkdaşı xəsarət aldı. Deyin görək, nümayişçilərdə silah olmasaydı, bu, necə baş verə bilərdi? Elə bu vaxt Qərbi Ukraynada radikal qruplar kütləvi şəkildə dövlət idarələrini tutmağa başladılar. O cümlədən, DİN və Təhlükəsizlik Xidmətinin binalarını, silah anbarlarını. Onların əlində minlərlə odlu silah peyda oldu. Biz başa düşürdük ki, əgər bu silahlar Kiyevə gəlsə, qan tökülməsindən qaça bilməyəcəyik. Ona görə də qanunsuz hərəkətlərin qarşısını almaq və qətiyyən silah işlətmədən meydana aparan küçələri boşaltmaq qərarı verildi".


Viktor Yanukoviç

**V.Yanukoviçin sözlərinə görə, Ali Radada impiçment cəhdi baş tutmadıqdan sonra müxalifət ona təzyiqlər etməyə başlamış, bu baş tutmadıqda isə sui-qəsd planı işə düşmüşdü:** "Fevralın 20-nə olan məlumatlara görə, 20 milis əməkdaşı öldürülüb, 130 nəfər də yaralanıb. Amma bu barədə heç nə açıqlanmır. Görəsən, niyə indiki hakimiyyət bu məsələni araşdırmır, günahkarların kim olduğunu müəyyənləşdirmir?"

V.Yanukoviç onu da əlavə edib ki, əgər Almaniya və Polşa XİN başçılarının, eləcə də Fransa XİN nümayəndəsinin iştirakı ilə müxalifət və iqtidar arasındakı razılaşmaya əməl olunsaydı, qanlı hadisələr də baş verməzdi.

YENİ MÜSAVAT
N 314 (6023) 25 dekabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# 2015-də status-kvo dəyişəcəkmi və onu kim dəyişəcək?

## Ekspertlərə görə, gələn il Bakının Qarabağa stavkası artacaq; **rusiyalı analitik:** "Azərbaycan Güney Qafqazda öz öncüllüyünü sırf iqtisadi vasitələrlə də təsbit edə bilər..."

**2014-cü il Dağlıq Qarabağ nizamlanmasında xüsusi canlanmanın olmaması ilə yadda qaldı. Yalnız ilsonu vasitəçi dövlətlərin müəyyən təşəbbüskarlığı, növbətçi fəallıq müşahidə edildi ki, bu da ənənəvi "yükü" yerindən tərpətmək üçün yetərli olmadı. Olsa-olsa, təmas xəttində artan gərginliyi əvvəlki məcraya qaytarmağa stimul rolu oynadı.**




Problemin dinc nizamlanması yolunda yeni böyük əngəl isə ilin əvvəlində - mart ayında Rusiyanın "referendum" ("öz müqəddəratı təyinetmə haqqı") bəhanəsi ilə Krımı ilhaq eləməsi zamanı yaranmışdı. Hələ o zaman aydın idi ki, Ukraynaya görə kəskinləşən Rusiya-Qərb qarşıdurması Qarabağ probleminin danışıqlar yolu ilə həllinə yardımçı olmayacaq, əksinə, əlavə əngəllər yaradacaq.

Elə də oldu. Uzun müddət Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü baş tutmadı. Və yalnız avqustda - cəbhədəki "mini-müharibə"dən sonra Rusiya Qərbə həm də güc nümayiş etdirmək üçün "işə qarışdı", Soçi görüşü reallaşdı, genişmiqyaslı müharibə riski minimuma endi.

Əslində Kremlin özü də bunda maraqlı idi. Çünki Ukraynanın ardınca postsovet məkanında, üstəlik, "qulağının dibində" ikinci bir cəbhənin açılması onun strateji maraqlarına uyğun deyildi. İndi də uyğun görünmür - üstəgəl, Türkiyə faktoruna görə.

Məsələdə ən maraqlı detal da budur ki, Qərb *(ABŞ və Avropa)* da yeni Qarabağ savaşanı arzulamır, bunu istər region, istərsə də Qərb və hətta Rusiya üçün ağır fəsadlar verə biləcəyini düşünür. Bu mənada prezidentlərin Soçi görüşü Amerika və Avropanın da strateji çıxarlarına cavab verirdi. Təsadüfi deyil ki, Soçidən dərhal sonra, cəmi 1-2 aylıq fasilə ilə prezidentlərin daha iki görüşünü ABŞ və Fransa təşkil elədi.

Lakin hər üç görüş nizamlama prosesi ətrafında müəyyən gümrahlaşdırıcı fon yaratsa da, əsas məsələ - status-kvonu dəyişdirmək və Böyük Sülh Sazişi üzərində işə başlamaq yenə mümkün olmadı. Beləcə, çoxillik Qarabağ ixtilafı bütün ağırlığı ilə növbəti ilə adlamış oldu. Bəs gələn il status-kvonu dəyişmək mümkün olacaqmı və bunu kim edəcək - vasitəçi dövlətlər, beynəlxalq birlik, yoxsa illərdir işğal vəziyyəti ilə barışmaq istəməyən, fəqət buna məhkum edilən Azərbaycan?

***

Bu mövzuda danışan tanınmış rusiyalı politoloqlardan olan **Sergey Markedonov** hesab edir ki, hələ ki, Dağlıq Qarabağ məsələsi ətrafında status-kvonun dəyişməsi Moskvanın marağında deyil. Bu sözləri o, Azərbaycanın xarici işlər nazirinin müavininin "Rusiya-Türkiyə əməkdaşlığı Azərbaycana sərfəlidir, çünki Moskva Minsk Qrupunun həmsədridir, Türkiyə isə Ermənistanla həmsərhəddir" fikrinə münasibət bildirərkən söyləyib.

Onun sözlərinə görə, Rusiyanın Türkiyə və Azərbaycanla yaxınlaşması Kremlin maraqları çərçivəsində cərəyan edəcək:



"Rusiyanın maraqları isə hazırda status-kvonu saxlamaqdan ibarətdir. Mən əminəm ki, bu mövqeyi dəyişmək üçün zəmin yoxdur".

Politoloq fikrini belə əsaslandırıb: "Heç kim güzəşt xətrinə güzəştə getmir. Axı Moskva bilir ki, Azərbaycan yönünü Rusiyaya dəyişməyəcək. Bu istisnadır. Ona görə ki, energetika sistemi nöqteyi-nəzərdən Azərbaycan Qərbin bir hissəsidir, Qərbdə energetik plüralizm adlanan anlayışın tərkib hissəsidir. Bu, öz-özlüyündə Rusiyaya ciddi təhdiddir. O ayrı məsələdir ki, siyasi anlamda Azərbaycan Qərb deyil və bu məsələdə Rusiya Azərbaycana olduqca yaxındır. İki ölkə arasında xüsusilə Dağıstanla sərhədlə ilgili və Xəzər dənizi hövzəsində ortaq təhlükəsizlik təhdidləri var. Bu, Azərbaycana Gürcüstan yolunu təkrarlamağa imkan vermir".

**Rusiyalı ekspertin qənaətincə, Kreml real faktorları nəzərə alaraq hərəkət eləməyə çalışır:** "Erməni tərəfində Rusiyanın mövqeyinin dəyişəcəyi ilə bağlı narahatlıqların əsası yoxdur. Guya Azərbaycan öz ərazisindən Qərb şirkətlərini qovacaq? Əlbəttə ki, yox. Ya bəlkə Bakı-Tiflis-Ceyhan bağlanacaq? Yenə yox. Azərbaycan Qərbə qarşı özünü qoymayacaq".

***

"2015-ci il bütün dünya üçün, o cümlədən Rusiya üçün sınaq ili olacaq. Həmçinin müxtəlif bölgələrdə konflikt potensialından istifadə anlamında sınaq ili olacaq. Məhz onda Qərbin Rusiyaya qarşı indiki sanksiyaların ən böyük effektini gözləmək lazım gələcək". Bu fikirləri isə vesti.az-a açıqlamasında başqa bir rusiyalı siyasi şərhçi və tarixçi Sergey Balmasov söyləyib.

**Azərbaycana gəlincə, o, başa çatmaqda olan ili ölkəmiz üçün onun Qərbdən ötrü mühüm energetik dövlət qismində əhəmiyyətinin möhkəmlənməsi ilə yadda qaldığını bildirib:** "Yaxın illərdə Bakı Qərb üçün daha güclü cazibə mərkəzi olacaq və onun energetik statusunun möhkəmlənməsi ilə onun siyasi stavkaları, o sırada Qarabağla bağlı stavkaları artacaq".

**Analitikin fikrincə, son vaxtlar "pərdəarxası qüvvələr"in Qarabağ münaqişəsini geniş miqyaslı müharibəyədək alovlandırmaq səylərinin gücləndiyi müşahidə edilir:** "Bu da artıq aşkar tendensiyadır. Azərbaycan da, Ermənistan da hadisələrin belə inkişafından yayınmalıdır. Hər halda, Azərbaycanın şansı var ki, Güney Qafqazda öz birinciliyini sırf iqtisadi vasitələrlə sübut eləsin".

Tarixçi hesab edir ki, erməni tərəfdən müəyyən qüvvələr Bakını üzücü münaqişəyə cəlb eləməyə çalışacaq: "Məqsəd budur ki, Rusiya tərəfdən diqqəti və resursları daha çox özlərinə çəksinlər".

Təhlilçiyə görə, Ukraynadakı mürəkkəb vəziyyət və Qərblə tarıma çəkilən münasibətlər şəraitində 2015-ci ildə Cənubi Qafqazda status-kvonun saxlanması Moskvaya sərf edir.

***

Bu arada Moskvada Rusiyanın dominant olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) dövlət başçıları səviyyəsində keçirilən toplantısında Qarabağ məsələsi də diqqət mərkəzində olub. Hərbi-siyasi blokun üzvləri problemin müstəsna olaraq dinc vasitələrlə yoluna qoyulmasının tərəfdarı olduqlarını bəyan ediblər.

Bu barədə KTMT-nin bugünkü Moskva sammitinin yekunlarına dair keçirilən mətbuat konfransında bildirilib. "Biz - KTMT-yə üzv dövlətlər həmçinin, Dağlıq Qarabağ münaqişəsinin yalnız dinc vasitələrlə həllinin, habelə ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə bu münaqişənin nizamlanmasının əsas prinsipləri üzərində işi tezliklə tamamlamağın vacibliyini qeyd edirik" - deyə bəyanatda qeyd olunur.

Xatırladaq ki, KTMT-yə 6 postsovet ölkəsi - Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Ermənistan daxildir. Lakin aydındır ki, 6 ölkədən yalnız Rusiyanın Qarabağ məsələsinə real təsir imkanları var. Əfsus ki, bu imkanlar 2014-cü ildə də hərəkətə gətirilmədi. 2015-ci ildə necə olacağını söyləmək isə çətindir, hərçənd rusiyalı ekspertlər Kremlin hələ ki mövcud durumun kardinal şəkildə dəyişməsində maraqlı olmadığını iddia edirlər.

Ancaq bu, sadəcə, təxminlərdir. Dəqiq olan odur ki, hələn il bütün dünya, öncəliklə də böyük vasitəçi güclər Qarabağ konflikti ilə də ciddi imtahana çəkiləcəklər. Ən azı o səbəbə ki, bu münaqişə olduqca təhlükəli bir fazaya daxil olub və yaxın gələcəkdə status-kvo yaxşıya dəyişməsə, problemi dinc vasitələrlə nizamlama qat-qat qəliz olacaq.

***

Status-kvonu isə üç tərəfdən biri dəyişə bilər - Qərb, Rusiya *(Ermənistan söz sahibi olmadığı və Kremlin vassalı olduğundan bura daxil deyil)* və Azərbaycan. Əlbəttə ki, söhbət heç də müharibə variantından getmir. Bu variant bəlkə də tərəflərin heç biri üçün məqbul sayılmır və təhlükəlidir.

Ancaq güc hədəsi ilə situasiyanı yaxşıya doğru dəyişmək mümkündür. Söhbət işğalçını sülhə vadar eləməkdən, bu sülh naminə ilkin mərhələdə onu heç olmasa, Dağlıq Qarabağ ətrafındakı rayonlardan çıxmağa məcbur eləməkdən gedir. Bunu isə Rusiya, yaxud ABŞ (Qərb) reallaşdıra bilər. Əks halda, 2015-ci ildə müharibə riski pik həddə çatacaq və status-kvonu Azərbaycan özü dəyişməli olacaq.



## Sarkisyanın varisi Seyran Ohanyan olacaq?

**Ermənistanın müdafiə naziri Seyran Ohanyan təxminən bir ay əvvəl Serj Sarkisyan və Robert Köçəryanın baş tutan görüşündə əsas müzakirə mövzusu olub. Bunu Ermənistanın "Haykakan Jamanak" qəzeti yazıb (anspress).**

Yazıda deyilir ki, Sarkisyan Köçəryana 2018-ci ildə Ermənistan prezidentliyinə əsas namizədin Seyran Ohanyan olacağını söyləyib. Sarkisyan Ohanyanın prezident seçilməsinin onun üçün də sərfəli olduğunu çatdırıb.

Ermənistanda hakimiyyətdə olan "Qarabağ klanı" liderlərinin görüşündə əslən şuşalı bir nəfərin namizəd kimi təsdiqlənməsinin heç də təsadüfi olmadığı bildirilir. Belə ki, bu klan hakimiyyəti "öz adamı"na ötürməklə Qarabağ problemini bir az da uzatmağı planlaşdırır. Ordu və güc strukturlara nəzarət edən və Qarabağda dinc sakinlərin qırğınlarının əsas təşkilatçısı və icraçılarından olan Seyran Ohanyanı hakimiyyətə gətirməklə Sarkisyan özü üçün də təhlükəsiz şərait qurmağa çalışır. Ancaq yerli ermənilərin "Qarabağ klanı"na nifrəti fonunda Sarkisyanın varis planının iflas olacağını düşünmək olar.

YENİ MÜSAVAT
N 314 (6023) 25 dekabr 2014

# "Putin çox böyük bəlalarla üz-üzədir"

## Eldar Abbasov: "Krım Rusiya dövlətinin təməlinə qoyulan saatlı bombadır"

**Uğursuz Ukrayna siyasətinə görə Qərbin sanksiyaları ilə üzləşən Rusiyada iqtisadi durum sürətlə ağırlaşır. Rusiya rublunun 100 faiz dəyərdən düşməsi ölkə iqtisadiyyatı üçün nə zaman çözüləcəyi bəlli olmayan çoxsaylı problemlər yaradıb. Putin iqtidarının rublin məzənnəsini saxlamaq üçün gördüyü heç bir tədbir nəticə vermir.**

*Çıxış yolu həm iqtisadçılara, həm də siyasətçilərə görə "çox sadədir": Rusiya iqtisadi böhranı durdurmaq üçün Ukrayna siyasətində köklü dəyişiklik etmək məcburiyyətindədir. Mövcud durumla bağlı Türkiyənin "Koç Holding" şirkətlər qrupuna aid Rusiyadakı "BEKO" MMC şirkətinin hüquq məsələləri və rəsmi qurumlarla iş departametinin rəhbəri Eldar Abbasov "Yeni Müsavat"ın suallarını cavablandırıb.*

***- Rusiya iqtisadiyyatı, sizcə, niyə belə tez çökməyə başladı? Hakimiyyət ölkənin imkanları ilə bağlı çox şişirdilmiş təsəvvürə malik idimi?***

- Əslində Rusiya çox həssas bir iqtisadiyyata sahibdir. İqtisadiyyatın həssaslığının səbəbi onun enerji qaynaqlarına - neft və təbii qaza bağlı olmasındadır. Belə bir hal Rusiyanı dünya bazarındakı neft və təbii qaz qiymətlərinin əsirinə çevirir. Bu çox riskli bir haldır. Dünyada iqtisadiyyatı neft və təbii qaza bağlı ölkələrin sayı az deyil - Səudiyyə Ərəbistanı *(illik neft hasilatı 542 mln. ton)*, İran *(illik neft hasilatı 178 mln. ton)*, Birləşmiş Ərəb Əmirlikləri *(illik neft hasilatı 160 mln. ton)*, İraq *(illik neft hasilatı 150 mln. ton)*, Küveyt *(illik neft hasilatı 140 mln. ton)*, Nigeriya *(illik neft hasilatı 130 mln. ton)*, Venesuela *(illik neft hasilatı 125 mln. ton)*, Azərbaycan *(illik neft hasilatı 47 mln. ton)*... İyul ayından ehtibarən dünya bazarlarında neft qiymətlərində durmadan düşüşlər yaşanır. Son 4-5 ayda neft qiymətləri hər barel üçün 120 dollardan 60 dollara enib. Bu hal, təbii, iqtisadiyyatı neftə və təbii qaza bağlı ölkələrin valyuta gəlirlərinin düşməsinə səbəb olur və həyatın hər istiqamətinə təsir edir. Amma Rusiyadan başqa iqtisadiyyatı neft və təbii qazla nəfəs alan ölkələrin heç biri Rusiyada yaşanan fəlakətin və sarsıntıların yüzdə birini görmədi. Demək, Rusiyanın milli pul vahidi rublun ABŞ dolları qarşısında diz çöküb imdad diləməsi heç də dünya bazarlarında neft və təbii qaz qiymətlərinin aşağı düşməsilə bağlı deyil. Daha doğrusu, bu, yan səbəblərdən biridir, ana səbəb deyil. Rusiyada yaşanan iqtisadi böhran ölkənin uğursuz Ukrayna siyasəti nəticəsində ortaya cıxan siyasi böhranın uzantısıdır. Rusiyanı məngənə arasında sıxan ABŞ, Kanada, Avropa Birliyi, Yaponiya və Avstarliyanın ona qarşı tətbiq etdiyi sanksiyalardır. Bu sanksiyalar içərisində ən ağırı və ən təsirlisi - Rusiyanın böyük bank və maliyyə quruluşlarının dünya maliyə qaynaqlarından faydalanmak - ucuz kredit almaq imkanlarından məhrum edilməsidir. Belə bir vəziyyətdə Rusiya Anadolu türklərinin təbirincə "kendi yağında kavrulmak" məcburiyyətindədir. Böyük banklar və "Rosneft" kimi nəhəng şirkətlər 2014-cü ili sonuna qədər Qərbdən almış olduqları kreditlərin geri ödənməsi və ya təkrar maliyyələşdirilməsini təmin etməlidirlər. Putin Rusiyanın qarşılaşdığı bütün bəlaların ABŞ və Qərbdən qaynaqlandığını vurğuladı, bununla da cəmiyyətin diqqətini özünün uğursuz Ukrayna siyasətindən, ölkənin zəif və problemli iqtisadiyyatından uzaqlaşdırmağa çalışdı. Ancaq bu, uğursuz cəhd idi. Vətəndaşlar artıq prezidentlə bağlı düşüncələrini dəyişdirməyə, güncəlləşdirməyə başlayıblar.

Valyutaya olan yüksək tələbat birjada bir panika yaradaraq rublun ABŞ dolları qarşısında sürətli dəyər itirməsinə yol açır. Ekspertlərin fikrincə, 15 dekabr "Siyah Bazarertəsi"nin səbəbi məhz "Rosneft" şirkətinə istiqrazları qarşılığında Rusiya Mərkəzi Bankının kredit olarak verdiyi 623 milyard rublun valyuta birjasına girməsi olub. Sanksiyalar davam etdiyi müddətdə neft və təbii qaz qiymətlərinin dünya bazarlarında yüksəlməsi belə Rusiya iqtisadiyyatını yaşamaqda olduğu bu böhrandan xilas edə bilməyəcək.

***- Ukraynaya qarşı hərbi müdaxilə başlanandan Putinin reytinqi ilə bağlı müxtəlif versiyalar səslənir. Sizcə, Putin toplumdakı etibarını çoxmu itirib? Yoxsa ruslar hələ də liderlərinə Ukrayna ruslarına dəstək verdiyi üçün haqq qazandırır?***

- Mart ayında ABŞ və Qərbin bütün müdaxilələrinə, eyni zamanda məkik diplomatiyasına baxmayaraq Krımın Rusiyaya ilhaqı, Rusiyanın patriotları və millətçiləri tərəfindən Vladimir Putinin möhtəşəm bir zəfəri kimi qiymətləndirildi, cəmiyyət həqiqətən bir eyforiya, çoşqu, heyranlıq içərisində idi. Amma son bir ayda milli pul vahidi rublun 100% devalvasiyaya uğraması, vətəndaşların mal varlıqlarının dəyərini ciddi şəkildə itirmələri, mal və xidmət qiymətlərinin durmadan yüksəlməsinə görə insanların həyat standartlarının ağırlaşması cəmiyyətdə müəyyən bir narazılığa səbəb olub. Bütün bunlara baxmayaraq, yaxın zamanlara qədər vətəndaşların Vladimir Putinə inamı çox yüksək idi. Məncə, bu inamın qırılma nöqtəsi 18 dekabrda V.Putinin keçirdiyi mətbuat konfransı oldu. Bu, Ukrayna ilə gərginllik başlanandan bəri keçirilmiş 10 mətbuat konfransının ən zəifi və ən rəngsizi oldu.

***- Ara-sıra Rusiya ziyalılarından hakimiyyətə "durmaq lazımdır" çağırışları eşidilir. Aydınların, cəmiyyətin düşünən kəsiminin Kremlə təsir imkanları hələ qalıbmı?***

- Ukrayna olayları başladıqda müxalif qüvvələr, müxalif aydınlar Vladimir Putinin Krım və Donbasla bağlı mövqeyinə sərt reaksiya verdilər. Lakin prezident onları "beşinci kolon" adlandıraraq aqressiv patriotların, millətçilərin hədəfinə çevirə bildi. Populyar müğənni və bəstəkar Andrey Makareviç, ünlü jurnalist Ksenya Sobçak və digər müxalif düşüncəyə sahib vətəndaşlara qarşı təşkil olunmuş kampaniyalar buna parlaq misaldır. Vladimir Putinə "durmaq lazımdır" çağırısıyla müraciət etmək istəyən aydınlar təbii, var. Amma onlar "beşinci kolon" olaraq qiymətləndiriləcəklərindən çəkinərək ön plana çıxmaq istəmirlər. Üzülərək onu da deyim ki, onların təsir gücü çox zəifdir.



**"Sanksiyalar içərisində ən ağırı və ən təsirlisi - Rusiyanın böyük bank və maliyyə quruluşlarının dünya maliyyə qaynaqlarından faydalanmaq - ucuz kredit almaq imkanlarından məhrum edilməsidir"**

***- Biznes dünyası yaşananlardan təbii ki, daha çox etkilənib. İş adamları kapitallarını qorumaq üçün nəsə edə bilirlərmi?***

- İş adamları, iş dünyası gerçəkdən də çox böyük sarsıntı, çox ciddi sıxıntılar yaşayır. Xüsusən xarici dünyaya bağlı sektorlar, avro və ABŞ dolları ilə mal idxal edən şirkətlərin itkiləri çox böyükdür. Amma bütün hallarda Rusiya böyük bir bazara sahib ölkədir. Ruslarınsa istehsalçı olmaqdan daha çox istehlakçı olduqlarını nəzərə alsaq, bu şok dönəmi atlatdıqdan sonra hər halda, bu insanların yeni şərtlərə alışıb alış-verişlərinə davam edəcəklərinə inanıram. Bu səbəbdən bütün çətinliklərə baxmayaraq bazardan çəkilmək yanlış qərar olar. Çünki bazarın vəziyyəti normala döndüyündə təkrar bazara girmək daha böyük yatırımlar tələb edir.

***- Daşınmaz əmlak, ərzaq bazarında durum necədir?***

- Devalvasiya şəraitində mal və xidmətlərin dəyəri devalvasiya nisbətində arta bilməz. Rublun 100% səviyyəsində bir devalvasiyaya uğramasına baxmayaraq nə qida məhsullarının, nə tekstilin, nə elektron və məişət texnikasının, nə də daşınmaz əmlakın qiymətlərində 100% artım olmadı. Bu gün qiymət artımı 10-50% arasında dəyişir. Əslində bank hesablarındakı vəsaiti ABŞ dolları və avro olaraq saxlayan vətəndaşlar üçün daşınmaz əmak almaq zamanıdır. Bu səbəbdən mənzil satışları, elektron və məişət texnikası, kompüter və smartfon satışlarında tam bir partlama yaşanmaqdadır. Moskvada bu malların satıldığı M-Video, Eldorado ve Media Market kimi iri ticarət şəbəkələrinə girmək mümkün deyil. Mağazalardakı insan qələbəliyi, kassalardakı növbələr "inkişaf etmiş" sosializm dönəmində mağazalarda "Doktorskaya kolbasa" almaq üçün gördüyümüz insan dənizini xatırladır. İnsanlar ehtiyacları olub-olmamasından asılı olmayaraq əllərinə keçən hər cür malları alaraq ölməkdə olan, daha doğrusu, ölmüş rubllarından qurtulmağa çalışırlar.

***- Eldar bəy, sizcə, belə davam etsə, Azərbaycandan və digər postsovet ölkələrindən olan əməkçi miqrantların vətənlərinə dönüşü kütləvi hal ala bilərmi?***

- Tacikistan, Özbəkistan, Moldova və Azərbaycan əməkçi miqrantlar, Vətənlərində onlardan pul gözləyən ailələri üçün çox ağır və acınacaqlı bir dönəm başladığını vurğulamaq istəyirəm. Bu insanlar gecə-gündüz işləyib rublla olan maaşlarını aldıqdan sonra onu ABŞ dollarına çevirib ailələrinə göndərirdilər. Rublun 100% devalvasiyaya uğrayıb ABŞ dollarına təslim olmasından sonra bu insanların gəlirləri yarıbayarı azalıb. Bu, əməkçi miqrantlar və onların ailələri üçün tam bir fəlakətdir. Amma adını çəkdiyim ölkələrdə iş imkanları çox məhdud olduğu və yaxud heç olmadığı üçün onların geri dönmək istədiklərini düşünmürəm.

***- İqtisadçılar bildirir ki, böhrandan çıxış yolu siyasi qərarlardan asılıdır. Sizcə, Putin Qərbə yönəlik siyasətində yumşalmalara gedə bilərmi?***

- Rusiyanın yaşadığı bu iqtisadi böhran heç şübhəsiz siyasi böhranın ortaya qoyduğu bir haldır. Bu böhranın həlli ilk növbədə Ukraynanın Donbas bölgəsində Rusiyanın dəstəklədiyi separatçıların Minsk Anlaşmasına riayət etməsinə bağlıdır. 2 noyabr tarixində oyuncaq Donetsk və Luqansk xalq respublikaları Ukrayna seçki qanuna zidd olaraq Rusiyanın dəstəyi ilə öz "seçki qanunlarına" görə Ukrayna mərkəzi hakimiyyəti və Qərbin tanımadığı seçkiləri keçirməklə Minsk Anlaşmasını kobud şəkildə pozub. Qərb buna cavab olaraq sanksiyaların genişləndiriləcəyini bildirib. İki gün əvvəl Avropa Birliyinin Krıma yönəlik elan etdiyi yeni sanksiyalar bunun parlaq nümunəsidir. Rusiya ən azından Donbasla bağlı mövqeyini gözdən keçirmək məcburiyyətindədir. Bu istiqamətdə sanki buzlar əriməyə başlayıb. Dekabrın 14-də Rusiya xarici işlər naziri Sergey Lavrov ABŞ dövlət katibi Con Kerri ilə görüşdükdən sonra - dekabrın 16-da Fransanın 24 TV kanalına verdiyi müsahibədə Rusiyanın Ukraynaya federallaşma təklif etmədiyini deyib. Rusiya XİN-in rəhbəri bildirib ki, buna Ukrayna özü qərar verməlidir. Buna qədər isə V.Putinin gündəmə gətirdiyi Ukraynanın federallaşma prinsipi S.Lavrovun Qərblə olan bütün diplomatik görüşmələrində ən önəmli silahlarından biri idi. V.Putin dekabrın 21-də Fransa prezidenti Fransua Ollandla zəng edərək Normandiya formatında - Olland, Merkel, Poroşenko, Putin - Ukrayna məsələsini müzakirə etməyə hazır olduğunu bildirib. V.Putin Ukrayna məsələsində daha öncədən hesaba almadığı və ya ağlından belə keçirmədiyi çox böyük bəlalarla üz-üzədir. Rusiyanın Qərb dünyasından "cüzamlı xəstə" kimi təcrid edilməsi, böyük, sivil və demokratik dövlətlərin yer aldığı G-8 topluluğundan uzaqlaşdırılması Rusiyanın tənhalığına yol açır. Putinin millətlərin öz müqəddəratlarını təyin etmə hüququna əsaslanaraq Krımı Rusiyaya ilhaq etməsi Rusiya Federasiyasının təməlinə yerləşdirilmiş bir saatlı bombadır. Bu bomba bir gün partlayacak.

***- Rusiyaya sanksiyaların tətbiqi Qərbin iqtisadi düzəninə də təsir edir. Enerji asılılığı faktoru da bir tərəfdən. Sizcə, Qərblə Rusiya hər hansı formada anlaşa bilərmi? Anlaşmanın predmeti nə ola bilər?***

- Təbii, anlaşa bilərlər. Qərbin Rusiya ilə anlaşması üçün Rusiyanın Donbasdan çıxması və savaşın durdurulması şərtdir. Bunun ardınca müzakirələr, danışıqlar başlaya və hər iki tərəfi razı salan nəticələr əldə edilə bilər.

❑ **Aygün MURADXANLI**

**Azərbaycan milli-azadlıq hərəkatında olanlar, Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti illərini xatırlayanlar Mehdi bəyi yaxşı tanıyır. Tanımayanlar isə gözlərinin önündə bitməz-tükənməz enerjisi ilə daim hərəkətdə olan, milli məsələ söhbət mövzusu oldumu, ən qaynar, ən təhlükəli yerlərdə olmağı özünə borc bilən, başından saysız qəzalar, bəlalar, macəralar keçən bir şəxsi gətirsin. O, kimlər üçünsə tələbə hərəkatının lideri, kimlər üçünsə Qarabağ könüllülərinin öncülü, kimlər üçünsə bələdiyyə polisinin rəisidir. Bugünündən nə özü, nə dostları məmnundur. Gözləri el üçün ağlayıb kor olan gözlərin yanındadır. Tükənməyən bircə ümidi, gümanı, millətin öz dəyərlərinə, torpağına, milli kimliyinə sahib çıxacağı düşüncəsidir. "İnsan öz dilinin altında yatır", deyiminə inanıb tanıdığımız Mehdi Mehdiyevi bir də öz dilindən eşidək.**





# "İşğalı bitirməyin tək yolu savaşdır"

## Mehdi Mehdiyev: "Əmir Xalidlə bir sinifdə oxuduq, biz ona"...

**Bələdiyyə polisinin keçmiş şefi: "Azərbaycanın öz yolu var və o yoldan artıq çıxmaq mümkün deyil"...**

*(əvvəli ötən saylarımızda)*

***- Sizin iştirakçısı olduğunuz hərəkat Azərbaycanı faktiki olaraq Rusiya imperiyasının cəngindən qurtardı. Üstündən 20 ildən vaxt keçib və bu gün tərsinə bir proses başlayıb - xarici siyasət kursunda Azərbaycan Rusiyaya meyllənir. Sizcə, bu nədən belədir?***

- Zaman içərisində elə reallıqlar olur ki, onları nəzərə almaq gərəkdir. Ataların bir sözü var - o su ki səni aparır, ona sel deməyi bacar. Azərbaycanın bir çox məsələlərdə siyasəti xarici amillərin təsiri ilə dəyişə bilir. Belə durumlarda iqtidar manevrlərlə basqıdan, itkidən qurtulmağa çalışır. Bütün hallarda mənə elə gəlir, Azərbaycanın öz yolu var və o yoldan artıq çıxmaq mümkün deyil. Bu bizim dövlət müstəqilliyi yolumuzdur. Fikrimcə, hələlik Azərbaycanda da, bütünlükdə Güney Qafqazda da Rusiyanın bütün cəhdlərinə baxmayaraq ABŞ küləkləri əsəcək. Bir ölkənin özü üçün gələcək modeli seçməsini bilmək üçün onun öz valyutasını hansı pul vahidinə bağlamasına baxmaq gərəkdir. Manat dollara bağlıdır və uzun illər bu belə də olacaq. Rusiyanın imperiya təfəkkürü, istəkləri, Avrasiya İttifaqı yaratmaq iddiaları var, olub, olacaq. Ancaq bu istəklərin tam yerinə yetirilməsi mümkün deyil. İqtidarın hansı kursu dəstəkləməsindən asılı olmayaraq Azərbaycan cəmiyyəti artıq Kreml tabeçiliyini qəbul etməz. Hər hansı təslimçilik sənədinin imzalanması, ya da Moskvaya tabeçiliyə aparan hər hansı addım atılması gündəmə gəlsə cəmiyyət səfərbər olar. Cəmiyyət səfərbər olsa, hakimiyyət də bu durumu nəzərə almaq məcburiyyəti hiss edər. Mən buna inanıram.

***- Qarabağın Azərbaycana qaytarılması bahasına da Rusiya ilə yaxınlaşmanı qəbul etmirsiz? Bu aralar Xəzərdə nəzarətin Rusiyaya verilməsi hesabına Qarabağın bir neçə rayonunun işğaldan azad edilməsi məsələsi də gündəmə gəlmişdi.***

**"Rövşən Azərbaycana nüfuzlu vəhhabi lider kimi qayıtmışdı. 9 il iş aldı, günə-gün "yatdı". Həbsdən çıxmağına 2 gün qalmış mənə zəng eləmişdi"**

- Bu böyük yanlışlıq olar. Qarabağ Azərbaycan torpağıdır, Azərbaycan o torpağı yeni böyük itki bahasına yox, itkilərsiz geri qaytarmalıdır. Azərbaycan torpaqlarını sülh yolu ilə azad edəcəyi ilə bağlı beynəlxalq sənədləri imzalayıb. Ancaq hər nə qədər sülh danışıqları getsə də işğalı bitirməyin tək yolu savaşdır. Azərbaycan az itki ilə illərdir davam edən işğala son qoymalıdır. Rusiya ilə yaxınlaşma məsələsinə gəlincə, tarixən kiçik padşahlar böyük padşahlara xərac verib. Balaca padşahların əsas məqsədi də hakimiyyətlərini qorumaq olub. Bu gün də belədir. Bundan sonra bizim dövlət atributlarımız dəyişəsi deyil. Dünya daha o deyil. Mən Müdafiə Nazirliyi sistemindəki son təyinatlar məsələsinə də toxunmaq istəyirəm. Zakir Həsənovun təyinatını müsbət qiymətləndirirəm. Nazirlikdə daha bir neçə uğurlu təyinatlar olduğunu bilirəm. Kadr yerində olanda ortada ciddi işlər olur. Əminəm ki, bu şəxslər Azərbaycan üçün bacardıqlarını edəcəklər.



***- Mehdi bəy, siz deyirsiz ki, cəmiyyət həlledici məqamlarda toparlanacaq. Ancaq bu gün cəmiyyəti səfərbər etmək gücündə olan mərkəzlər - vətəndaş cəmiyyəti institutları ciddi basqı altındadır. Sizcə, QHT sektoruna qarşı bu aqressivliyin kökündə nə dayanır?***

- Zorla insanları özünə tabe etmək istəyən, onları mütiləşdirmək istəyən iqtidarlar heç zaman başarlı ola bilməyib. İnsanlıq hələlik demokratiyadan gözəl düzən yarada bilməyib. İstənilən ölkəni, cəmiyyəti inkişaf etdirmək üçün demokratik yol seçmək lazımdır. Vətəndaş cəmiyyəti sektorunu tamamilə sıradan çıxarmaq cəmiyyətə böyük zərbədir. Həbs olunan xeyli insanların haqsız yerə tutulduğunu düşünürəm. Onlar azad edilməlidirlər. Yeri gəlmişkən, siyasi məhbusların azad edilməsi məsələsində də vətəndaş cəmiyyəti institutlarının əməyi böyükdür. 2007-ci ildə mənim həbsdən azad edilməyimdə insan haqları müdafiəçiləri Novella Cəfəroğlunun, Səidə Qocamanlının, Çingiz Qənizadənin böyük əməyi olub. O zamandan fürsətim olmayıb, indi deyim, mənim məhkəmə prosesimi başdan-ayağa izləyən Qarabağ qazilərinə, Pənah Hüseynə, Arzu Səmədbəyliyə, azadlığım üçün kampaniya aparan "Yeni Müsavat" qəzeti, Rauf Arifoğlu başda olmaqla, bütün media əhlinə təşəkkür edirəm. Mənim Ukrayna ilə sıx əlaqələrim var. Ukrayna cəmiyyətinin sarsılmamasının, Rusiyaya qarşı güclü direniş göstərə bilməsinin əsas səbəbi ölkədə güclü vətəndaş cəmiyyəti institutlarının olmasıdır. Qərb hər nə qədər dəstək versəydi belə yeni iqtidarın cəmiyyəti bu qədər səfərbər saxlamağa bəlkə də gücü çatmazdı. Ukraynanın böyük bir hissəsinin monolitliyi Rusiyanın siyasətini darmadağın edir. Kremlin niyyətlərini topluma çatdıran, əsas təbliğat funksiyası daşıyan hakimiyyətlə bir yerdə vətəndaş cəmiyyəti institutlarıdır. Azərbaycan bu nümunədən dərs almalıdır. Bu gün dünyada yalnız torpaq davası getmir, məsələləri yalnız avtomatlar həll eləmir. Dava elmin, iqtisadiyyatın, texnologiyaların, yeni idarəetmə modellərinin, düşüncənin davasıdır. Bunu dərk edən iqtidarlar cəmiyyətin monolitliyini, xarici aqressora qarşı dirənişini təşkil edə bilir. Bu gerçəyi görməməzliyə vuranların ölkəsində isə cəmiyyət parçalanır, hərənin səsi bir tərəfdən gəlir. Azərbaycan vətəndaşının Suriyada nə işi var?



**"Ukrayna cəmiyyətinin sarsılmamasının, Rusiyaya qarşı güclü dirəniş göstərə bilməsinin əsas səbəbi ölkədə güclü vətəndaş cəmiyyəti institutlarının olmasıdır"**

***- Yeri gəlmişkən, bir neçə ay öncə Suriyada öldürülən Əmir Xalid - Rövşən Bədəlov sizin sinif yoldaşınız olub. Onun vəhhabi cameəyə necə qoşulduğunun tarixçəsini bilirsizmi?***

- Rövşənlə uşaqlıq dostu olmuşduq, bir yerdə oxumuşduq, onu Tərtərdən Bakıya mən gətirmişdim, 50 nəfərlik xüsusi rotaya komandir təyin edilməsi üçün təqdimat vermişdim. 50 nəfərlik xüsusi rotanı da özüm toplamışdım. Hamısı zabitlər idi. Rövşən çox bacarıqlı, istedadlı adam idi, Xarkov Ali Radiotexnika İnstitutunu bitirmişdi. Cəmiyyətdə alternativləri elə yox edirlər ki, insanlar özlərini harada reallaşdıra biləcəklərini dəqiqləşdirə bilmirlər. Rövşən (Xalid) çox bacarıqlı döyüşçü idi, AXC hakimiyyətdən gedəndən sonra da özünü hərbi sahədə təsdiq eləmək istəyirdi. Ancaq imkan vermədilər. Bir müddət hüquq-mühafizə orqanlarında işlədi, sonra xaric olundu. Bir də xəbər tutduq ki, Rövşən krişnaçıların "Bxavat Gita"sını oxuyur. Görüşdüm onunla, danışdım, insafən məni dinlədi, mübahisə eləmədi, ancaq gördüm ki, bu artıq o Rövşən deyil, bizdən yan durur. Az sonra da xəbər çıxdı ki, Çeçenistanda, daha sonra isə Pankisi dərəsindədir... Rövşən orada Azərbaycan icmasının lideri idi. Çeçen liderlərindən Basayevin yanına yoxlanmadan girə bilən 3-4 nəfərdən biri məhz Bədəl idi. Biz ona "Bədəl" deyirdik... Sonra Azərbaycan gəldi, 2003-cü il avqustun 12-nə həbs edildi.

***- Azərbaycan niyə dönmüşdü ki?***

- Artıq Rusiya Pankisi dərəsinə nəzarəti bərpa etmişdi. Azərbaycanlı döyüşçülər imkan düşdükcə ölkələrinə dönürdülər. Rusiya onların hamısını axtarırdı. Azərbaycan hökumətinin onlara yaxşılığı o oldu ki, bu şəxsləri Rusiyaya vermədi, həbslərini silah saxlama maddəsi ilə rəsmiləşdirdi. Rövşən Azərbaycana nüfuzlu vəhhabi lider kimi qayıtmışdı. 9 il iş aldı, günə-gün "yatdı". Həbsdən çıxmağına 2 gün qalmış mənə zəng eləmişdi. Dedi, çıxıram, mən də sevindim, qarşılanma təklif elədim, imtina elədi, dedi dostlarım qarşılayacaq. Qərarlaşdırdıq ki, yaxın günlərdə görüşək. Rövşənə suallarım vardı, ancaq görüşə bilmədik. O məni axtarmalı idi, axtarmadı. Mart ayında ümumi dostlardan Rövşənin Türkiyədə olduğunu eşitdim. Onda başa düşdüm ki, Türkiyəyə Suriyaya keçmək üçün gedib. Sonra da ölüm xəbərini aldıq. "Bədəl"ə uşaq vaxtından bu yol üçün təlim keçməmişdilər. Ali təhsilli, Azərbaycanı sevən bir gənc idi, Qarabağ savaşına könüllü gedən fədai idi, bir ara hüquq-mühafizə orqanlarında da işlədi. Niyə Azərbaycan bu insanların potensialından istifadə etmir ki, onların səsi Suriyadan gəlir? Bunlar hamısı bizim itkilərimizdir. Yerini doldurmaq da çətin olacaq. Sabah neft də, qaz da tükənə bilər, ən böyük kapital insan kapitalıdır. Onu artırmaq, qorumaq, inkişaf etdirmək lazımdır.

***- Mehdi bəy, indi hara gedirsiz?***

- Mən yalquzağam. Hökumətin qara siyahısında isə adım belədir - ekstremistlərin və Bozqurdların başçısı. Bunu kim yazıbsa, böyük səhv eləyib. Azərbaycanda Bozqurdların başçısı Elçibəy idi, indi də İsgəndər bəydir. Ekstremizm deyəndə nəyi nəzərdə tutublar, bu da mənə aydın deyil. Mənim anam 33 il kitabxana müdirəsi olub. Gözümü açandan kitabların əhatəsində olmuşam. İndi də kitab oxuyuram, ara-sıra dostlarla görüşürəm, amma sonra yenə təkəm. Yəqin elə belə də davam edəcək. Mən axtardığımı tapana qədər.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 314 (6023) 25 dekabr 2014



## Gəncədə 7 nəfər dəm qazından zəhərlənib

**Gəncə şəhərində bir neçə nəfər dəm qazından zəhərlənib. Şəhər Təcili Tibbi Yardım Xəstəxanasından APA-nın qərb bürosuna verilən məlumata görə, 38 saylı hərbi şəhərcikdə bir evdə yaşayan 1972-ci il təvəllüdlü Lalə Məmmədova, 1998-ci il təvəllüdlü İlahə Quliyeva, 1960-cı il təvəllüdlü Gülşən Məmmədova, 2006-cı il təvəllüdlü Ofelya Məmmədova və 2010-cu il təvəllüdlü Sirac Məmmədov xəstəxanaya gətirilib. Dəm qazından zəhərlənmə diaqnozu qoyulan bu şəxslər reanimasiya şöbəsinə yerləşdirilib. Tibbi yardım nəticəsində zəhərlənənlərin həyatını xilas etmək mümkün olub. Araşdırma zamanı məlum olub ki, xəstəxanaya yerləşdirilən şəxslər yaşadıqları evdə növbə ilə hamam otağında çimərkən zəhərləniblər.**

Vəli Xuluflu küçəsində yaşayan şəhər sakini, 1997-ci il təvəllüdlü Səkinə Hüseynova və Yaşar-Həsrət Əliyev qardaşları küçəsində yaşayan Qəbələ rayon sakini Toğrul Ələkbərli də dəm qazından zəhərlənərək xəstəxanaya yerləşdiriliblər. Məlum olub ki, onlar da yaşadıqları evin vanna otağında dəm qazından zəhərləniblər.

## Havanın temperaturu 14 dərəcəyə yüksələcək

**Dekabrın 25-də Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, səhər və axşam bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi səhər mülayimləşəcək. Günün ikinci yarısında arabir güclənən cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-6, gündüz 9-14 dərəcə isti olacaq.**

Azərbaycanın rayonlarında da sabah əsasən yağmurlu hava şəraiti müşahidə olunacaq. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 0-5, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacaq.

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



## Uşağı oğurlamaqda suçlanan qadından sensasion iddia

### "Uşağı anasından satın almışam"

**Bakı Ağır Cinayətlər Məhkəməsində Sumqayıtda azyaşlı uşağın oğurlanmasında təqsirləndirilən Xırda Babayevanın cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Oğurlanan azyaşlı uşağın anası Aysel Əhmədova musavat.com-a bildirib ki, təqsirləndirilən X.Babayeva məhkəmədə ifadə verərək, günahı olmadığını deyib: "Polislər tərəfindən saxlanılanda hər şeyi boynuna almışdı. Lakin məhkəmədə başqa ifadə verdi. Onun sözlərindən belə çıxır ki, uşağı ona mən satmışam, qarşılığında isə külli miqdarda pul almlşam. O, özünə vəkil tutaraq, çalışır ki, günahı boynundan atsın. Mənə qarşı bu gün səsləndirdiyi ittihama görə yeni iddia qaldıracam. O, etdiyi hər bir hərəkətə görə cavab verməlidir".**

A.Əhmədova onu da bildirdi ki, növbəti məhkəmə prosesi yanvarın 27-də keçiriləcək.

Qeyd edək ki, bu il avqustun 13-də Sumqayıt sakini Aysel Əhmədova azyaşlı uşaqları ilə birlikdə parkda olarkən Aylin adlı 2 aylıq körpəsi oğurlanmışdı. Sentyabrın 3-də bu cinayət işində şübhəli bilinən Bakı şəhər sakini Xırda Babayeva saxlanılmışdı.

Faktla bağlı Cinayət Məcəlləsinin 144.1-ci (adam oğurluğu) maddəsi ilə cinayət işi başlanıb.

## Azərbaycanda ov tüfənglərinin istehsalına başlandı

**Azərbaycan Müdafiə Sənayesi Nazirliyi (MSN) iki növ ov tüfənginin istehsalına başlayıb. Ov tüfənglərinin nümunələri dünən Azərbaycan Milli Elmlər Akademiyasında təşkil olunmuş sərgidə nümayiş etdirilib. Nazirliyin nümayəndəsi Ərəb Yusifov APA-ya bildirib ki, «Turac» adlı ov tüfənglərindən biri qoşalülə, digəri isə yarımavtomatdır. Hər iki tüfəng 12 kalibrli patronlardan atəş açır. Yarımavtomat tüfəngin çəkisi 3 kiloqram, qoşalülə tüfəngin çəkisi isə 3,5 kiloqramdır. Ov tüfənglərinin yaxın vaxtlarda satışa çıxarılması planlaşdırılır. MSN ov tüfəngləri ilə yanaşı, ov tüfəngləri üçün müxtəlif sursatlar, o cümlədən «Qartal» markalı patronlar istehsal edir.**




## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## Lerikdə dəhşət: kişi arvadını, qayınanasını və özünü öldürdü

**Lerik rayonunda tükürpədici qətl hadisəsi baş verib. Ər arvadını və qayınanasını qətlə yetirib, daha sonra intihar edib. APA TV-nin cənub bürosunun məlumatına görə, hadisə ötən gün axşam saatlarında Lerikdə qeydə alınıb. Rayonun Pirzəküçə kəndində 33 yaşlı Cəmaləddin Cəbrayıl oğlu Surətov qayınatası Bağır Əliyevin evinə gələrək, iki azyaşlı körpəsinin gözü qarşısında arvadı, 25 yaşlı Məhsəti Surətova və qayınanası, 54 yaşlı Leyla Əliyevanı odlu silahla qətlə yetirib. Daha sonra Cəmaləddin Surətov 4 aylıq və 4 yaşlı uşaqlarını götürərək Pirzəküçə kəndində olan atasının evinə qayıdıb. Övladlarını valideynlərinə təhvil verən Cəmaləddin daha sonra tüfəngdən özünə atəş açaraq, intihar edib.**

Məhsəti Surətovanın yaxınlarının sözlərinə görə, Cəmaləddin bir neçə gün öncə arvadını döyərək uşaqları ilə birgə onu qayınatasıgilə göndərib, özü isə işlədiyi Sumqayıt şəhərinə gedib. Ötən gün rayona qayıdan Cəmaləddin Surətov qayınatasıgilə gələrək ailəsini evə aparmaq istəyib. Bu zaman Məhsəti onunla getməyəcəyini bildirib və nəticədə mübahisə yaranıb.

Qeyd edək ki, Cəmaləddin Surətovun qardaşı da bir neçə il öncə özünü yataqxananın 5-ci mərtəbəsindən ataraq intihar edib.

Daxili İşlər Nazirliyi hadisə ilə bağlı məlumat yayıb. Məlumatda bildirilir ki, Sumqayıt sakini Lerikdə ailə-məişət münaqişəsi zəminində arvadını və qayınanasını qətlə yetirib, sonradan Pirzəkücə kəndində yaşayan atası Cəbrayılın evinə gedərək orada tüfəngdən açdığı atəşlə özünü öldürüb.

Hadisə yerindən "Çhurçhill" (Vinçester) markalı tüfəng götürülüb. Faktla əlaqədar cinayət işi başlanılıb.

## Broyler toyuğunda təhlükə

**"Broyler toyuqlarında istifadə edilən antibiotiklər insan sağlamlığına təhlükə yaradır. Yoxlamalar AB səviyyəsinə gətirilməlidir". ANS PRESS-in məlumatına görə, bunu Türkiyə ekologiya və istehlakçı hüquqlarını qoruma dərnəyinin rəhbəri Mustafa Göktaş deyib.**

O, insanları bilinməyən yerdən broyler toyuğu almamağa çağırıb. Göktaş qeyd edib ki, mütləq toyuğun markasına, istehsal və son istifadə tarixinə baxılmalıdır:

"Türkiyədə son 20 il ərzində artan toyuq istehsalı iqtisadi baxımdan sevindiricidir, ancaq istehsalda istifadə edilən antibiotiklərin insan sağlamlığına mənfi təsiri də bir gerçəkdir. Antibiotiklərdən yanlış istifadə həyatımızda mənfi fəsadlar yarada bilər. Broyler toyuqları artdıqca bazarda bu işdən daha çox pul qazanmaq ehtirası artır", - deyə dərnək rəhbəri bildirib.

Mustafa Göktaş bildirib ki, broyler toyuqlarına ciddi nəzarət edilməlidir. Onun sözlərinə görə, toyuğa vurulan insan həyatına təhlükəli maddələrin istifadəsi yoxlanılmalıdır.

## Bakıda polis 3 "polisi" həbs etdi

**Paytaxtda özlərini polis əməkdaşı kimi təqdim edən üç nəfər həbs edilib. Daxili İşlər Nazirliyindən (DİN) APA-ya verilən məlumata görə, Yasamal rayonu, Əhmədbəyov küçəsi-37 ünvanının qarşısında özlərini polis əməkdaşı kimi təqdim edən və şəxsiyyəti məlum olmayan üç nəfər Bakı şəhər sakini, Balacaxanım Qafarovaya hədə-qorxu gələrək ondan 80 manat pul alıblar.**

Hadisəni törədənlərin mülki şəxslər - Bakı şəhər sakinləri Ehsan Şükürov, Əlihüseyn İmanov və Abdulla Fətullayev olduğu məlum olub və onlar saxlanılıblar.

## Bakıda minik avtomobili elektrovozla toqquşub

**Bakıda minik avtomobili elektrovoza çırpılıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, dekabrın 23-də saat 13.30-da paytaxtın Nizami rayonunun Keşlə qəsəbəsində qorunan keçiddə, qəsəbə sakini Məhərrəm Şirinov idarə etdiyi "Mercedes" markalı avtomobili elektrovoza vurub.**

Xəsarət alan olmayıb, hərəkət dayanmayıb.

YENİ MÜSAVAT
N 314 (3023) 25 dekabr 2014



"Gördüm ki, Əli qardaşımı divara dirəyib. Elşada deyirdi ki, pulların hamısını ver"


"Oradakı özbaşınalıq durdurulmalıdır"


"Onun qollarında, ayaqlarının altında, boynunda, belində, üzündə xəsarətlər, işgəncə izləri vardı"

# 14 saylı "zon"u üsyana qaldıran ölü məhkumun dəhşətli sirri

## Elşad Babayevin bacısı prezidentdən kömək istəyir; cəzaçəkmə müəssisəsində məhbusu karserdə işgəncələrlə öldürüblər

**Dekabrın 22-də 14 saylı cəzaçəkmə müəssisəsində məhkumların qiyama qalxdıqları haqda məlumat vermişdik. Məhbusları ayağa qaldıran səbəb kimi 31 yaşlı məhkum Elşad Babayevin işgəncə ilə öldürülməsi göstərilirdi. Qeyd olunurdu ki, E.Babayevə qarşı müəssisədə məsul post tutan mayor rütbəli Firdovsi adlı şəxs, rejim rəisi, baş leytenant Faiq adlı şəxs bir neçə xidmətçi ilə birlikdə kobud rəftara yol veriblər.**

### "Sanki filmlərdə göstərilən siyasi məhbuslar üçün həbsxanada döyüb öldürüblər"

**Dünyasını dəyişən E.Babayevin bacısı Simuzər Babayeva "Yeni Müsavat"ın redaksiyasına gələrək, müxbirimizə dəhşətli şeylər danışıb. O deyib ki, qardaşının meyiti üzərində çoxsaylı işgəncə izləri olub:** "Dekabrın 22-də axşam 7-8 radələrində telefonuma zəng gəldi. Kimliyi haqda məlumat verməyən şəxs dedi ki, qardaşın Elşadın meyiti Lökbatanda morqdadır. Ondan onun ölümünün səbəbini soruşdum. Dedi ki, heç bir məlumat verə bilmərik. Dediyi ünvana getdim. Meyitxanada qardaşımın meyitinə baxdım. Onun qollarında, ayaqlarının altında, boynunda, belində, üzündə xəsarətlər, işgəncə izləri vardı. Ayaqlarının altı şişmişdi. Morqdan bir sənəd verdilər. Orada qardaşımın ölümünün səbəbi göstərilməmişdi. Bu gün də bunu bizə deməyiblər. Mən morqda qardaşımın meyitinin şəkillərini çəkmişəm. Onu sanki filmlərdə göstərilən siyasi məhbuslar üçün həbsxanada döyüb öldürüblər".

### Müstəntiq dedi ki...

**S.Babayeva bildirib ki, dekabrın 22-də 14 saylı cəzaçəkmə müəssisəsinə gedərək qardaşının ölümünün səbəbini öyrənməyə çalışıb:** "Gecə 12-də müəssisədə oldum. Orada iclas idi. Dedilər ki, generallar gəlib. Mən müəssisəsinin içinə girib generallardan birindən qardaşımın ölümünün səbəbini soruşdum. Çox etinasız şəkildə, gülərək dedi ki, bu haqda məlumatı yoxdur. Mən etiraz etdim. Sonradan dedilər ki, müstəntiq buradadır. Oradan sənədləri aparırdılar. Müəssisəsinin həyətində çoxlu maşınlar vardı. Müstəntiqdən soruşdum ki, qardaşımı məhbuslar öldürüb, yoxsa müəssisə məmurları? İntihar edib etmədiyini də xəbər aldım. Müstəntiq dedi ki, qardaşın idmançı adam olub, intihar nədir? Məhbusların onda nə işi var? Müstəntiq dedi ki, qardaşın məhbus əlində öləcək adam deyil, onu işçilər döyüb".

**S.Babayeva bildirdi ki, qardaşı çox sağlam olub:** "O, boksçu idi. Sonradan Türkiyədə dalğıc kurslarına da getmişdi. Dalğıc kimi dərs də deyirdi. Qardaşımı 2014-cü il iyunun 10-da Suraxanı Rayon Polis İdarəsinin əməkdaşları saxlamışdı. Onun üzərində narkotik tapılmışdı. Bu il sentyabrın 3-də Suraxanı məhkəməsi ona 1 il 6 ay cəza təyin edib. Sentyabrın 27-də onu 14 saylı cəzaçəkmə müəssisəsinə göndərdilər. Orada qardaşımı karantində saxlayıblar. Onun tam sağlam olması haqda həkimlər rəy verib. Qardaşımın ölümünün araşdırılmasını tələb edirəm".

### "Gördüm ki, Əli qardaşımı divara dirəyib"

**S.Babayeva deyib ki, qardaşı ilə sonuncu dəfə dekabrın 10-da görüşüblər:** "Görüşə anamla birgə getmişdik. Elşad bikef idi. Amma səbəbini demədi. Ora gedəndə bizdən pul istəyirdilər. Müəssisənin içinə girəndə orada kameralardan sonra bir otaq var. Həmin otaqda pul yığırlar. Hər kəsi ora ötürüb pul alırlar. Həmin görüş zamanı Əli adlı müəssisə işçisi gəldi. Özünü təqdim edib dedi ki, rəisdir. Bizə mürasiətlə dedi ki, məni də görün. Elşad görüşdən gedəndə sovqatları götürdü. Bizi də həmin otağa ötürdülər. Mən qapının arasından baxdım, gördüm ki, Əli qardaşımı divara dirəyib. Elşada deyirdi ki, pulların hamısını ver. Verdiyin pullar azdır. Elşad əlində nə pul vardısa Əliyə verdi. Amma o yenə də dedi ki, Elşad, özün bilirsən bu pul azdır. Elşad sovqatları götürüb getmək istəyəndə qoymadı. Mən həmin vaxt qapını döyüb qardaşıma qarşı qanunsuzluqlara son qoyulmasını tələb etdim. Əli orada qardaşıma zülm edirdi. Mən səs-küyə gələn müəssisə işçilərinə də bunu dedim. Əlini bu gün mənə göstərsələr tanıyaram. O, orta boylu, ağ bənizli, az saçı olan bir şəxsdir. O, geyiminə görə digər işçilərdən fərqlənirdi".


"Məhkumu döyərək, dəhşətli işgəncə verərək, alçaldaraq, öldürərək tənbeh etməməlidirlər"


"Müstəntiq dedi ki, qardaşın məhbus əlində öləcək adam deyil, onu işçilər döyüb"

### "Orada hər şey pulladır"

**S.Babayeva deyib ki, qardaşı hər həftənin 2-ci günü evə, telefonlarına zəng vuraraq onlarla danışıb:** "Dekabrın 10-dan sonrakı günlərdə Elşad zəng etmədi. Biz bunun səbəbini bilmədik. Ona hər görüşdə pul verirdik. Deyirdi ki, hamama, saçımı vurdurmağa, telefon danışıqlarına pul ödəyirəm. O, müəssisədəki marketdə hər şeyin 3 qat baha olduğunu deyirdi. 40 qəpiklik suyu orada 1 manat 50 qəpiyə satırdılar. Elşad deyirdi ki, müəssisənin yeməyi həddən artıq keyfiyyətsizdir. Bu səbəbdən də orada yemək yemirdi. Biz getməyəndə ac qalırdı. Biz varlı adamlar deyilik. Ona elementar ehtiyaclarını qarşılamaq üçün imkanımız daxilində pul verirdik. Orada hər şey pulladır".

### "İnsan insan kimi ölər, başa düşürsüz, vəhşicəsinə öldürülməz..."

**S.Babayeva məsələnin ən ciddi şəkildə araşdırılmasını tələb edir:** "Mən qardaşımın meyitini görmüşəm. Onun meyitini görən istənilən insanın ürəyi parçalanar. Qardaşıma bu cür ölümü yaşadanlar, vəhşicəsinə yaşadanlar... İnsan insan kimi ölər, başa düşürsüz, vəhşicəsinə öldürülməz. Qardaşım istifadəçi kimi gedib cəzasını çəkirdi. O, etdiyi əmələ görə cəzasını çəkirdi. Deyirdi ki, bir də bu işlə məşğul olmayacağam. Öz sağlamlığıma zərər yetirmişəm, heç kimə zərər vurmamışam. Bunu ekspertiza da təsdiqlədi ki, o aludəçi olmayıb. O, cəza çəkdiyi müddətdə qanunlara tabe olub. Mən Əli adlı rəisin qardaşıma qarşı haqsızlıq etdiyini görmüşəm. Öldürülməsini o etməyibsə, bir başqası edib. Axı orada bir insanı öldürüblər. Heç kimsə o cür ölümü haqq etmir. Silahla öldürsəydilər, canım bu qədər yanmazdı. Silahla öldürülmə ani ölümdür. Amma qardaşımın ölümü işgəncəli ölümdür. Onun üzündəki işgəncəni mən morqda gördüm. Onun üzündə işgəncə izləri vardı. Qardaşımı bu vəziyyətə salanlar necə yaşayacaqlar? Haqsızlığa göz yummaq özü də bir vicdansızlıq, qardaşıma qarşı törədilən cinayətə şərik olmaqdır. Mən susmayacağam".

### "Məhkumu döyərək, dəhşətli işgəncə verərək, alçaldaraq, öldürərək tənbeh etməməlidirlər"

**S.Babayeva cəzaçəkmə müəssisəsində ölkə qanunlarının kənara qoyulmasını vurğulayıb:** "Məhbusxanada dövlətin qoyduğu qanunları kənara qoyub məhbusları özünün qoyduğu qanunlarla cəzalandıran, məhbusu döyərək, alçaldaraq cəzalandıran şəxsi dövlət cəzalandırsın. Bu adamların haqqı yoxdur ki, dövlətin qanununa qarşı getsin. Əgər məhbus məhbusxanada hansısa bir hadisə törədirsə, hansısa bir əmrə tabe olmursa buna görə də qanunlar var. Akt tərtib olunmalı, məhkəmə qurulmalıdır və cəzasını almalıdır. Amma məhkumu döyərək, dəhşətli işgəncə verərək, alçaldaraq, öldürərək tənbeh etməməlidirlər. Mənim etirazım öz vəzifəsindən sui-istifadə edən müəssisə məmurlarınadır. Onlara dövlət vəzifə əmanət edib. Onlara kiminsə canına qəsd etmək səlahiyyəti verilməyib. Mənim qardaşım da həmin vəzifə etibar olunan məmurlar kimi bir ananın övladıdır.

### "Harada görünüb ki, bir insanın cəzası döyülərək öldürülməklə verilsin?"

"Qardaşım ora sağ-salamat getmişdi. O terror etməyib ki? Onun əlində silahı yoxdur ki? Əli qandallı məhbus nə edə bilərdi? Harada görünüb ki, bir insanın cəzası döyülərək öldürülməklə verilsin? Ümumiyyətlə orada məhbuslarla yaxşı davranmırlar. Çünki kimsə yaxşı şəraitdə saxlanarsa, etiraz etməz. Əlbəttə, məhbus bilir ki, ora kefə getməyib, cəza çəkəcək. Amma cəzanın da qədəri var. Oradakı özbaşınalıq durdurulmalıdır. O qanunsuzluqlar olmamalıdır", - deyə E.Babayevin bacısı bildirib.

### "Qardaşımın ölümü araşdırılsın, bu cinayəti edənlər cəzasını alsınlar"

**S.Babayeva prezident İlham Əliyevə müraciət edərək qardaşının ölümünün nəzarətə götürülməsini istəyib:** "Mən seçdiyim, səs verdiyim dövlət başçısına müraciət edirəm. Bu adamlara prezident vəzifə etibar edib. Əgər qardaşımın qanunsuz əməli vardısa, bunu qeydiyyata alardılar və məhkəməsi olardı. Onu niyə öldürdülər? Etirazım dövlət məmurlarınadır. Niyə mənim qardaşımın meyiti oradan çıxmalı idi? Heç kimə əli qandallı məhbusu öldürmək səlahiyyəti verilməyib. Qandal qardaşımın əllərini kəsib. Döymək icazəsi kimə verilib? Mən sizdən xahiş edirəm, qardaşımın ölümü araşdırılsın, bu cinayəti edənlər cəzasını alsınlar".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
Son səhifə
N 314 (6013) 25 dekabr 2014



# Dünyanın ən çirkin şanslı qadını...

Dünyanın ən çirkin qadınının kimliyi bəllidir. Ailem.az xəbər verir ki, bu, Elizabet Ann "Lizzie" Velaskezdir. 13 mart 1989-cu ildə ABŞ-ın Teksas ştatında anadan olan amerikan əsilli qadın sıfır bədən olmaqla yanaşı, eyni zamanda dünyanın ən çirkin qadını olaraq bilinir.

Onun bu nadir rastlanan vəziyyəti "Lizzi"yə yazıçı və motivasiya natiqi olmaq şansını qazandırıb. Dünyaya gələndə 1 kilo 219 qram olan "Lizzie" indi də 29 kq-dan çox kökələ bilmir. Heç bir anoreksiya, nevroz problemi olmasa da, kökələ bilməyən "Lizze"nin sağ gözü 4 yaşından tutulub. Bütün bu yaşadıqlarına baxmayaraq, sahib olduğu bu sindromu həyatının ən böyük neməti adlandıran "Lizzie" özünü şanslı qadın hesab edir. Həkimlər ondakı bu halın "neonatal progeroid" sindromunun bir növü olduğunu deyirlər. Bu sindrom zamanla dişlərin, sümüklərin, orqanların boşalmasına və fiziki yaşlılığın erkən yaşanmasına səbəb olur. İti burnu, qocalmış dərisi olan "Lizzie"nin ilk yazısı 2010-cu ildə ingilis və ispan dillərində çıxıb. İkinci "Be beautiful" kitabı, "Be You" yazıları (2012) görünüşün önəmli olmadığını və bir insanı məhz kimliyinə görə sevməyin mümkün olduğunu ifadə edir.

# Ən kök adamlar amerikalılardır

ABŞ-da tütündən sonra ölümə səbəb olan ikinci amil piylənmədir. Hazırda amerikalıların 4 milyonu köklükdən, 6 milyonu isə piylənmədən əziyyət çəkir. Onlar orta hesabla normadan 100 fut (45 kq) artıq çəkiyə malikdirlər. Hesablamalara görə, heç bir millət tarix boyu bu sürətlə kökəlməyib. Bunun əsl səbəbi kimi dünyada geniş yayılmış fast-food şəbəkəsindən Birləşmiş Ştatlar sakinlərinin daha çox istifadə etmələridir. Fast-food deyildikdə isə ağla ilk gələn məşhur "McDonalds"dır. Amerikanlar uzun müddətdir bu qida növü ilə mübarizə aparsalar da, ondan əl çəkə bilmirlər. Alimlər hesab edir ki, dünyaya hökm edən amerikanlara da fast-food hökm edir.



# Facebooka meydan oxuyan qadın öldü

Dünyanın ən yaşlı insanlarından Anna Stoehr (114) ötən gün oğlunun qolları arasında həyatını itirib. Anna facebooka meydan oxumasıyla tanınırdı. Yaşlı qadının sosial şəbəkədə özünə hesab açma hekayəsi də ilgincdir. Belə ki, facebookda özünə hesab açmaq istəyən Anna Stoehr doğum ili qrafasında 1900 rəqəmini tapa bilməyib. Seçilə biləcək tarixlər arasındakı ən erkəni 1905-ci il olduğu üçün Anna yaşını "99" olarak qeyd etdirmək zorunda qalıb. Bunun ardınca da facebookdan hesabat istəyib və aşağıdakı statusu yazıb: "Mən hələ ölmədim, niyə yaşımı doğru yazmağıma icazə vermirsiz?"

Facebook isə Annaya 114 çiçəkdən ibarət özəl bir buket göndərərək üzr istəyib və yaşını düzgün yazmasına izn verəcək bir sistem yaradıb. Amma bu, Annanın son doğum günü idi. Minesotalı qadın dünyanın ən yaşlı 12-ci insanı idi və bir gün öncə dünyasını dəyişdi. Oğlu bildirib ki, "onunla bağlı əsas ilginc olan şey yaşı deyil, bu yaşda hələ də facebooka, ağıllı telefonlara maraq göstərməsi idi".





# Ölünü yandırmaq istədilər, dirildi

Hindistanın Bxilvar şəhər sakininin başına gələn iş dünyanı gülüşə boğub. Öldüyü təxmin edilən, kremasiya məqsədilə yandırılmağa hazırlaşılan kişi son anda dirilib. 72 yaşlı Dipak Sinqx öz evinin həyətində inəkləri otaranda özünü itirib. Hadisə yerinə gələn həkimlər onun ölümünü təsdiqləyiblər. Sinqx gözünü açanda isə artıq kremasiya mərasimi başlamışdı və onun qohumları ənənəvi mahnı oxuma əməliyyatına başlamışdılar. Nəvəsi Banda Nalvanın sözlərinə görə, mahnının səsi yüksəlincə Sinqx qımıldanmağa başlayıb, sonra gözlərini açıb və oturub. Bundan sonra qohumları ona yerə düşməyə kömək ediblər. "Ümid edirəm ki, qohumlarım mənim növbəti dəfə, amma həqiqi ölümümü gözləyə biləcəklər. Ancaq ondan sonra məni yandırmaq haqda düşünərlər" - deyə, Dipak Sinqx bildirib. Ocaqda bədənlərin yandırılması ənənəsi industlar üçün çoxdan bəri ənənəyə çevrilib. Bu, xüsusən Qanq və Varanasi sahillərində gerçəkləşdirilir.




QOÇ - Ümumi məziyyətlərinə görə, səmərəli gün hesab etmək olar. Ötən günlərin yorğunluğunu nəzərə alıb yaxşıca dincəlin. Çalışın ki, əsas vaxtınızı doğmalarınızla birlikdə keçirəsiniz.

BUĞA - Ulduzlar səmərəli bir gün yaşayacağınızı bildirir. Gün ərzində hər hansı qanqaraçılığı gözlənilmir. Qərarlarınızda qətiyyətli olsanız, çox sahələrdə bəxtiniz də gətirəcək.

ƏKİZLƏR - Astroloji göstəricilər bu təqvimdə maraqlı səfərlərə çıxacağınızdan xəbər verir. Əgər planınızda belə bir şey varsa, reallaşdırın. Yeni simalarla üzləşməniz çox əhəmiyyətlidir.

XƏRÇƏNG - Olduqca təzadlı gündür. Ünsiyyətdə olduğunuz adamlar sizi çaşdıra bilər. Perspektivlərinizi reallaşdırmaq üçün müzakirələrə başlayın. Ulduzlar sizi müdafiə etməkdədir.

ŞİR - Səhər saatlarında müəyyən gərginliklə rastlaşsanız da, bunun neqativ nəticələri görünməyəcək. Təxminən saat 12-dən vəziyyətiniz düzələcək. Amma sağlamlığınızı da gözdən qoymayın.

QIZ - Daxili sabitliyinizi qoruyun. Əks təqdirdə, müttəfiqləriniz sizdən uzaqlaşa bilər. Çalışın ki, hər bir davranışda səmimi və təbii olasınız. Yalan vədlər verməkdən uzaq olun.

TƏRƏZİ - Müəyyən təsirlərə məruz qalacağınız gözlənilir. Bunun qarşısını almaq üçün riskli sövdələşmələrdən uzaq durmalısınız. Ümumiyyətlə, bu gün ağlınız kəsməyən işlərə baş qoşmamalısınız.

ƏQRƏB - Ünsiyyətdə olduğunuz bütün insanlarla davranışlarınızı səmimilik üzərində qurun. Maddi problemlərinizin aradan qalxacağına nikbin baxın. İnsanlara inamsız yanaşmayın.

OXATAN - Ailə zəminində müəyyən mübahisələriniz gözlənilsə də, bu, nəzərdə tutduğunuz planların reallaşmasına mane olmayacaq. Ailə-sevgi münasibətlərindəki passivliyi də aradan qaldırın.

OĞLAQ - Sürprizlər yolunuzu gözləyir. Bu səbəbdən də bir yerdə durmamalısınız. Evə bir qədər gec getsəniz də olar. Əsas məsələ planlarınızı həyata keçirməkdir. Bəxtinizdə pul da var.

SUTÖKƏN - Ulduzların düzümü maliyyə imkanlarınızın genişlənəcəyindən xəbər verir. Varlanmaq üçün xeyli şanslarınız var. Amma gün ərzində mənfi yüklü Ayın bürcünüzdə olmasını da unutmamalısınız.

BALIQLAR - İştirakçısı olduğunuz proseslərə ciddi yanaşsanız, gün ərzində nəzərdə tutduğunuz perspektivlərin əksəriyyətinə qovuşacaqsınız. Bu gün ulduzlar sizə ciddi məbləğdə pul da vəd edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Baş nazirin üstünə mayonez tökdülər



Belçikada feministlər "kəmər sıxma" siyasəti ucbatından etiraz etdikləri baş nazir Çarlz Maykla kartof qızartması atdıqdan sonra üstünə mayonez də töküblər. Valon bölgəsindəki Namen şəhərində iş adamları ilə görüşən baş nazir Maykl üzləri maskalı və "Kəmər sıxmağa son" şüarları səsləndirən iki qadının etirazı zamanı gülüb. Qadınlardan şikayətçi olmayacağını açıqlayan Maykl əynini dəyişdirmək üçün boş bir otağa daxil olanda etirazçılar da polis tərəfindən saxlanıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300